QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 062 (5534) 3 **aprel** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qәpik**

11 Aprel 2018
www.yap.org.az
#ilhamlairəli
ilhamla irəli



# İlham Əliyev xalqın yeganə lideridir!



**Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir**



2

**Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Qubada respublika elmi konfransı keçirilib**



3

**Prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin paylanmasına başlanılıb**



6

**Vüqar Səfərli: Azərbaycan mediasının inkişafı dövlətimizin daim diqqət mərkəzindədir**



17

**Böyük hərbi gücə malik Azərbaycan işğal altında qalan digər əraziləri də azad edəcək**



21

22

**"Meydan" TV "Milli Şura"nın mitinqini bu cür ifşa etdi**



18

**Hər bir azərbaycanlı əxlaqi və milli dəyərlərimizin qorunmasında fəal olmalıdır**



6

**Xalq öz dövlətini qoruyub, qoruyur və bundan sonra da qoruyacaq**






# Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlər müxtəlif sahələrdə uğurla inkişaf edir

*Prezident İlham Əliyev Belarusun Baş nazirinin müavinini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Belarus Respublikasının Baş nazirinin müavini, hökumətlərarası komissiyanın həmsədri Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, əlaqələrimizin daha da möhkəmləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulandı, ölkələrimiz arasında ticarət dövriyyəsinin daha da artırılmasının zəruriliyi qeyd edildi.

Belarusun Baş nazirinin müavini Gəncə traktor zavodunda 10 mininci traktorun yığılmasının əlamətdar bir hadisə olduğunu vurğulayaraq, Azərbaycan ilə Belarusun bu birgə məhsulunun üçüncü ölkələrə ixrac edilməsi imkanlarının araşdırılmasının önəmini qeyd etdi.

Dövlətimizin başçısı, öz növbəsində, bunu əlamətdar hadisə kimi qiymətləndirərək, regionlara səfəri zamanı fermerlərin Azərbaycan-Belarus birgə məhsulu olan traktorların keyfiyyətindən razılıq etdiklərini vurğuladı və bu məhsulun ixracı üçün yaxşı imkanların olduğunu dedi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında təhsil infrastrukturunun inkişafı ilə əlaqədar tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Aşıq Şəmşirin 125 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mövlud Balakişiyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan ədəbiyyatının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Mövlud Süleyman oğlu Balakişiyev (Mövlud Süleymanlı) "Şöhrət" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Tahir Əmiraslanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycanın milli kulinariya ənənələrinin qorunması və təbliği sahəsində xidmətlərinə görə Tahir İdris oğlu Əmiraslanov "Şöhrət" ordeni ilə təltif edilsin.

# Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Qubada respublika elmi konfransı keçirilib

***Martın 31-də Quba Soyqırımı Memorial Kompleksinin zalında 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr edilmiş respublika elmi konfransı keçirilib.***




AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Mədəniyyət və Turizm Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının və Quba Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Soyqırımların dərsləri" mövzusunda keçirilən konfrans "Quba soyqırımı" filminin nümayişi ilə başlayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa HƏBİBBƏYLİ çıxış edərək son iki yüz ildə Azərbaycan xalqının başına gətirilən müsibətlərdən danışıb. Akademik respublika elmi konfransının dövlətimizin başçısının "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamına əsasən təşkil olunduğunu diqqətə çatdırıb. Qeyd edib ki, azərbaycanlıların kütləvi qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli ağrılarındandır. 1918-ci ilin mart-aprel aylarında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək olub.

Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin mərhələlərlə davam etdiyini vurğulayan akademik bildirib ki, 1937-ci ilin qanlı repressiya hadisələrində də tarix sübut edib ki, erməni barmağı çevik şəkildə işləyib. 1946-1948-ci illərdəki deportasiya hadisələri də əslində soyqırımlarının başqa formasıdır. Tarixi Azərbaycan torpaqları olan, təmiz sulu, sərin havalı Qərbi Azərbaycandan azərbaycanlılar zorla şoran, isti rayonlara köçürülməklə onların böyük bir hissəsi məhv edilib. Beləliklə, bu faciələrin baş verməsindən indiyədək 100 minlərlə azərbaycanlı qətlə yetirilib, məscidlər, qəbiristanlıqlar dağıdılıb, kəndlər, qəsəbələr viran edilib.



"Bu hadisələr nəhayət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə nəticələndi", - deyən İsa Həbibbəyli qeyd edib ki, Azərbaycanın ovaxtkı rəhbərliyinin zəifliyi, səriştəsizliyi, vətənpərvər mövqe tuta bilməməsi nəticəsində torpaqlarımızın bir hissəsi Ermənistan tərəfindən işğal olundu, minlərlə həmvətənimiz qətlə yetirildi. Səriştəsiz rəhbərliyin bu ədalətsizliyə hətta siyasi-hüquqi qiymət verməyə cürəti çatmadı. Yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra bu hadisələrə obyektiv siyasi-hüquqi qiymət verildi. Ulu Öndərin qəbul etdiyi qərarlar əsasında ölkəmizin arxivləri Azərbaycan elminə, ictimaiyyətinə, dünyaya açıldı və bu hadisələr barədə obyektiv reallıqları öyrənmək mümkün oldu. Məhz həmin dövrdən AMEA-da azərbaycanlılara qarşı soyqırımlarını tədqiq edən daimi komissiya fəaliyyət göstərir. Artıq beynəlxalq aləm XX əsrin əvvəllərində ölkəmizdə azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırımı həyata keçirildiyini təsdiq edir. Bunu sənədlər, haqq-ədalət, Quba məzarlığı təsdiq edir. Elmi araşdırmalar sübut edir ki, ermənilərin azərbaycanlılara qarşı soyqırımı, terror siyasəti sistemli və məqsədli olaraq törədilib. Məqsəd Azərbaycan torpaqlarını ələ keçirməkdir. Eyni zamanda, aparılan tədqiqatlar göstərir ki, bu hadisənin coğrafiyası daha geniş olub. Orta Asiyadakı müsəlman əhalisinə də eyni vaxtda belə divanlar tutulub. Özbəkistanda baş verən hadisələr Qafqaz hadisələri ilə eyni vaxta düşür və bunun türk-müsəlman əhalisinə qarşı həyata keçirilən vahid siyasətin tərkib hissəsi olduğu elmi dəlillərlə isbat olunur. Qafqaz, Hindistan, Fransa, Rusiya arxivlərindən Azərbaycana gətirilən minlərlə sənəd ermənilərin qaniçən, cəllad, soyqırımının icraçıları olduğunu aydın şəkildə isbat edir. Xocalı soyqırımı da bu hadisələrin davamıdır.

Alim bildirib ki, Prezident İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamında məsələyə daha kompleks münasibət ifadə olunub. Sənəddə XX əsrdə baş vermiş hadisələrin soyqırımı, deportasiya və etnik təmizləmə xarakteri daşıdığı çox obyektiv şəkildə öz əksini tapıb. Biz bu gün Quba Soyqırımı Memorial Kompleksində bu konfransı həmin Sərəncama əsasən keçiririk. Quba məzarlığında aparılan tədqiqatlar sübut edib ki, burada vəhşicəsinə qətlə yetirilən Azərbaycan əhalisi, eyni zamanda, onlarla bərabər bu torpaqlarda qədimdən tolerant şəkildə yaşayan digər xalqların nümayəndələrinə qarşı da ermənilər eyni ağır cəzaları, qətliam hadisələrini törədiblər. Quba məzarlığı xalqımızın tolerantlıq, qardaşlıq, həmrəylik abidəsidir. Bu abidə Azərbaycan dövlətinin, xalqının terrora, təcavüzə, işğala "yox", sülhə, həmrəyliyə "hə" dediyinin bir ifadəsidir.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli HƏSƏNOV çıxış edib.




***Ardı Səh. 4***

# Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Qubada respublika elmi konfransı keçirilib

Əvvəli Səh. 3



Azərbaycanlıların soyqırımının 100 illiyi və Quba Soyqırımı Memorial Kompleksi ilə bağlı görülən işlər barədə məlumat verən Əli Həsənov deyib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il yanvarın 18-də “1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən, Prezident Administrasiyasının rəhbəri tərəfindən “1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə dair Tədbirlər Planı” təsdiq edilib. Bu gün Quba soyqırımı qurbanlarının xatirəsini anma mərasimi və öz işinə başlayan respublika elmi konfransı da həmin Tədbirlər Planına uyğun olaraq keçirilir. Eyni zamanda, xatırlatmaq istəyirəm ki, dövlətimizin başçısının tapşırığı ilə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev 2017-ci il iyunun 5-də “Quba şəhərində Soyqırımı Memorial Kompleksi ilə bağlı bəzi məsələlər haqqında” Sərəncam imzalayıb. Sərəncama əsasən yaradılan Komissiyanın qarşısına Kompleksdə yaranmış vəziyyətin ətraflı öyrənilməsi və məzarlığın durumuna təhlükə törədə biləcək proseslərin qarşısının alınması ilə bağlı təkliflər təqdim etmək vəzifəsi qoyulub. Bu tapşırığa uyğun olaraq, 2017-ci il iyunun 9-da Komissiya tam tərkibdə Quba şəhərinə gəlib, məzarlığa baxış keçirib, burada yaradılmış muzeyin iş şəraiti ilə tanış olub. Komissiya belə bir qənaətə gəlib ki, insan qalıqlarının çürüməsinin sürətlənməsi və torpağın sürüşmə hallarının aktivləşməsi məzarlığın olduğu şəkildə qorunub saxlanmasını çətinləşdirir. Ona görə də həmin ərazidəki insan sümüklərinin dini adət-ənənələrə uyğun dəfn olunması, qəbirüstü xatirə lövhəsinin qoyulması, gələcəkdə zəruri hallarda tarixi araşdırma məqsədilə qazıntı işləri üçün şəraitin yaradılması məqsədəuyğun hesab olunub və bu barədə ölkə rəhbərliyinə məruzə edilib. Artıq Komissiyanın təklifləri nəzərə alınaraq, soyqırımı qurbanlarının qalıqları dəfn edilib və məzarüstü xatirə lövhəsi qoyulub.

Əslində, azərbaycanlıların 1918-ci il soyqırımının Azərbaycan Xalq Cümhuriyyətinin qurulması yolunda xalqımızın üzləşdiyi ən ağır sınaq olduğunu vurğulayan Prezidentin köməkçisi deyib ki, amansız qırğına və ağır itkilərə baxmayaraq, xalqımız bu sınaqdan keçərək öz taleyinə və torpaqlarına sahib çıxdı, Şərqdə ilk müstəqil respublika yaratdı. İki aydan sonra Xalq Cümhuriyyətinin yaradılmasının 100 ili tamam olur. Bu yubileyin respublikada dövlət səviyyəsində geniş qeyd edilməsi üçün Azərbaycan Prezidenti 2017-ci il mayın 16-da xüsusi Sərəncam imzalayıb. Bu Sərəncam tariximizin həmin şərəfli dövrünü daha dərindən öyrənmək üçün yeni imkanlar açır.

Tarixin müxtəlif dövrlərində xalqımız erməni millətçiləri tərəfindən soyqırımı cinayətlərinə, kütləvi qırğınlara, deportasiyalara, etnik təmizləmələrə və terrora məruz qalsa da, həmin hadisələrə heç bir siyasi-hüquqi qiymət verilməsi mümkün olmayıb. Ona görə ki, hər dəfə ermənilər məkrli niyyətlərini öz havadarlarına, başqa sözlə, mərkəzi hakimiyyətə, real güc sahiblərinə arxalanaraq və onların iştirakı ilə həyata keçirirdilər. Bu, 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü illərdə və sonrakı dövrdə də məhz belə olub. Elə bu səbəbdən də soyqırımı faktları gizlədilir və ya təhrif olunmuş şəkildə təqdim edilir, elmi tədqiqat işləri sərt inzibati-ideoloji nəzarət altında aparılırdı. Nəticədə ötən əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində erməni ekspansionist şovinizmi bir daha baş qaldırdı, Azərbaycan xalqı yenidən çətin sınaqlara, deportasiyaya, etnik təmizləməyə, işğala düçar oldu və Xocalı soyqırımı kimi dəhşətli faciə yaşadı.



Çıxışına davam edən Əli Həsənov deyib: “Yalnız müstəqillik illərində keçmişimizin gerçək mənzərəsini yaratmaq və xalqımıza qarşı dəfələrlə törədilmiş soyqırımı cinayətlərinə siyasi-hüquqi qiymət vermək imkanı qazandıq. Bu baxımdan ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Fərman mühüm tarixi əhəmiyyət kəsb edir. Həmin sənəddə XIX əsrin əvvəllərindən müasir dövrümüzə qədər Azərbaycan torpaqlarının zəbti, kütləvi qırğınlar, deportasiya və etnik təmizləmələrlə müşayiət olunan faciələr ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələləri kimi qiymətləndirilib və 31 mart - Azərbaycanlıların Soyqırımı Günü elan edilib.

Ulu Öndərin təşəbbüsü ilə Xocalı soyqırımına da siyasi-hüquqi qiymət verilib, fevralın 26-sı Xocalı Soyqırımı Günü elan edilib. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində aparılan işlər sayəsində faciə ilə bağlı faktlar geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan məlumatlandırılıb. Artıq dünyanın 16 ölkəsi, ABŞ-ın 20-dən çox ştatı hökumət və ya parlament səviyyəsində, habelə İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyıb”.

Azərbaycan Respublikasının 1996-cı ilin mayında “Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında Konvensiya”ya qoşulduğunu xatırladan Prezidentin köməkçisi bildirib ki, bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 1948-ci il dekabrın 9-da qəbul olunub. Lakin həmin sənədin qəbulundan 70 il keçməsinə baxmayaraq, hələ də dünyanın bir çox yerlərində soyqırımı cinayətləri baş verir. Bunun başlıca səbəbi dünyada hökm sürən ikili standartlar, beynəlxalq birliyin, xüsusilə də aparıcı dövlətlərin soyqırımı cinayətlərinə vaxtında adekvat münasibət bildirməməsidir. Ona görə də dünyanın mütərəqqi qüvvələri, ictimai, siyasi, elm və mədəniyyət xadimləri soyqırımı cinayətlərinə yol açan etnik, irqi və dini dözümsüzlüyə, düşmənçilik yaradan bütün hallara qarşı qətiyyətlə mübarizə aparmalıdırlar. Digər tərəfdən, Azərbaycanda olduğu kimi, hər bir ölkədə etnik, mədəni və konfessional rəngarəngliyin milli sərvət, bəşəri dəyər kimi qəbul edilməsi, multikulturalizmin və tolerantlığın cəmiyyətin həyat tərzinə çevrilməsinə nail olunması lazımdır.

Elmi konfransın əhəmiyyətinə toxunan Əli Həsənov deyib: “Bugünkü respublika elmi konfransı erməni millətçilərinin insanlığa qarşı əməllərini ifşa etməklə yanaşı, bir daha belə halların baş verməməsi, insanların sülh və əmin-amanlıq şəraitində təhlükəsiz yaşayışının təmin olunması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü fəaliyyətə ölkəmizin elmi ictimaiyyətinin bir töhfəsidir”.

Mədəniyyət və turizm naziri Əbülfəs QARAYEV çıxış edərək konfransın keçirildiyi Quba Soyqırımı Memorial Kompleksinin olduqca təsirli, insanı çox kədərləndirən, eyni zamanda, böyük düşüncələrə çağıran bir məkan olduğunu deyib. İnsanı düşündürən ilk amil ondan ibarətdir ki, nə qədər vaxt keçsə də, həqiqət öz yerini tapacaq. Bu gün toplaşdığımız məkan bunun əyani təsdiqidir.



Kompleksin yaranma tarixindən danışan nazir bildirib ki, burada tikinti aparılmalı idi və hazırlıq işləri zamanı quyular aşkar olundu. Quyuların birində 500-dən çox insan cəsədinin qalıqları tapıldı və 100 il keçəndən sonra erməni vandalizmini, vəhşiliyini sübut edən bu insan sümükləri torpağın üzünə çıxdı. Azərbaycan Milli Elmlər Akademiyasının, Mədəniyyət və Turizm Nazirliyinin və digər aidiyyəti qurumların 2007-ci ildən 2009-cu ilədək apardıqları tədqiqatlar zamanı müəyyən olundu ki, təkcə bir quyuda 500 deyil, 1500-dən çox insanın kəsilmiş, doğranmış şəkildə qalıqları var.

“Təbii ki, Azərbaycan rəhbərliyi tərəfindən xüsusi qərarlar, sərəncamlar verildi, tədqiqatlar aparıldı və bütün bunlar kompleksin ərsəyə gəlməsinə təkan verdi”, - deyə Əbülfəs Qarayev əlavə edib ki, bu kompleksin inşası ilk gündən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın şəxsi nəzarəti altında ərsəyə gəlib. Bütün bu işlər Heydər Əliyev Fondunun dəstəyi ilə görüldü və Quba Soyqırımı Memorial Kompleksi kimi bir abidə yarandı.

“Bu məkan, eyni zamanda, bizi daim diqqətli və ayıq olmağa çağırır. Bu məkan deyir: baxın və agah olun! Çünki erməni işğalçı siyasəti heç də yalnız torpaqların işğalı ilə məhdudlaşmır”, - deyən nazir bildirib ki, mən iki faktı gətirmək istəyirəm. Bu yaxınlarda Azərbaycan Prezidenti Bərdədə türbənin bərpasından sonra açılışında iştirak etdi. Böyük tarixi məkandır. 1960-cı illərdə - Sovet İttifaqı dövründə Azərbaycanda bərpa təşkilatına rəhbərlik edən erməni kərpicdən tikilmiş o abidənin üzərinə 60 tonluq beton örtüyü qoymuşdu. Məqsəd ondan ibarət idi ki, Azərbaycan xalqına aid olan tarixi abidə getdikcə çöksün, dağılsın. Bu gün bu proses Azərbaycanın işğal altındakı ərazilərində davam edir. Bu gün Azıx mağarasında qanunsuz qazıntı işləri aparırlar, uydurduqları faktlar əsasında özləri üçün saxta tarix yazırlar. Dağlıq Qarabağda bir daş tapdılar və yazdılar ki, bu, Tiqrana kəndinin qalıqlarıdır. Orada Tiqrana kəndi necə ola bilər ki, orada heç vaxt ermənilər yaşamayıblar?! Onlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə köçürülüblər. Bu köçün 150 illiyi ilə bağlı özləri abidə qoymuşdular, onu da dağıtdılar ki, bu iz qalmasın. Bu gün ermənilər bu torpaqlarda yaşayan azərbaycanlının, rusun, gürcünün, ləzginin, yəhudinin və digər millətlərə məxsus olan çörəyi də beynəlxalq səviyyədə öz adlarına çıxırlar. UNESCO səviyyəsində deyirlər ki, lavaş, musiqi, rəqs bizimkidir, hər şey bizimkidir. Bu çirkin siyasət davam edir. Biz beynəlxalq ictimaiyyəti daim məlumatlandırmalıyıq. Biz Azərbaycan xalqının, burada əsrlərlə yaşayan digər xalqların yaratdığı nemətləri, adət-ənənələri qorumalıyıq və gənc nəslə ötürməliyik. Onlar bilməlidirlər ki, bu nemətləri, bu adət-ənənələri burada daimi yaşayan xalqlar yaradıblar.

Ardı Səh. 5

# Azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə bağlı Qubada respublika elmi konfransı keçirilib

Əvvəli Səh. 4

Bədnam qonşularımız isə işğalçılıq siyasəti yürüdərək milli mədəniyyətimizə əl uzadır, ona sahib çıxmaq istəyirlər. Lakin unutmasınlar ki, bu, heç vaxt mümkün olmayacaq. Çünki biz öz sərvətlərimizi qoruyuruq və dövlətimizin siyasəti beynəlxalq səviyyədə ona yönəlibdir. Heç kəs Azərbaycan xalqının mədəni sərvətlərinə, torpaqlarına sahib çıxa bilməz. Bu gün bu məkan bir nümunədir, milli yaddaşımızın bir hissəsidir. Bizim məqsədimiz milli mədəniyyətimizi, milli sərvətlərimizi qoruyub yaşatmaq və dünyaya sübut etməkdir ki, erməni faşizmi bu gün də yaşayır və ona qarşı bütün bəşəriyyət tərəfindən mübarizə aparılmalıdır.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin ƏLİYEV çıxış edərək deyib ki, Azərbaycan torpaqlarında sonradan məskunlaşdırılmış nankor və mənfur ermənilər tarix boyu xalqımıza qarşı bir neçə dəfə dəhşətli soyqırımları törədib, öz məkrli məqsədlərinə çatmaq üçün hər cür vəhşiliyə, vandalizmə əl atıblar. 1918-ci ilin mart ayından etibarən azğın erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi etnik təmizləmə və təcavüz siyasəti nəticəsində Bakı, Quba, Şamaxı, Göyçay, Salyan, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran, Gəncə və digər bölgələrdə on minlərlə günahsız azərbaycanlı qətlə yetirilib, xalqımıza qarşı XX yüzilliyin ən faciəli soyqırımlarından biri törədilib. Həmin ilin aprel-may aylarında erməni daşnakları Quba qəzasında amansız vəhşiliklər törədib, onlarla kənd, Quba şəhərinin özü talanlara və yanğınlara məruz qalıb, qəzanın müsəlman və yəhudi əhalisi kütləvi surətdə qətlə yetirilib.

İcra başçısı deyib ki, 2007-ci ilin aprel ayında Quba şəhərində torpaq işləri aparılarkən aşkar edilmiş kütləvi məzarlıq erməni vəhşiliklərinin bariz nümunəsi, azərbaycanlıların soyqırımının danılmaz sübutudur. Məzarlıq aşkar edildikdən sonra Quba ziyalıları, ictimaiyyəti ali orqanlara müraciət edərək bu istiqamətdə araşdırmaların aparılmasını xahiş etmişlər. Müvafiq qurumlardan əraziyə mütəxəssislər ezam olunmuş, dərhal tədqiqatların aparılmasına başlanmışdır. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bu kütləvi məzarlıq 1918-ci ilin aprel-may aylarında cəllad Amazaspın ermənilərdən ibarət 3 min nəfərlik quldur dəstəsinin Qubada yerli dinc əhaliyə qarşı törətdiyi vəhşiliyin illər boyu gizli qalan qanlı izidir. Aparılan bütün tədqiqatların və araşdırmaların nəticəsi olaraq Azərbaycan Respublikasının Prezidenti "Quba şəhərində Soyqırımı Memorial Kompleksinin inşa edilməsi barədə" 2009-cu il 30 dekabr tarixli Sərəncam imzalayıb. Sərəncama müvafiq olaraq 2012-2013-cü illərdə Heydər Əliyev Fondu tərəfindən ümumi sahəsi 3,5 hektar olan Soyqırımı Memorial Kompleksi inşa edilib. Memorial Kompleksin 2013-cü il sentyabrın 18-də dövlət rəsmilərinin iştirakı ilə açılışı olub.

"Memorial Kompleksə respublikamızın rəhbərliyi tərəfindən yetirilən xüsusi diqqət onun yalnız tarixi əhəmiyyəti ilə məhdudlaşmır", - deyən Ziyəddin Əliyev bildirib ki, Azərbaycan Respublikasının bu gün də Ermənistan tərəfindən təcavüzə məruz qalması, bir milyondan artıq qaçqın və məcburi köçkün faktı, xüsusilə Xocalı soyqırımı onu göstərir ki, millətçi ermənilərin xalqımıza qarşı törətdikləri qanlı cinayətlər heç də bu günün hadisəsi deyil. Bu qırğınların tarixi çox qədimlərə gedib çıxır və 1918-ci il hadisələri məhz həmin tarixin bariz nümunəsidir. Ancaq xalqımızın gözəl bir misalı var, qisas yerdə qalmaz. İnanırıq ki, qüdrətli Silahlı Qüvvələrimiz tezliklə erməni cəlladlarına öz yerlərini göstərəcək, torpaqlarımız işğaldan azad olunacaq, tarixi ədalət bərpa ediləcəkdir.

AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı akademik Yaqub MAHMUDOV çıxışında bildirib ki, bu gün biz Azərbaycan xalqına qarşı soyqırımı cinayətinin törədildiyini sübut edən bir məkandayıq. Biz ona görə buradayıq ki, dövlətimiz öz millətinə, xalqımızın tarixinə dərin qayğı və ehtiramla yanaşır, xalqımızı tarixinə qovuşdurmaqdan ötrü bütün addımları atır.

"Bizim torpaqlarımızda erməni tarixi yoxdur", - deyən akademik bildirib ki, 1918-ci il mayın 29-da İrəvan onlara verilənə qədər burada erməni dövləti olmayıb. İlk dəfə erməni vilayəti anlayışı çar I Nikolayın fərmanı ilə Türkmənçay müqaviləsi imzalanandan sonra Qarabağ, Naxçıvan İrəvan xanlığının yerində gələcəkdə erməni dövləti yaratmaqdan ötrü Ermənistan vilayəti yaradıldı - Armeniya. Bu, 1828-ci ilə təsadüf edir. Amma tarix saxtalaşdırıldı. Həmin qırğınları törədən qüvvələr təzə tarix yaratdılar. Məqsəd bu regionda başqa xalqların hamısını məhv etmək, türk-islam amilini silmək, Qacarlar İranını və Osmanlı dövlətini aradan qaldırmaqdan ötrü ocaq yaratmaq idi. O ocaq da ondan ibarət oldu ki, erməniləri kütləvi surətdə bizim torpaqlara köçürdülər. İrəvan xanlığının ərazisinə, Naxçıvana gətirdilər, buranın camaatı ayağa qalxdı, onları qovub ərazidən çıxardılar.

Beləliklə, Cənubi Qafqazda tarixin əvvəlki gedişatı pozuldu. Məqsəd yalnız bu idi - türk-islam amilini, yerli xalqları məhv edib "böyük Ermənistan" yaratmaq. Birinci Dünya müharibəsinin gedişində erməniləri inandıra bildilər ki, Osmanlı imperiyasını bölüşdürəcəyik. Erməniləri ruhlandıran, onları qəddarlaşdıran da bu şirnikləndirici vədlər idi.

Azərbaycan dövləti bizim qarşımızda xalqımızın və Vətənimizin həqiqi tarixini yazmaq vəzifəsi qoyub. Bizim institutun alimləri xarici ölkələrin arxivlərində Azərbaycanla bağlı sənədləri ölkəmizə gətiriblər. Bu sənədlər Azərbaycan xalqına, bu regionda türk, müsəlman əhaliyə, digər millətlərin nümayəndələrinə qarşı törədilmiş soyqırımları faktını əyani surətdə təsdiq edir. Ən tutarlı fakt odur ki, vaxtilə İrəvan və ətrafındakı 9 min kvadratkilometr sahəsi olan Azərbaycan torpaqları ermənilərə dövlət yaratmaq üçün verildi. Şərt qoyuldu ki, bir daha Azərbaycandan torpaq istəməməlisiniz, soyqırımını dayandırmalısınız, bu torpaqlarda azərbaycanlılara eyni hüquqları verməlisiniz. Yaradılan Ararat Ermənistan respublikası isə orada dövlət səviyyəsində soyqırımı həyata keçirdi. Şaumyanla, Andraniklə əlaqə yaratdılar və Azərbaycan Xalq Cümhuriyyətini çökdürməkdən ötrü əllərindən gələni etdilər. Amma Azərbaycan xalqı, Azərbaycan dövləti yaşadı.

Bizim arxamızda ermənilərin arxasında olan böyük qüvvələr yox idi. Onlara verilmiş silahlardan da bizdə yox idi. Amma dövlətçilik mədəniyyəti olan Azərbaycan xalqı, türk-islam birliyi mübarizə apardı. Bu, bizim qəhrəmanlıq səhifəmizdir. Bu gün biz yaşayırıq. Biz qüdrətli xalqıq, bizim qədim dövlətçilik mədəniyyətimiz var. Bu gün qarşımızda duran vəzifə ondan ibarətdir ki, müstəqilliyimizi qoruyaq, torpaqlarımızı işğaldan azad edək. Bu yolda hamımıza uğurlar diləyirəm.

Sonra konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz QURBANLI çıxış etdi. Komitə sədri bildirdi ki, bu gün dünyanın hər yerində - harada azərbaycanlılar, harada Azərbaycanın səfirliyi, konsulluğu, harada azərbaycansevərlər varsa, onlar xalqımıza qarşı soyqırımı qurbanlarının xatirəsini yad edirlər. Bu tədbirlərdə son zamanlar soyqırımı ilə əlaqədar yazılan çoxsaylı tədqiqat əsərləri, üzə çıxarılan materiallar barədə ətraflı məlumat verilir. Bu iş mütəmadi aparılmalı, beynəlxalq ictimaiyyətə çatdırılmalıdır ki, ermənilər tarixdə təkcə azərbaycanlılara qarşı deyil, əksər xalqlara qarşı soyqırımları törədiblər. Ermənilər harada məskunlaşıblarsa, orada monoetnik toplum yaratmağa çalışıblar. Bu gün bunu ABŞ-da, Fransada ermənilərin yaşadıqları məhəllələrdə görə bilərik. Ermənilləri uşaqlıqdan terror təşkilatının üzvü kimi tərbiyə edirlər. Bu işlərin təşkilində isə erməni kilsəsi öndə gedir. Erməni kilsəsi, əslində, xristian kilsəsinin ayrı bir parçasıdır. Bəlkə də dəqiq tədqiqatlar aparılsa, alimlərin fikirlərinə istinad olunsa, xristianlığa çox da dəxli olmayan bir kilsədir. Bu kilsə, əslində, terror yuvasının başında dayanır və onu qidalandırır. Bu əvvəllər də olub və bu gün də davam etməkdədir. Ermənilər harada olublarsa, ətrafındakılara qarşı özlərini üstün göstərməyə çalışıblar. Əgər çoxluqda olublarsa, digər xalqları əzməyə, məhv etməyə başlayıblar. Azlıqda olduqda isə yazıq cildinə girərək imdad diləyib, pay umublar. Bu gün Rusiyanın Krasnodar vilayətində yaşayan ermənilər orada torpaq iddiası irəli sürürlər. Gürcüstanın Cavaxetiya bölgəsində torpaq iddiası ilə çıxış edirlər. Bu gün artıq onlar Avropada da yaşadıqları yerlərdə torpaq iddiasındadırlar.

Azərbaycanda da ermənilərin törətdikləri soyqırımlarının məqsədi yeni torpaqlar ələ keçirmək idi. Bu torpaqları ələ keçirmək üçün insanları fiziki olaraq məhv edirdilər. Bu əməllərin nəticəsidir ki, ermənilər bu gün Azərbaycanın tarixi torpaqlarında özlərinə dövlət qurub, adına da Ermənistan deyirlər. Əslində bu torpaqların hamısı bizə məxsusdur. Bunu heç bir tarixçi inkar edə bilməz.

"Ermənilər Azərbaycan torpaqlarını mərhələlərlə işğal ediblər", - deyən Mübariz Qurbanlı bildirib ki, bunun nəticəsində Xalq Cümhuriyyəti dövründə 114 min kvadratkilometr ərazimizdən 86,6 min kvadratkilometri qaldı. Ərazimizə növbəti dəfə göz dikən ermənilər Azərbaycanın 20 faiz torpaqlarını da işğal etdilər. Ermənilər bizim torpaqlarımızı işğal etməklə ərazilərini genişləndirmək siyasətini soyqırımı vasitəsilə həyata keçirirlər. Dünya tarixində minlərlə müharibələr olub. Bu müharibələrdə çox sayda faciələr, qırğınlar baş verib. Amma digər müharibələrdən fərqli olaraq, ermənilər ələ keçirdikləri torpaqlarımızda yaşayan bütün əhalini qovub, ya da tamamilə məhv ediblər.

Ermənilərin törətdikləri soyqırımları yalnız insanların fiziki məhv edilməsi ilə bitmir. Burada mədəniyyətə, dinə, millətə məxsus dəyərlərə qarşı cinayət var. Bu cinayətlər davam etməkdədir. İşğal olunmuş ərazilərimizdə ermənilər bütün tarixi, dini, mədəni abidələrimizi məhv ediblər.

Türk Tarix Qurumunun Erməni Araşdırmaları Mərkəzinin rəhbəri, professor Kamal ÇİÇƏK çıxışında yüz il əvvəl ermənilərin Bakıda, Qubada və digər bölgələrdə Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdikləri qanlı cinayətlərin, etnik təmizləmə və soyqırımının qurbanlarının xatirəsinə həsr olunan konfransın əhəmiyyətini yüksək qiymətləndirib. 2008-ci ildə Quba rayonuna səfərini xatırladan türkiyəli tarixçi deyib: "Çayın sahilindəki bu ərazi həmin vaxt istifadə olunmayan yer idi. Hazırda - ovaxtkı səfərimdən on il sonra görürəm ki, burada möhtəşəm Memorial Kompleks inşa olunub və onun daxilində çox tarixi əhəmiyyətli muzey yaradılıb. Bu kompleksin, eləcə də muzeyin inşasına və son dərəcə sanballı tarixi faktların və sənədlərin nümayişi üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlığımı bildirirəm".

Kamal Çiçək diqqətə çatdırıb ki, Quba Soyqırımı Memorial Kompleksi Azərbaycan xalqının yüz il əvvəl ermənilərin qanlı qırğınına məruz qalan qardaş və bacılarının xatirəsinə dərin ehtiramının nümunəsi kimi əbədi qalacaq. Bu abidə həm də soyqırımı qurbanlarının xatirəsinin anılması üçün ziyarətgahdır. Quba Soyqırımı Memorial Kompleksi, həmçinin ermənilərin yox etməyə çalışdığı tarixin məhv edilməsinin mümkünsüzlüyünün göstəricisidir.

Türkiyəli alim deyib ki, ermənilər işğal etdikləri tarixi torpaqlarımızda dövlət qurduqdan sonra bu ərazilərdə türk-müsəlman əhalisinin izlərini silməyə çalışıblar. 2004-cü ildə Ermənistana səfəri zamanı bunun canlı şahidi olduğunu vurğulayan Kamal Çiçək qeyd edib ki, bu ölkənin ərazisində türk-müsəlman əhalisinə aid hər hansı abidə, o cümlədən məscid, hamam, mədəniyyət mərkəzi, karvansaray qalmayıb. Ermənilər işğal etdikləri ərazilərdə türklərin, azərbaycanlıların izlərini silmək üçün var gücləri ilə çalışırlar. Hətta Qubada, Bakıda, Naxçıvanda və digər ərazilərdə törətdikləri soyqırımlarına dair ABŞ arxivlərində saxlanılan sənədləri belə məhv ediblər.

Professor Kamal Çiçək rəhbəri olduğu Türk Tarix Qurumunun Erməni Araşdırmaları Mərkəzinin ermənilərin Azərbaycanda törətdikləri soyqırımları ilə bağlı geniş araşdırmalar apararaq, bu barədə tarixi faktların, məlumatların türk və ingilis dillərində dünya ictimaiyyətinin diqqətinə çatdırdığını bildirib. O, bu sahədə daha səmərəli nəticəyə nail olunmasında azərbaycanlı və türkiyəli alimlərin, tarixçilərin birgə fəaliyyətinin önəmini vurğulayıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ çıxış edərək dedi ki, məndən əvvəlki natiqlər ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımları haqqında ətraflı məlumat verdilər. Mən bir məsələni əlavə etmək istəyirəm. Bu, tarixi faktdır ki, ermənilər ərazilərimizi işğal ediblər, xalqımıza qarşı soyqırımları törədiblər, insanları öldürüblər, başlarını kəsiblər. Ermənilər bu siyasəti bu gün də davam etdirirlər. Amma onun forması dəyişib. İndi onlar Azərbaycan xalqına qarşı informasiya müharibəsi aparırlar, özü də sapı bizdən olan baltalar vasitəsilə. Mən tam əminəm ki, bu informasiya müharibəsinin də arxasında ermənilər dayanırlar. Yəqin ki, o vaxt da belə satqınlar olub. Onlar olmasaydı, ermənilər bizə qarşı bu cür soyqırımları törədə bilməzdilər.

Biz bir neçə gün əvvəl dini konfessiyaların rəhbərləri ilə birgə tədbir keçirdik və soyqırımı ilə bağlı dünya ictimaiyyətinə müraciət olundu. Müraciətdə ermənilərin xalqımıza qarşı apardığı soyqırımı siyasəti barədə beynəlxalq təşkilatlara ətraflı məlumat verilib. Ona görə də mən burada geniş çıxış etmək istəmirəm.

Mən bu müqəddəs yerdən bir daha çağırış edirəm. Bir tərəfimdə yəhudi, o biri tərəfimdə xristian, udin və Qafqazın müftisi dayanıb. Azərbaycanda soyqırımına məruz qalanlar arasında azərbaycanlılarla bərabər, ləzgilər, yəhudilər, ruslar da olub. Ona görə də biz bu dövləti birlikdə qorumalıyıq. Din xadimləri bu işdə fəal olmalıdırlar. Əlbəttə, din dövlətdən ayrıdır. Amma dindar cəmiyyətdən, dövlətdən, dövlətçilikdən, Vətəndən ayrı ola bilməz. Bu dövlət bizim dövlətimizdir. Ona görə də xaricdən dövlətimizə qarşı aparılan təxribatlara birlikdə cavab verməliyik.

Daha sonra dini konfessiyaların rəhbərləri soyqırımı qurbanlarının xatirəsinə dualar oxuyublar.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov konfransa yekun vurdu.

## Quba Memorial Kompleksində 31 mart soyqırımı ilə bağlı foto və kitab sərgisi açılıb



Martın 31-də Quba Soyqırımı Memorial Kompleksində “1918-ci ilin mart soyqırımı Belarus fotoqrafı Lev Daşkeviçin gözü ilə” adlı fotosərgi və azərbaycanlıların soyqırımına həsr edilmiş kitab sərgisi açılıb.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, azərbaycanlıların soyqırımının 100-cü ildönümü ilə əlaqədar Quba Soyqırımı Memorial Kompleksinə təşkil olunan yürüşün və burada keçirilən respublika elmi konfransının iştirakçıları sərgilərlə tanış olublar.

Məlumat verilib ki, Lev Daşkeviç Azərbaycan Xalq Cümhuriyyəti dövründə soyqırımı faktlarının araşdırılması məqsədilə yaradılmış Fövqəladə İstintaq Komissiyasının tərkibində fotoqraf-ekspert kimi fəaliyyət göstərib. Fotoqrafın Şamaxı şəhərində və kəndlərində çəkdiyi şəkillərin sayı 62-dir. Onlardan 45-i şəhərin özündə, 17-si isə kəndlərdə, xüsusilə Əngəxaran, Ağsu, Boyat, Mərzəndiyə, Təklə-bəy, Çarhan və Çuxanlıda çəkilib.

Şamaxı şəhərinin müsəlmanlar yaşayan hissəsində çəkilmiş fotoşəkillərdə evlərin, müxtəlif təyinatlı tikililərin alovun təsirindən qaralmış divarları ilə yanaşı, ayrı-ayrı iriölçülü binaların xarabalıqlarını aydın görmək olar. Şəhərin bu hissəsindəki dağıntıların mərkəzində əzəmətli tikililərdən olan Cümə məscidinin yanmış divarları və yanğının təsirindən uçub dağılmış minarəsi diqqəti cəlb edir. Bir sözlə, fotolarda Şamaxı şəhərinin ermənilərin soyqırımı nəticəsində necə dağıdıldığı, xarabalığa çevrildiyi bilinir.

Belaruslu fotoqrafın Şamaxıda çəkdiyi şəkillərin bəziləri tükürpərdici olması ilə seçilir. Şıxminas kənd sakini Sultanovun evinin həyətindəki insan sümükləri: kəllə sümüyü, alt çənə sümüyü, qabırğa və onurğa sümüklərinin qalıqları erməni-daşnak hərbi birləşmələrinin törətdiyi vəhşilikləri əks etdirir. Bu evə sığınmış uşaqlı qadınlar burada silahlı dəstələr tərəfindən qətlə yetirilib. Kitab sərgisində isə 1918-ci ilin mart soyqırımına dair araşdırma materiallarının toplandığı nəşrlər sərgilənib.

## Prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin paylanmasına başlanılıb



2018-ci il aprelin 11-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb. AZƏRTAC xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin rəhbərliyi və əməkdaşları, eləcə də dairə seçki komissiyalarının sədrləri və katiblərinin iştirakı ilə Milli Məclisin Mətbəəsində açıq və şəffaf keçirilən tədbirdə beynəlxalq qurumların nümayəndələrinin, kütləvi informasiya vasitələrinin və seçki prosesinin iştirakçıları olan müxtəlif subyektlərin prosesi yaxından izləmələrinə tam şərait yaradılıb. İlk gün - aprelin 2-də seçki bülletenlərinin Naxçıvan Muxtar Respublikasındakı seçki dairələri, Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərində, konsul idarələrində və üzən gəmilərdə Seçki Məcəlləsinin tələblərinə müvafiq qaydada yaradılmış seçki məntəqələrinin aid olduğu seçki dairələri, həmçinin respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə 41 seçki dairəsinə, növbəti 2 gün ərzində isə respublikanın digər bütün seçki dairələrinə təhvil verilməsi nəzərdə tutulur.

Tədbirdə seçki bülletenlərinin hazırlanması və aidiyyəti üzrə çatdırılması ilə bağlı Seçki Məcəlləsinin tələbləri və prosesin təşkili barədə kütləvi informasiya vasitələrinə ətraflı məlumat verilib, aşkarlığın və şəffaflığın təmin olunması üçün bütün mərhələlərin media mənsubları tərəfindən hərtərəfli işıqlandırılmasına tam şərait yaradılıb, eyni zamanda, jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən təmin olunan yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən həyata keçirilir.

Qeyd edək ki, prezident seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, martın 24-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və Komissiyanın qərarı ilə 5347803 (beş milyon üç yüz qırx yeddi min səkkiz yüz üç) ədəd bülleten çap olunub. Seçki Məcəlləsinə əsasən bülletenlər dairə seçki komissiyalarına paylandıqdan sonra, seçki gününə azı 3 gün qalmış dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

## Xalq öz dövlətini qoruyub, qoruyur və bundan sonra da qoruyacaq

*Çünki Azərbaycanı demokratik inkişaf yolu ilə irəli aparan, bir çox sahələrdə dünyaya nümunə olan dövləti və lideri var*



***Demokratik cəmiyyətdə, çoxpartiyalı seçki sisteminə malik ölkədə siyasi mübarizə təbii qəbul olunur və bunun alternativi yoxdur. Demokratik hüquqi dövlət olan Azərbaycanda da söz və mətbuat azadlığı təmin edilib, siyasi partiyaların sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılıb. Özünə, öz elektoratına güvənən hər bir partiya və hər bir şəxs istər prezident, istərsə də parlament və bələdiyyə seçkilərinə qatıla bilər. Seçkilərdə bütün partiyalara və ayrı-ayrı fərdlərə bərabər şərait yaradılıb və bu mənada heç kəsin gileylənməyə haqqı yoxdur.***

Əlbəttə, söhbət normal, beynəlxalq aləmdə qəbul olunan mübarizə formalarından və üsullarından gedir. Bəs yaşadığımız günlərin mənzərəsi necədir?

Sirr deyil ki, bütün ölkələrdə seçkilər ərəfəsində siyasi ehtirasların qızışması, fəallığın artması ilə yanaşı, xarici məkrli qüvvələrin planları da dövriyyəyə buraxılır. Biz Azərbaycanda keçirilən prezident və parlament seçkilərində, referendumlarda bunun dəfələrlə şahidi olmuşuq. Əvvəlki seçkilərdə “kütləvi iğtişaşlar”, “boykot”, “rəngli inqilab”, “milyarderlər ittifaqı” kimi bədnam planları iflasa uğrayan, ümidləri boşa çıxan anti-Azərbaycan dairələri indi də dövlətə, dövlətçiliyə, hakimiyyətə, milli elitaya, ümumiyyətlə, cəmiyyətimizə qarşı sosial şəbəkələrdə yalan, böhtan, şantaj, təhqir, söyüş, zorakılığa çağırış maşınını işə salıblar. Ən iyrənc cəhət isə budur ki, bu maşının vintcikləri öz xalqına, vətəninə, dövlətinə dönük çıxan, xarici xidmət orqanlarının ələ aldığı bir neçə azərbaycanlıdır. Onlar xarici xidmət orqanlarına işlədiklərini gizlətməyə çalışırlar. Ancaq əsassız fikirləri, qeyri-əxlaqi ifadələri, heç bir fakta söykənməyən mülahizələri təkrarlamaqdan yorulmayan bu avantüristlərin siyasi trayektoriyasını təhlil edəndə, izlər birbaşa anti-Azərbaycan dairələrə gedib çıxır. Əlbəttə, çox çəkməyəcək ki, onların hansı dairələrin əlində alət olduqları, kimlərə işlədikləri üzə çıxacaq.

Azərbaycanda bərqərar olan möhkəm ictimai-siyasi sabitliyi pozmağa çalışan bu dairələr əmin-amanlığımızın dayağı olan xalq-iqtidar birliyini sarsıtmağı hədəfə alıblar. Onların apardıqları informasiya təxribatının digər bir hədəfi dövlətimizi parçalamaq, cəmiyyətimizdə qarşıdurma yaratmaqdır.

Zaman-zaman şahid oluruq ki, Azərbaycanın müstəqil siyasət yeritməsi, yalnız milli-maraqlardan çıxış etməsi bəzi qüvvələrin ürəyincə deyil. Ona görə də ölkə rəhbərliyinə müti, onların sözü ilə oturub-duran şəxsin gəlməsini istəyirlər. Ancaq unudurlar ki, müasir müstəqil Azərbaycan dövlətinin sükanı etibarlı əllərdədir. Bu əllərin sahibini dünya artıq qətiyyətli, iradəli, cəsarətli, praqmatik dövlət xadimi kimi tanıyır, ona inanır və hörmət edir.

Düşünürəm ki, anti-Azərbaycan dairələrin və antimilli qrupların yalan və böhtanlarına dövlətimizin son illərdə qazandığı çoxsaylı uğurlardan bir neçəsini sadalamaq ən tutarlı cavab olardı:

* Dünya birliyinin nüfuzlu aktorlarından biri kimi Azərbaycan regionun situasiyasını dəyişən layihələr reallaşdırıb.

* Azərbaycan tarixən çox qısa dövrdə elə bir dövlətə çevrilib ki, dünyanın siyasi arxitekturasında təkcə regional deyil, həm də qlobal çağırış və təhdidlərlə əlaqədar onunla hesablaşırlar.

* Cənubi Qafqazda ən böyük istehsal və intellektual potensiala malik Azərbaycan regionun enerji, nəqliyyat, logistika, humanitar dialoq mərkəzinə çevrilib.

* Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, qlobal iqtisadiyyatda və maliyyə məsələlərində Azərbaycanın rolunun ildən-ilə möhkəmlənməsi artıq etiraf edilən reallıqdır.

* Azərbaycanın xarici siyasət strategiyası yaradıcı əməkdaşlıq yolu ilə milli maraqların təmin olunmasına yönəlib.

* Azərbaycan dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyir və bunun təsdiqi olaraq istənilən qədər misal çəkmək olar.

* Azərbaycan diplomatiyası praktiki fəaliyyətdə beynəlxalq tərəfdaşlarla suveren mövqelərdən çıxış edərək tam hüquq bərabərliyi, qarşılıqlı maraqların və faydanın nəzərə alınması əsasında fəaliyyət göstərir.

* Azərbaycan son 25 il ərzində özünü müstəqil xarici siyasət yürüdən, regional inkişafa, təhlükəsizliyə, sabitliyə və multikulturalizmə töhfə verən etibarlı beynəlxalq tərəfdaş kimi tanıdıb.

* Azərbaycanda sistemli və ardıcıl islahatlar aparılıb. İndi də uğurla davam etdirilən bu islahatlar nəticəsində ölkəmiz sözün tam mənasında müasirləşir və modernləşir.

Bu və digər uğurlar qarşısında heç bir böhtan və yalan tab gətirə bilməz. Azərbaycan hakimiyyətinin fəaliyyətinə qara yaxanların, onun imicini yalan və böhtanlarla gözdən salmağa çalışanların canfəşanlığı əbəsdir. Azərbaycan Prezidentinin reytinqi əvvəlki seçkilərdə olduğu kimi, bu gün də çox yüksək olaraq qalır. Xalqımız Azərbaycanı dinamik inkişaf yoluna çıxaran, dünyada söz və nüfuz sahibinə çevirən, milli maraqları qətiyyətlə müdafiə edən LİDERİNƏ inanır və güvənir. 11 aprel prezident seçkiləri ərəfəsində beynəlxalq və yerli müşahidə qurumlarının keçirdikləri rəy sorğularının nəticələri bunun əyani təsdiqidir. Amerika Birləşmiş Ştatlarının “AJF&Associates Inc.” təşkilatının və Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının, Fransanın “Opinion-Way” Sosioloji Tədqiqatlar İnstitutunun və “Vətəndaş Cəmiyyəti Uğrunda” Müstəqil Məsləhət və Yardım Mərkəzinin keçirdikləri rəy sorğularının nəticələrinə görə, respondentlərin müvafiq olaraq 82,9 və 83,4 faizi İlham Əliyevin namizədliyinə səs verəcəyini bildirib. Bolqarıstanın Azad və Demokratik Seçkilər Uğrunda Vətəndaş Təşəbbüsü (GİSDİ) prezident seçkilərinin müşahidəsi ilə bağlı aralıq hesabatında bəyan edib ki, seçkiqabağı şərait və qanunverici baza ədalətlidir və demokratik seçkilərin keçirilməsini təmin edir. “ELS-Müstəqil Araşdırmalar Mərkəzi” İctimai Birliyinin keçirdiyi sorğuda rəyi soruşulanların 84,1 faizi seçkilərdə birmənalı olaraq İlham Əliyevə səs verəcəklərini bildirib. Qoy, qarayaxma, böhtan, şantaj, söyüş yolu tutanlar bir öz əxlaq meyarlarına baxsınlar, bir də bu rəy sorğularının nəticələrinə.

Çox əlamətdar haldır ki, böhtanı, təhqiri, şantajı, zorakılığa çağırışı, söyüşü özləri üçün siyasi mübarizə alətinə çevirən anti-Azərbaycan dairələrin və antimilli qrupların informasiya müharibəsinə qarşı Azərbaycan mediası vahid mövqedən çıxış etmək platformasını formalaşdırıb. Lakin indiki həssas geosiyasi məqamda təkcə mətbuatın mübarizəsi yetərli deyil. Dövlətimizi, dövlət rəmzlərimizi, ölkə rəhbərliyini, siyasi xadimləri, ziyalıları təhqir edən, ölkədə sabitliyi pozmağa çalışan qüvvələrə hüquqi müstəvidə cavab verilməsi vaxtı yetişib. Bunun üçün həmin antimilli qüvvələrin çıxışlarında kifayət qədər hüquqi əsaslar var. Bu istiqamətdə də ciddi iş aparılmalıdır. Çünki bu üzdəniraq əməllər təkcə dövlətə, onun rəhbərinə, ayrı-ayrı fərdlərə deyil, bütövlükdə xalqa, ölkəmizdəki sabitliyə, milli mənəvi dəyərlərimizə qarşı edilən hücumlardır. Bir vətəndaş olaraq buna biganə qalmağa sadəcə haqqımız yoxdur.

Qeydlərimi bu qənaətlə yekunlaşdırmaq istəyirəm. Azərbaycanın siyasi meydanında ölkəni demokratik inkişaf yolu ilə irəliyə aparan, bir çox sahələrdə dünyaya nümunə olan dövlət və lider, eyni zamanda, xalqın üz döndərdiyi antimilli qruplar var. Tam əminliklə deyə bilərəm ki, xalq öz dövlətini qoruyub, qoruyur və bundan sonra da qoruyacaqdır.

***Aslan Aslanov***
***AZƏRTAC-ın İdarə Heyətinin sədri***

# Xalq İlham Əliyevə "HƏ" deyir!

## Qubalı seçicilər işıqlı sabahımız naminə Cənab İlham Əliyevə səs verəcəklər

Dünən 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat kampaniyası çərçivəsində rayonun Alpan, Susay inzibati-ərazi dairələrindən olan seçicilərlə görüş keçirilmişdir. Görüşdə YAP Quba rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək, Azərbaycanın, qısa bir zaman məsafəsində qazandığı nailiyyətlərdən, əldə





olunan uğurlardan danışaraq, həyata keçirilən layihələr nəticəsində Azərbaycanın beynəlxalq aləmdə sabit və dinamik iqtisadi inkişafa malik ölkə kimi tanındığını bildirdi: "Bu gün müstəqil Azərbaycan dövlətinin siyasi dəst-xətti, dövlətçilik siması və inkişaf yolu vardır. Azərbaycan Prezidenti İlham Əliyevin əhalinin sosial rifahının yüksəldilməsi məqsədi ilə imzaladığı sərəncamlar insanların həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş diqqətdir. Ölkəmizdə abadlıq-quruculuq işləri geniş vüsət alıb". O, ölkə əhalisinin gələcək rifahının təminatı üçün qubalı seçiciləri əmin-amanlığa və sabitliyə səs verməyə çağırdı.

Görüşdə "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxış edərək, ölkəmizdə aparılan geniş quruculuq işlərinə nəzər salıb, Azərbaycanın inkişaf etdiyini və gücləndiyini bildirdi. B.Quliyev əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi kursun ölkə vətəndaşlarının rifahına və dövlətimizin inkişafına xidmət etdiyini vurğuladı: "Görülən işlər əhalinin səviyyəsinin yüksəlməsində və yoxsulluğun azalmasında mühüm rol oynayıb. Həm Bakı şəhərində, həm də bütün şəhər və rayonlarımızda çox böyük quruculuq və abadlıq işləri aparılır. Son illərdə Azərbaycan iqtisadiyyatı dünyanın ən yüksək templəri ilə inkişaf etmişdir. Şübhəsiz ki, bu inkişafın təməlində uğurlu iqtisadi və siyasi islahatlar dayanır". B.Quliyev bütün bu uğurlara, dinamik inkişafa, tərəqqiyə, davamlı sabitliyə və yüksəlişə Cənab İlham Əliyevin gərgin əməyi və yorulmaz fəaliyyəti sayəsində nail olduğumuzu qeyd etdi. Dövlətimizin daha da inkişafı və onun tərəqqisi və qüdrətlənməsi naminə seçiciləri Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə rayon ağsaqqallar şurasının sədri Həsən Günəşli, təbliğat qrupunun üzvü Rüfət Hacıyev və başqaları çıxış edərək, Cənab İlham Əliyevin prezident seçkilərində alternativsiz Lider olduğunu əməli fəaliyyətində təsdiqlədiyini bildirərək, seçiciləri mövcud reallıqları nəzərə alaraq düzgün seçim etməyə və partiyanın namizədinə səs verməyə çağırdılar.

Seçicilər 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

***

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Quba rayon şöbəsi Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin





təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qəçrəş, İspik inzibati ərazi dairələrindən olan seçicilərlə görüş keçirib.

Görüşdə YAP Mərkəzi Seçki Qərargahı Quba rayon şöbəsinin və partiyanın rayon təşkilatının sədri Yusif Abidov çıxış edərək, qeyd edib ki, bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksəlməsinə səbəb olub. Rayon təşkilatı sədri Cənab İlham Əliyevin növbəti illərdə də Azərbaycana rəhbərlik etməsi ilə inkişaf və tərəqqimizin daha da artacağını, ölkəmizin daha yüksək qələbələrə imza atacağını nəzərə çatdıraraq, seçiciləri partiyanın namizədinə səs verməyə çağırıb.

Görüşdə "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxış edərək, vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyası bütövlükdə son 15 il ərzində Ümummilli Liderin siyasi kursunun Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin məntiqi nəticəsi olaraq, daha da inkişaf etdirilib, zənginləşdirilib, təkmilləşdirilib: "İqtisadi inkişaf və yoxsulluq səviyyəsinin azalması ilə yanaşı, ölkənin simasının dəyişdirilməsi, müasirləşməsi sahəsində möhtəşəm layihələr həyata keçirilib. Paytaxt Bakı şəhəri ilə yanaşı, regionlar da inkişaf etdirilmiş, insanların yaşamaq və işləmək şəraiti kökündən yaxşılaşdırılmışdır." B.Quliyev məhz sadalanan faktları nəzərə alaraq, Quba seçicilərini növbəti dəfə Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə etimad göstərməyə çağıraraq inkişafa, firavanlığa və sabitliyə səs vermiş olacaqların bildirib.

Görüşdə rayon ağsaqqallar şurasının sədri Həsən Günəşli və başqaları çıxış edərək qeyd ediblər ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində, Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, bütün dünya təsdiq edir. Bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək.

Tədbirdə çıxış edən seçicilər 11 apreldə keçiriləcək prezident seçkilərində partiyanın namizədi Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Oğuzlular uğurlu gələcəyimizə səs verəcəklər

YAP Mərkəzi Seçki Qərargahının Oğuz rayon şöbəsi partiyanın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Böyük Söyüdlü, Astraxanovka və Qarabulaq kəndlərində seçicilərlə görüşlər keçirib.

YAP Oğuz rayon təşkilatının, rayon şöbəsinin sədri Saleh Məhərrəmov görüşlərdə çıxış edərək bildirib ki, dövlət başçısı Cənab İlham Əliyev hər bir Azərbaycan vətəndaşının rifahı, onun inkişafı və gələcəyi naminə uğurlu siyasət həyata keçirir: "Cənab İlham Əliyev hər bir ölkə üçün önəm daşıyan ictimai-siyasi sabitliyi Azərbaycanda təmin edib, ölkəmizin milli maraqlarını qoruya bilib, mürəkkəb tarixi bir mərhələdə ətrafımızda terror hadisələrinin, müharibələrin və xaosun baş verdiyi bir vəziyyətdə Azərbaycanı sabitlik adası kimi qoruyub saxlaya bilib. Eyni zamanda, ölkəmizi yüksək səviyyədə inkişaf etdirib və Azərbaycanda işsizliyin, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə azalıb və insanların rifah halı yüksəlib."

Rayon təşkilat sədri vurğulayıb ki, əldə olunan çoxsaylı uğurlarımız 11 aprel seçkilərində Azərbaycan xalqının seçimini müəyyənləşdirib, heç şübhəsiz ki, xalq öz alternativsiz Liderini- Cənab İlham Əliyevi dəstəkləyəcək.





Görüşlərdə YAP Oğuz rayon təşkilatının təbliğat qrupunun üzvləri Rəşid Nurməmmədov, Fikrət Hüseynov, Səyyaf Abbasov və Elnur İsrafilov çıxış edərək bidiriblər ki, oğuzlular alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verəcəklər.

Tədbirdə kənd sakinlərindən Sədrəddin Qarayev, Lətif Rəhmanov və başqaları çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən danışıblar. Çıxış edənlər Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin növbəti dəfə inamlı qələbəsi üçün seçki məntəqələrinə gedərək Ona səs verəcəklər.

## Göyçaylı seçicilər İlham Əliyevə səs verəcəklər

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüş rayonun Məllikkənd kənd sakinləri ilə keçirilib.

Görüşdə çıxış edən, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov Cənab İlham Əliyevin misilsiz xidmətləri haqqında məlumat verib. S.Şükürov bildirib ki, bu gün Azərbaycanın dünya ölkələri sırasında tutduğu mötəbər yer, bilavasitə İlham Əliyev Cənablarının son 15 ildə apardığı qətiyyətli siyasətinin məntiqi nəticəsidir. Natiq göyçaylıları aprelin 11-də seçki məntəqələrinə gedərək, fəal şəkildə və mütəşəkkilliklə Azərbaycana böyük qələbələr və uğurlar qazandırmış alternativsiz Lider İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik və milli təhlükəsizlik şəraiti, ötən 15 il ərzində Azərbaycanda əldə olunmuş dinamik iqtisadi artım göstəriciləri, ölkənin strateji valyuta ehtiyatlarının artması, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası, vətəndaşların sosial rifahının yaxşılaşması, ictimai həyatın bütün sahələrinin kompleks inkişafı, ordu quruculuğu haqqında seçicilərə ətraflı məlumat verərək, bu uğurların davamı üçün, kənd seçicilərini İlham Əliyev Cənablarına səs verməyə çağırıb.

Ardı Səh. 8




səs ®
www.sesqazeti.az
facebook
Ses Media Holding
3 aprel 2018-ci il

# Xalq İlham Əliyevə "HƏ" deyir!





Əvvəli Səh. 7

Digər çıxış edənlər - millət vəkili Sabir Hacıyev, eləcə də, kənd sakinləri Almaz Osmanova, Xuraman Abdullayeva, Sərkər Süleymanov və başqaları Azərbaycanın son 15 ildə qazandığı uğurların fonunda qarşıdakı illər üçün müəyyənləşdirilən hədəflərin gerçəkləşməsi, Azərbaycanın müstəqilliyinin qorunması, sabitliyimizin və təhlükəsizliyimizin təminatı üçün 11 aprel prezident seçkilərində yüksək fəallıq nümayiş etdirərək, Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlu və mütərəqqi davamına - İlham Heydər oğlu Əliyevə səs verəcəklərini əminliklə vurğulayıblar.

***

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunda uğurla davam edir.

Kampaniya çərçivəsində növbəti görüş rayonun ağsaqqalları və ilk dəfə səs verəcək gənclərlə görüş keçirilmişdir. Görüşü açıq elan edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükü-





rov Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra və Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində sabitliyimizin bərqərar olunduğunu və müxtəlif sahələrdə dinamik inkişafa nail olduğumuzu bildirdi. Xüsusilə, Cənab İlham Əliyevin rəhbərliyi altında gənclərə yaradılan şəraitindən bəhs etdi. Bütün gənclərimizi dövlət başçısının ətrafında sıx birləşməyə, daha güclü və müstəqil Azərbaycan naminə Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Daha sonra çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük iqtisadi uğurlardan və həyata keçirilən iqtisadi islahatların əhəmiyyətindən danışıb. E.Nəsirov bu ilin 11 aprel tarixində ölkəmizdə keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin uğurlu təbliğat-təşviqat kampaniyasından bəhs etdi. E. Nəsirov qeyd etdi ki, son 15 il ərzində, Cənab İlham Əliyevin məqsədyönlü siyasi fəaliyyətinin prioritetlərindən biri kimi, dövlət-gənclər siyasəti uğurla həyata keçirilib və bu siyasət gənclərimizin inkişafına və cəmiyyətdə layiqli yer tutmalarına münbit şərait yaradıb.

Natiq çıxışının sonunda bütün gənc seçiciləri seçkilərdə fəal iştirak etməyə və Cənab İlham Əliyevin uğurlu siyasətinə səs verməyə çağırdı.

Daha sonra çıxış edənlər millət vəkili Sabir Hacıyev, rayon ağsaqqalarından Nazir Xancanov, Əlibala Şükürov, Müzəffər Məmmədov, Qurban Məmmədov, gənclərdən Ülviyyə Dursunova və başqaları çıxış edərək Cənab İlham Əliyevin Azərbaycanın hərtərəfli inkişafı, gənclərə göstərilən diqqət və qayğıdan, dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlərindən danışaraq, 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

## Xızılı seçicilər güclü Liderə - Cənab İlham Əliyevə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Xızı rayon şöbəsi partiyanın prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Şurabad qəsəbəsində seçicilərlə növbəti görüş keçirib.





Görüşdə YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev çıxış edərək bildirib ki, Azərbaycan xalqının taleyində əlamətdar bir günün - 11 aprel prezident seçkiləri astanasındayıq və inkişafa səs verərək, növbəti 7 ilin prezidentini seçəcəyik. Ümummilli Liderin layiqli davamçısı olan Cənab İlham Əliyevin yüksək idarəçilik qabiliyyəti, siyasəti nəticəsində Azərbaycanın daha da qüdrətlənib, inkişaf etdiyini diqqətə çatdıran rayon təşkilatı sədri ölkədə irimiqyaslı görülən işlərə nəzər salıb, əldə olunan uğurların aparılmış məqsədyönlü siyasətin nəticəsi olduğunu bildirdi: "Azərbaycan qüdrətli bir dövlətə çevrilib. Prezident İlham Əliyevin siyasəti sayəsində həyata keçirilən yeniləşmə, müasirləşmə nəticəsində ölkəmiz tamamilə yeni görkəm alıb. Ölkədə sabitlik, əmin-amanlıq, dinclik, insanların təhlükəsizliyi təmin edilib. Bütün bu reallıqlar Prezident İlham Əliyevin fəaliyyətinin nailiyyətləridir. İnanıram ki, xalqımız dövlətə sadiq olaraq, 11 aprel prezident seçkilərində hamılıqla, mütəşəkkil şəkildə iştirak edəcək. Xalq, o cümlədən, xızılı seçicilər güvəndiyi, arxalandığı Liderə Cənab İlham Əliyevə səs verəcək".

Görüşdə "Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxış edərək, seçiciləri seçkidə fəal olmağa, vicdanın səsinə, əqlin diktəsinə qulaq asaraq, absurd vədlərə deyil, 15 ilin reallıqlarına, iqtisadi inkişafa səs verməyə çağırıb: "Azərbaycan son vaxtlar özünün tolerantlığı, humanitar məsələlərə diqqət göstərməyi ilə beynəlxalq ictimaiyyətin və təşkilatların diqqətini cəlb edib. Azərbaycan beynəlxalq humanitar məsələlərə, dünya ictimaiyyətini düşündürən, narahat edən problemlərə töhfəsini vermək qüdrətindədir. Bu baxımdan, Azərbaycan dünyada tanınan və diqqətdə olan ölkəyə çevrilib. Bu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir".

Görüşdə çıxış edən seçicilər 11 apreldə seçki məntəqələrinə gələrək, dövlətimizin inkişafına, sabitliyinə - Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Görüşün sonunda bir qrup fəal partiya üzvünə YAP Xızı rayon təşkilatının Fəxri Fərmanları təqdim edilib.

## Qobustanlılar güclü Liderə-Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Qobustan rayon şöbəsi namizədliyi YAP tərəfindən irəli sürülən Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində mədəniyyət işçiləri və Qobustan şəhər seçiciləri ilə görüşü keçirilib.





Görüşdə çıxış edən YAP Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirib ki, ölkəmizdə keçirilən seçkilər hər zaman mühüm siyasi hadisə kimi cəmiyyətimizin diqqət mərkəzindədir və vətəndaşlarımız seçkilərdə fəal iştirak edirlər: "Son 15 ildə ölkəmiz yüksək inkişaf yolu keçib və ölkə başçısı Cənab İlham Əliyevin reallaşdırdığı uğurlu layihələr, apardığı islahatlar nəticəsində bütün Azərbaycanda olduğu kimi, Qobustan rayonunda da böyük işlər görülüb. Bu uğurlu siyasət dövlətçiliyimizin, xalqımızın inkişafına, tərəqqisinə yönəlib və təbii ki, bu nailiyyətlər ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir və cəmiyyətimiz xalqın mənafeyinə xidmət edən bu siyasi kursu dəstəkləyir". Füzuli Gülaliyev, xüsusilə, vurğulayıb ki, biz həmişə haqqa-ədalətə önəm verən, xalqını-vətənini dərin məhəbbətlə sevən, fəaliyyəti ilə əməlləri bir olan Liderə arxalanmışıq və belə bir insan, belə bir qətiyyətli rəhbər, belə bir müdrik siyasətçi, məhz Cənab İlham Əliyevdir.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov bildirib ki, ötən 15 ildə Ulu Öndər Heydər Əliyev siyasətinin Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin hərtərəfli inkişafını daha da sürətləndirib. Hər bir inkişafın iqtisadiyyat üzərində qurulduğunu önə çəkən dövlət başçısı İlham Əliyev yeni mərhələdə özəl sektorun təkmilləşməsini prioritet məsələ kimi müəyyənləşdirib. Misir Mərdanov qeyd edib ki, bu gün sıralarında 700 mindən artıq insanı birləşdirən Yeni Azərbaycan Partiyası ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə iqtidar partiyası və Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi özünün cəmiyyətdəki aparıcı rolunu gündən-günə daha da möhkəmləndirməkdədir və bu baxımdan, seçicilərin Cənab İlham Əliyevə səs verməsi ən doğru seçimdir.

Ardı Səh. 9





# Xalq İlham Əliyevə "HƏ" deyir!

Əvvəli Səh. 8

Təbliğat-təşviqat qrupunun üzvlərindən İmran Sabirov, Zaur Cəfərov və digərləri çıxış edərək ölkəmizin son illərdə qazandığı iqtisadi nailiyyətlərdən danışaraq, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olduğunu qeyd ediblər. Çıxışçılar, xüsusilə, vurğulayıblar ki, Yeni Azərbaycan Partiyası seçkilərə böyük inamla gedir və biz əminik ki, partiyamız ötən seçkilərdə olduğu kimi, aprelin 11-də keçiriləcək prezident seçkilərində də qələbə qazanacaq.

Görüşdə çıxış edən Qobustan şəhər sakinlərindən Təhmiraz Ağaquliyev, aşıq Abbas Güləliyev, təbliğatçılardan Gülağa Cəbrayılov və digərləri bildiriblər ki, ölkəmizin sürətli inkişafı hər bir Azərbaycan vətəndaşında qürur və iftixar hisslərini formalaşdırır və bu inkişafın hər bir vətəndaşın həyatında dəyişikliklər üçün əsas verməsi inamımızı şərtləndirən amildir.

Çıxışçılar bəyan ediblər ki, Cənab İlham Əliyevə səs verməklə, müstəqilliyimizin daha da möhkəmləndirilməsinə, bütövlükdə, ölkəmizin inkişafına səs vermiş olacağıq.

## Səbail qadın seçiciləri Cənab İlham Əliyevi dəstəkləyirlər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsi 11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun qadın seçiciləri ilə görüş keçirdi.






Görüşdə YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin sədri Şəmsəddin Hacıyev çıxış edərək, bildirib ki, müasir dövrümüzdə Azərbaycan qadını ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır. Rayon təşkilatı sədri YAP-ın sıralarında ölkəmizin tərəqqisinə öz töhfələrini verdiklərini bildirib. Qeyd edib ki, 710 mindən çox üzvü olan Yeni Azərbaycan Partiyasının sıralarında qadınlar təxminən 50 faiz təşkil edir, həmçinin, ölkə üzrə seçicilərin 52 faizə yaxını qadınlardır. O, rayon qadın seçicilərini 11 apreldə keçiriləcək seçkilərdə fəal olmağa və partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə çıxış edən YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva ölkə başçısı Cənab İlham Əliyevin Prezidentliyi dövründə ölkəmizdə bərqərar olan ictimai-siyasi sabitlik və milli təhlükəsizlik şəraiti, eləcə də, ötən 15 il ərzində Azərbaycanda əldə olunmuş dinamik iqtisadi artım göstəriciləri, ölkənin strateji valyuta ehtiyatlarının artması, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının uğurlu icrası, vətəndaşların sosial rifahının yaxşılaşması, ordu quruculuğu haqqında seçicilərə ətraflı məlumat verdi. N.Əliyeva Azərbaycanı uğurlu sabahlara aparan bu siyasətin, birmənalı olaraq, davam etdirilməsini bildirərək, qarşıdan gələn seçkilərdə hər bir Azərbaycan vətəndaşını, xüsusilə, də qadınları partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Görüşdə YAP Səbail rayon qadınlar şurasının sədri Təranə Kərimova, YAP Səbail "Əbdülkərim Əlizadə 5" ərazi ilk partiya təşkilatının sədri Məlahət Qurbanova, partiya fəallarından Gülşən Orucova, xalq artisti Gülyanaq Məmmədova, əməkdar artist Gülüstan Əliyeva, gənc YAP fəalları Humay Həsənova və Nigar Ağayeva çıxış edərək, son illərdə Cənab İlham Əliyevin məharətli idarəçiliyi ilə cəmiyyət həyatımızın bütün sahələrində qazanılan uğurları qeyd edib və bütün bunların 11 aprel seçkilərində YAP-ın möhtəşəm qələbəsinə tam zəmin yaratdığını diqqətə çəkiblər.

## Şamaxılılar yalnız Cənab İlham Əliyevə səs verəcəklərinə əminlik ifadə ediblər

Şamaxı rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayo-





nun Mirikənd, Qaravəlli, Muğanlı və Qurdtəpə kəndlərində seçicilərlə görüş keçirilib. Tədbirlərdə YAP Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsinin üzvləri H.Şıxıyev, A.Bayramov, S.Fətəliyev, Ş.Hüseynov, F.Quliyeva, T.Yusifova, N.Rzazadə, Babaşova Güllü və Dola Jalə çıxış ediblər.

Çıxış edənlər bildiriblər ki, Azərbaycan prezident seçkilərinə sabitlik şəraitində gedir və qazanılan bütün uğurlar xalqın alternativsiz namizədi olan Cənab İlham Əliyevin növbəti möhtəşəm və parlaq qələbəsini təmin edəcək mühüm faktorlardır.

Natiqlər, xüsusilə, vurğulayıblar ki, 2003-cü ildən etibarən Azərbaycan sürətli iqtisadi inkişaf mərhələsinə qədəm qoyub, neft gəlirlərindən səmərəli istifadə olunaraq, qeyri-neft sektorunun inkişafı təmin olunub, bütün sahələrdə ardıcıl islahatlar həyata keçirilib və Azərbaycan qüdrətli dövlətə çevrilib. Statistik göstəricilər Azərbaycanın son 15 il ərzində Cənab İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli inkişaf mərhələsi keçdiyini bariz şəkildə əks etdirir və bu göstəricilərə görə Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Tədbir iştirakçıları, məhz buna görə də, Azərbaycan cəmiyyətinin Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəklədiyini və bu siyasətin davamlı olmasını istədiyini bildirib, bu məqsədlə seçicilərin seçkilərdə yalnız Cənab İlham Əliyevə səs verəcəklərinə əminlik ifadə ediblər.

Tədbirlərdə Mirikənd və Kərkənc Muğanlı kənd sakinlərindən Əzizxan İsmayılov, Şərif Əzizov və müəllimə Mehriban Azayeva çıxış edərək, Cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini qeyd edərək, 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi Cənab İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.

## Xaçmazlı gənc seçicilər ölkənin tərəqqisinə səs verəcəklər

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Qusarçay kənd gəncləri ilə görüş keçirib.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, ölkəmizdə gedən ictimai proseslərdən, ölkəmizin regional və dünya siyasətindəki rolundan danışıb:





"Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində, ölkəmiz dünyanın stabil dövlətlərindən birinə çevrilib. Bu stabillik nəticəsində, ictimai həyatın bütün sahələrində tərəqqi əldə olunub. Şübhəsiz ki, bu inkişafın təməlində uğurlu iqtisadi və siyasi islahatlar, Azərbaycanda aparılan uğurlu neft siyasəti dayanır. Bu gün heç bir dövlət Azərbaycan layihələrinə müdaxilə edə bilmir. Bu, Prezidentimizin böyüklüyü, müdrikliyi, iradəsi və Liderliyinin nəticəsidir. Hər bir gənci ölkəmizin gələcək inkişafına - Cənab İlham Əliyevə səs verməyə çağırıram".

Tədbirdə kənd seçicilərindən Əbil Aydəmirov, Azadə Zəkiyeva, Anar Qurbanov, Alimşah Mirzəyev və başqaları çıxış edərək, 11 aprel tarixinin Azərbaycanın gələcək inkişaf yolunda önəmli zaman olduğunu bildiriblər. Qeyd olunub ki, son 15 il ərzində qalibiyyətlər yaşadığımızdan, hər bir azərbaycanlının seçimi yalnız və yalnız Cənab İlham Əliyev olacaq. Xaçmazlı gənclərin növbəti 7 ili etibar edəcəyi namizəd artıq məlumdur - Cənab İlham Əliyevlə irəli!

## Zaqatalıların seçimi Cənab İlham Əliyevdir!

11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkiləri ilə əlaqədar Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində YAP Mərkəzi Seçki Qərargahının Zaqatala rayon şöbəsi rayonun Qandax, Kəpənəkçi, Suvagil və Car kənd seçicilərilə görüşlər keçirib. Görüşlərdə 600-dən çox seçici iştirak edib.

Görüşlərdə çıxış edən YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə bağlı aparılan təbliğat-təşviqat kampaniyasının seçici fəallığı ilə davam etdiyini bildirib. H.Qurbanov qeyd edib ki, son 15 ildə Azərbaycanda iqtisadi, siyasi və sosial islahatlar aparılmış, ölkənin hərtərəfli inkişafına geniş imkanlar yaradılmışdır: "Prezident İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycanın imza atdığı nailiyyətlər, 15 ildə həyata keçirilən uğurlu siyasət, irimiqyaslı layihələr, abadlıq-quruculuq işləri reallıqlardır". Bu inkişafın davamlı olması üçün rayon şöbəsinin sədri seçiciləri yenidən Cənab İlham Əliyevə səs verməyə, öz güclü Liderini seçməyə çağırıb.

Təbliğat qrupunun üzvləri Ədalət Novruzova, Gülnigar Məmmədova, Kəmalə Əhmədova, Xanım İsayeva, Namidə Süleymanova və başqaları çıxışlarında Azərbaycanın bugünkü inkişafını, dünyada nüfuza sahib olmasını ölkə Prezidentinin məqsədyönlü fəaliyyətinin məntiqi nəticəsi olduğunu vurğulayıblar.

Ardı Səh. 12

# Cənab İlham Əliyev öz liderlik keyfiyyətləri ilə XXI əsrin siyasi liderinin mükəmməl portretini yaradır

## *YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, professor Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Nurlana xanım, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Müasir müstəqil Azərbaycan seçkilərə hansı reallıqlar fonunda gedir?***

- Yeni Azərbaycan Partiyasının fevralın 8-də keçirilmiş VI qurultayı milli dövlətçilik tariximizdə yeni bir səhifə açdı. Azərbaycanın müstəqillik dönəmində böyük yeri və rolu olmuş, hüquqi dövlət quruculuğu proseslərinə, ölkəmizin demokratik inkişafına mühüm töhfələr vermiş bu partiya 11 aprel prezident seçkiləri ərəfəsində elan etdiyi mühüm qərarı ilə hər zamankı kimi yenə də ümumən Azərbaycan xalqının istək və arzularının tərcümanına çevrildi. Azərbaycan Respublikasının prezidentliyinə xalqımızın tarix boyu yetişdirdiyi ən uğurlu liderlərdən olan cənab İlham Əliyevin namizədliyini irəli sürməklə Vətənin gələcəyini növbəti 7 il müddətinə də əmin əllərə etibar etdi.

Bununla Azərbaycan xalqının Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin bir zamanlar dilə gətirdiyi "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" inamı bir daha özünü doğrultdu. Ulu öndərin bu inamında Azərbaycanın ötən əsrin 90-cı illərinin əvvəllərindən qədəm basdığı çətin və şərəfli müstəqillik yolu, qarşıya qoyulmuş böyük milli hədəflər görünürdü. Heydər Əliyev ideyaları işığında təşəkkül tapmış Yeni Azərbaycan Partiyası çətin sınaqlarla dolu dünənimizdə tutduğu düzgün yolla, bu qurumda bir araya gəlmiş vətənpərvər, yüksək dövlətçilik təfəkkürünə malik insanların doğru qərarları ilə cəmiyyəti aydınlığa çıxardı. Dünyanın böyük azərbaycanlısı Heydər Əliyevin müəllifliyi ilə yaradılan, müstəqillik tariximizə mühüm töhfələri ilə seçilən partiyamız özü də bu tarixin şərəfli parçasına çevrildi.

Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində ən qüdrətli çağlarını yaşayan müstəqil Azərbaycan dövlətinin bugünkü yüksəlişində də Yeni Azərbaycan Partiyasının möhtəşəm imzası var. Bu yüksəliş, tərəqqi Heydər Əliyev partiyasının gələcəyə baxışından, cəmiyyətə təlqin etdiyi dəyərlərdən, ən mühümü isə, ona rəhbərlik edən Liderin şəxsiyyətindən, mənəvi keyfiyyətlərindən başlanır. Yeni Azərbaycan Partiyası ona görə dünənin, bu günün və gələcəyin partiyasıdır ki, bu partiyanın liderləri Vətənin dünənini tarixiləşdirən, bu gününə rifah, tərəqqi gətirən və gələcəyini aydınlaşdıran şəxsiyyətlərdir.

Partiyanın VI qurultayında cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycanın güclü Liderin ardınca xoşbəxt gələcəyə doğru tutduğu yolun ardıcıllığını, milli dövlətçilik tariximizin davamlılığını, müstəqilliyimizin əbədiliyini təmin etdi.



***- Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-2018-ci illər tərəqqi və sabitlik dövrü kimi xarakterizə olunur. Ötən müddət ərzində Azərbaycanın cənab İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunu necə qiymətləndirirsiniz?***

- 2003-cü ildən bəri yaşadığımız tarixin uğur və inkişaf reallıqları, dövlətimizin başçısının rəhbərliyi ilə dəyişən, yeniləşən Azərbaycanın hər bir nailiyyəti "niyə məhz İlham Əliyev?" sualına dolğun cavabdır. Bu mənada, bir sıra nüanslara toxunmaq məqsədəmüvafiqdir.

Əvvəla, prezident seçkilərinə namizədin müəyyənləşdirilməsi və ona dəstək verilməsi kimi mühüm qərar anında insanların gözü ən güclü lideri axtarır. Cəmiyyət onun meyarlarına uyğun şəxsiyyət ətrafında bir araya gəlib siyasi hazırlıq səviyyəsini, uzaqgörənliyini, təkcə milli məkan hüdudlarına deyil, ümumilikdə dünyaya sülh və rifah arzusunu bir lider kimi onun mənəvi keyfiyyətlərində ifadə edir.

Etiraf edək ki, bu gün bütün dünyada, sanki, bir lider böhranı yaşanmaqdadır. Əsrlər boyu böyük liderlərin, parlaq şəxsiyyətlərin zəka gücü ilə qüdrətli dövlətlər, örnək olası cəmiyyətlər qurmuş toplumlar artıq, elə bil, lidersiz idarəetmə eksperimentlərinə başlayıblar. Bunun acı nəticələri isə dünyanın üzləşdiyi gözlənilməz durumlar, Yer üzərində getdikcə artan gərginliklərdir. Ölkələr, xalqlar arasındakı qarşıdurmaların, böhranların tez-tez qabarıb çəkilməsidir. Sadə insanların əsl liderlik keyfiyyətlərindən məhrum təsadüfi kəslərin düşüncəsiz qərarlarından yaşadıqları əzab-əziyyətlər, dünyamızda meyarların dəyişməsi, getikcə dəyərdən düşməsidir. Çoxəsrlik dövlətçilik ənənələrinə malik ölkələrdə liderlik keyfiyyətlərindən məhrum hər cür təsadüfi insanların müxtəlif populist şüurlarla, qeyri-adekvat davranışlarla önə çıxıb müəyən müddət dövlətə rəhbərlik etməsi, ola bilər ki, o cəmiyyətlər üçün hələlik ciddi problem doğurmur. Çünki uzun illərboyu bu cəmiyyətlərdə qurulmuş sistem, özü-özünü tənzimləyən idarəetmə mexanizmi hər cür böhran vəziyyətlərini yoluna qoymaq gücündədir. Amma zaman keçdikdə belə təsadüfi seçimlərin bu cəmiyyətlərə, ümumilikdə bəşəriyyətə hansı fəlakətləri yaşadacaqlarını kimsə təxmin edə bilməz. Ən azı, ötən əsrin tarixi salnaməsində öz qeyri-normal təfəkkürləri ilə dünyanı faşizm kabusuna qədər gətirib çıxarmış, səbəb olduqları II Dünya müharibəsi kimi dəhşətlərlə milyonlarla insanın ölümünə səbəb olmuş təsadüfi kəslərin nümunəsi var. Ona görə də şəxsiyyətin, liderin cəmiyyət həyatındakı rolu barədə bütün elmi polemikalara, fərqli mövqelərə rəğmən, bu, inkaredilməz həqiqətdir ki, heç bir cəmiyyət tarixin heç bir dönəmində əsl şəxsiyyət keyfiyyətlərinə malik lideri olmadan yaşaya bilməz. Qarşıya qoyduğu inkişaf hədəflərinə nail ola bilməz.

Dünyada lider böhranının müşahidə edildiyi müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev əsl liderlik xüsusiyyətlərini öz şəxsində qoruyan, bu xüsusiyyətləri xalqımıza xas yüksək mənəvi-əxlaqi normalarla uzlaşdıran və bütün dünyada nümunə yaradan, çox az sayda tanınan parlaq siyasət adamlarındandır.

Cənab İlham Əliyev Öz liderlik keyfiyyətləri ilə XXI əsrin siyasi liderinin mükəmməl portretini yaradır. Yeni minilliyin başlanğıcında bu statusun dəyər və meyarlarını formalaşdırır. Bir tərəfdən klassik liderlik konsepsiyası, digər tərəfdən də müasir liderlərə münasibətdə irəli sürülən və ya təbii olaraq meydana çıxan tələblər prizmasından yanaşmaqla O, əsl liderin bütün keyfiyyətlərini özünün mənəvi və siyasi simasında təcəssüm etdirə bilir.

Cənab İlham Əliyev bütün dünyada çox az təsadüf edilən liderlərdəndir ki, cəmiyyət can atdığı, özünə rəhbər seçdiyi şəxsiyyətdə görmək istədiyi bir çox cəhətləri həm mənəvi-siyasi lider, həm güclü sərkərdə, həm mahir diplomat, həm bacarıqlı idarəçi, həm qurucu rəhbər obrazlarını Onun siyasi portretində tapa bilir.

***- Bu gün əminliklə söyləmək olar ki, hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət cəmiyyət üzvlərinin arzularının ifadəçisi olmaqla yanaşı, xalqımızın və dövlətimizin ali mənafeyinə xidmət edir. Bu barədə nə düşünürsünüz?***

- Cənab İlham Əliyev xalqımızın Ümummilli lideri, Ulu öndər Heydər Əliyevin mənəvi-siyasi irsinin davamçısıdır. Müstəqil Azərbaycan dövlətini qurub-yaratmış böyük tarixi şəxsiyyətin arzularını reallığa çevirərək bu dövləti zamanın böyük inkişaf reallıqlarına yetirmiş varisdir. Azərbaycanla bağlı yarımçıq arzuları, başa çatmamış planlarını, bu dövlət timsalında həyatının ən dəyərli mənəvi mirasını böyük inam və ümid hissi ilə Ona etibar etmiş Ümummilli liderin bu inamını xalq və dövlət qarşısındakı misilsiz xidmətləri ilə doğruldan şəxsiyyətdir. Dövlətə rəhbərlik missiyasına "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam" bəyanatı ilə başlayan cənab İlham Əliyev bu illərdə ölkə başçısı kimi üzərinə düşən bütün vəzifələri yerinə yetirdi. Xalq qarşısında vədlərinə əməl etdi. Bu illəri Azərbaycanın sürətli inkişaf mərhələsinə çevirdi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir nailiyyət Ulu öndər Heydər Əliyevin zəkasının təcəssümüdür, Onun milli tərəqqi ideyalarının təzahürüdür. Cənab İlham Əliyevin 2003-cü ilə prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolunda yeni bir mərhələ yaratdı. Ölkədə demokratikləşmə prosesləri geniş vüsət aldı. Cəmiyyətdə milli vəhdət daha da möhkəmləndi. Ölkəmizin qlobal proseslərə inteqrasiyası daha intensiv xarakter aldı. Azərbaycanın iqtisadi yüksəlişi üçün mühüm sosial-siyasi baza yarandı. Heydər Əliyev məktəbinin layiqli yetirməsi olan İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələrə səbəb oldu, səmərəli islahatlar ardıcıl xarakter daşıdı.

Cənab İlham Əliyevin 2003-cü ildən bəri Azərbaycana rəhbərlik etdiyi dövr milli dövlətçilik tariximizdə böyük bir intibah mərhələsinin başlanğıcıdır. Bu illər ərzində uğurla həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının 3 dəfədən çox artımına şərait yaradıb. Azərbaycan dünyanın ən dinamik inkişaf edən iqtisadiyyatına malik olan ölkə kimi tanınıb, özünün nadir iqtisadi inkişaf modelini - inkişafın Azərbaycan modelini təqdim etməyə müvəffəq olub.

Müstəqil dövlətimizin iqtisadi potensialının əsaslı şəkildə yüksəlməsi, maliyyə imkanlarının tarixi maksimuma çatdırılması, Azərbaycanın bölgədə əsas söz sahibinə çevrilməsi müasir tariximizin mühüm reallıqlarıdır. Bu gün ölkəmiz regionun siyasi mənzərəsini dəyişən möhtəşəm layihələrin təşəbbüskarıdır. Prezident İlham Əliyevin möhkəm siyasi iradəsi və prinsipiallığı ilə möhtəşəm transmilli enerji və nəqliyyat layihələrinin reallaşmasını təmin etməsi ilə Azərbaycanın çağdaş tarixinin ən şanlı səhifələri yazıldı. Ölkəmiz indi Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Azərbaycan beynəlxalq Şərq-Qərb, Şimal-Cənub nəqliyyat qovşağı kimi məsuliyyətli vəzifəni layiqincə yerinə yetirir. Zamanın uzaq çağlarında karvanların əhatə addımları ilə tarixə nizam verən qədim İpək Yolu yenə Azərbaycandan keçir. Dünyanın müxtəlif səmtlərində ayrılan, kəsişən, çarpazlaşan yollar, ziddiyyətli geopolitik maraqlar Azərbaycanda birləşib öz axarında gələcəyə doğru davam edir. Azərbaycanın iştirakı ilə yeni bir tarix yazılır. Bütün bunlar, təbii ki, cənab İlham Əliyevin mətin və qətiyyətli addımlarının nəticəsidir. Azərbaycanın regional siyasətdə və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti getdikcə genişlənir. Beynəlxalq tərəfdaşlar Azərbaycanın gələcəyinə inanır, ölkəmizə, Onun rəhbərliyinə etibar edir. Zəngin sərhədlərə malik bu ölkədə böyük perspektivlər görür. Azərbaycanla bağlanmış tərəfdaşlıq müqavilələrinin müddətinin zamanla uzadılması bu inamın, güvənin ifadəsidir. Yüksək intellekti, praqmatik düşüncəsi, müasir dünya siyasəti və iqtisadiyyatı haqqında dərin bilikləri, mütərəqqi ideyaları ilə müasir çağda təkcə bir xalqa, dövlətə deyil, ümumən bəşəriyyətə böyük faydalar gətirən Prezident İlham Əliyev beynəlxalq miqyasda sözünün böyük çəkisi olan Liderdir. Azərbaycanın milli maraqları ilə bağlı dünyada cərəyan edən proseslərə dair Onun Öz baxışları var. Heç bir amil Azərbaycan Respublikasının Prezidentini Öz qətiyyətli mövqeyindən çəkindirmək gücündə deyil. Bütün dünyada Onun rəyi ilə hesablaşırlar. Çünki cənab İlham Əliyev yürütdüyü siyasətlə, mürəkkəb qlobal proseslərdə tutduğu düzgün mövqe ilə, ən əsası isə, Azərbaycana qazandırdığı sarsılmaz güc ilə bu münasibətə layiq olub. Azərbaycanın regionda, ümumiyyətlə, dünyada söz sahibi olması, mövqeyinin qəbul edilməsi, zərgər dəqiqliyi ilə hesablanmış balanslı siyasi kursun və diplomatiyanın son nəticədə ölkəmizə böyük siyasi dividentlər qazandırması məhz bu amildən qaynaqlanır.

Son nəticədə isə bütün bunların hər biri Azərbaycan insanının rifahına xidmət edir. Vətəndaşlarımızın güzəranını yaxşılaşdırır. Azərbaycanda həyat şərtləri, standartları, yaşayış normaları getdikcə daha da yüksəlir. İnsanların tələbatları, həyat tərzi yaxşı mənada dəyişir.

*Ardı Səh. 11*





# Cənab İlham Əliyev öz liderlik keyfiyyətləri ilə XXI əsrin siyasi liderinin mükəmməl portretini yaradır

## *YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, professor Nurlana Əliyevanın yap.org.az-a müsahibəsi*

Əvvəli Səh. 10

"Elin gözü tərəzidir" deyiblər. Cəmiyyəti müxtəlif populist bəyanatlarla, başgicəlləndirici vədlərlə, bəlkə də, aldatmağa cəhd göstərmək olar. Amma insanlar o siyasətə dəstək verir ki, onun real nəticələrini gündəlik güzəranlarında, süfrələrinin ruzisində duyub hiss edə bilsinlər. Bu mənada İlham Əliyevin yürütdüyü siyasət Azərbaycan insanı üçün hər hansı mücərrəd təsəvvür deyil. Vətəndaşların həyat şəraitini getdikcə daha da yaxşılaşdıran, cəmiyyət həyatına möhtəşəm nailiyyətlər gətirən reallıqlardır. Ardıcıl, sistemli şəkildə davam etdirilərək səmərəli və effektiv nəticələr yaradan inkişaf prosesidir.

Faktlara diqqət yetirək: cənab İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində Azərbaycanda yoxsulluğun həddi 50 faizdən 5 faizə enib. Bu, ölkəmizdə yoxsulluq həddinin təxminən 10 dəfə azalması deməkdir. 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsi təxminən 5 faizə düşüb. Bu müddətdə maaşlar orta hesabla 5 dəfə, pensiyalar 8 dəfə, əhalinin real gəlirləri orta hesabla 2,6 dəfə artıb. Bu rəqəmlərin hər birinin ardında, məzmununda nə qədər insanın taleyi, firavan həyatı var. Bu göstəricilərin aid olduğu böyük insan qruplarının hamısını eyni anda təsvir etsək, xalqın cənab İlham Əliyevə sevgisinin səbəbləri bir daha əyan olar. Azərbaycan vətəndaşları cənab İlham Əliyevin timsalında onların arzularından gəlmiş insana dəstək verirlər. Onlara rifah gətirmiş, həyatlarını yaxşılaşdırmış və getdikcə daha da yaxşılaşdıran Liderə inam və ehtiramlarını nümayiş etdirirlər.

***- Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrü xarakterizə edən mühüm reallıqlardan biri də sosial infrastruktur quruculuğunun uğurla həyata keçirilməsidir...***

- Bir liderin inkişaf hədəflərini, ölkənin və xalqın gələcəyi ilə bağlı uzaqgörən planlarını duymaq üçün onun maarifin, təhsilin tərəqqisinə diqqətini və qayğısını görmək kifayətdir. Hər məktəb xalqın gələcəyinə düşən işıqdır. Hər məktəb ətrafındakı böyük bir sosial mühitdə pis əməllərin önünü kəsən, insanların təfəkkürünü aydınlığa çıxaran, cəmiyyəti xoş məramlarına yetirən müqəddəs məbəddir. Bütün xalqların ən böyük ziyalıları cəmiyyəti inkişaf etdirmək üçün birinci məktəbdən başlayıblar. Cənab İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə bütün ölkə boyunca 3100 müasir məktəb inşa olunub. Azərbaycan tarixinin heç bir çağında belə bir fakta təsadüf etmək mümkün deyil. O, ölkəmizdə ən müasir təhsil standartlarına cavab verən bir sıra yeni təhsil müəssisələrinin, təhsil və elm mərkəzlərinin də yaradıcısıdır. Bu mənada, cənab İlham Əliyev zəmanəsinini ziyalısı, maarifçisidir. O, müasir təfəkkürünün, yenilik yaratma bacarığının, dövrün inkişaf meyillərinə həssaslığının və mütərəqqi ideyaların motivasiya gücü ilə insan kapitalını cəmiyyətdə ən böyük sərvət kimi tanıdıb. İnsanlarımızın fərdi inkişafına dəstəyi ilə, minlərlə Azərbaycan gəncinin xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almasına yaratdığı şəraitlə, cəmiyyət həyatında innovasiyaları təşviq etməklə ölkəmizdə böyük bir intellektual potensial formalaşdırıb. Azərbaycan insanı fərqindədir ki, ən böyük zənginlik, var-dövlət məhz bilikdir. Ona nail olmağın yeganə yolu isə məktəblərdən, maarif ocaqlarından, kitablardan keçir.

Azərbaycan Prezidenti inşa etdirdiyi, yenidən qurduğu xəstəxanalarla, idman və mədəniyyət kompleksləri ilə, çəkdirdiyi yollarla, saldığı körpülərlə, ölkənin ən ucqar nöqtələrinə qədər gedib çıxan infrastruktur layihələri ilə insanlarımızın həyatına inkişaf, müasirlik gətirir. Zamanın sürəti ilə ayaqlaşa bilməkdən ötrü vətəndaşlarımıza imkanlar yaradır.

Çox vaxt möcüzələrə inanmırıq. Amma Vətənə, xalqa sevginin gücü, siyasi iradənin, qətiyyətin səfərbəredici təsiri bəzən elə nəticələr yaradır ki, onu bu nəticələrə sərf olunmuş zamanla uzlaşdıranda mahiyyətcə ancaq möcüzə kimi dəyərləndirə bilirsən. Çünki təkcə 2003-2017-ci illər ərzində Azərbaycanda 3100 məktəbin tikilməsi, yaxud əsaslı surətdə təmirindən başqa, 642 xəstəxananın da yenidən qurulması, 43 müasir idman kompleksinin yaradılması, 12,3 min kilometr müasir yolun, 443 körpünün və yol qovşağının istifadəyə verilməsi, ölkə üzrə qazlaşdırmanın 93 faizə çatdırılması, əhalinin içməli su ilə təminatının 67 faizə yüksəlməsi, həqiqətən, möcüzəvi nəticələrdir. Buraya məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 92 qəsəbə və yaşayış kompleksinin, 48,3 min mənzil və ya fərdi evin tikintisi, ümumilikdə 245 min məcburi köçkünün müasir mənzillərlə təmin olunması faktını da əlavə etmək lazım gəlir.

Başqa ölkələrdə bütün bu işlər uzun onilliklər hesabına başa gələrdi. Azərbaycan isə cənab İlham Əliyevin yürütdüyü siyasətin uğurları sayəsində bütün bu nəticələrə cəmi 14 il ərzində nail olub. Bu siyasət Azərbaycanın qiyafəsini, mahiyyətini dəyişib, ölkəmizi modernləşdirib. Vətənimizi dünyanın ən maraqlı, cəlbedici ölkələrindən birinə çevirib.

***- Azərbaycan Prezidenti həm də öz ölkəsinin maraqlarını qətiyyətlə müdafiə edən Lider kimi tanınır...***

- Cənab İlham Əliyev güclü sərkərdədir. Ulu öndər Heydər Əliyevin müstəqilliyimizin ilk illərindən başladığı nizami ordu quruculuğu prosesinin artıq hansı səviyyəyə gəlib çatdığını, cənab Ali Baş Komandanın iradəsi, mətinliyi sayəsində Milli Ordumuzun necə yüksək döyüş qabiliyyətinə malik olduğunu bütün dünya 2016-cı ilin aprel döyüşləri zamanı bir daha gördü. Bu döyüşlərdə düşmənə endirilən sarsıdıcı zərbə, düşmən işğalından azad olunaraq cəmi bir neçə həftənin içində yenidən qurulan Cocuq Mərcanlı qəhrəman Azərbaycan Ordusunun döyüş şücaətinin unudulmaz səhifələri, Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrikliyinin parlaq nümunəsidir. Onun diplomatiya səngərlərində, müasir dünyamızın qlobal siyasi-iqtisadi prosesləri müstəvisində zəka silahı ilə qazandığı zəfərlər isə bundan daha böyükdür. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının qeyri-daimi üzvü seçilməsi, mötəbər beynəlxalq təşkilatlarda Azərbaycanın layiqincə təmsil olunması, tam müstəqil xarici və daxili siyasət yürütməsi dövlətimizin qüdrətinin və müstəqilliyinin ən bariz ifadələridir. Bu gün düşmən Ermənistan bütün cəbhələrdə Azərbaycanın gücü qarşısında küncə sıxılaraq dalana dirənir və getdikcə daha çıxılmaz vəziyyətə düşür.

Müasir dünya qlobal kommunikasiyalar dünyasıdır. Müasir dünya iqtisadiyyatı kommunikasiyalar iqtisadiyyatıdır. Belə bir dünyada bir dövlətin ən acı durumu, ən ağır məğlubiyyəti qlobal kommunikasiya imkanlarını itirməsidir. Özünütəcrid durumunda yaşamasıdır. Azərbaycan Prezidenti uzaqgörən yanaşmaları ilə işğalçı Ermənistanı belə bir duruma salıb. Bu dövlətin artıq heç bir perspektivi yoxdur. Azərbaycan bayrağının bir gün tarixi şəhərimiz olan İrəvanda dalğalanması artıq heç də uzaq reallıq deyil. Yeni Azərbaycan Partiyasının qurultayında cəmiyyətimizə bu hədəfi göstərdi və biz ölkəmizin getdikcə artan qüdrəti ilə bu milli hədəfimizə yetişəcəyik. Beləliklə, dünya tarixi ədalətin bərpasına gec-tez şahid olacaq.

***- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilənin nəticəsi kimi, Azərbaycan beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilib. Bununla bağlı nə söyləmək olar?***

- Dövrünün görkəmli siyasi liderlərindən biri kimi cənab İlham Əliyev zəmanəsinin böyük ideya adamlarındandır. Dünyanın, mədəniyyətin, düşüncənin, insanın mənəvi kamilliyinin gücü ilə xilasına, bəşəriyyətdə sülh və rifahın bərqərar olmasının mümkünlüyünə inanan və Özü də bu məram uğrunda çalışan mütəfəkkir şəxsiyyətlərdəndir. Elə bu məramla da cənab İlham Əliyev Azərbaycanda həyata keçirilən elm, mədəniyyət, idman tədbirlərini dövrümüzün xoş intibah reallıqlarına çevirib. Ölkəmizin "Eurovision" beynəlxalq mahnı müsabiqəsinə, ilk Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycan intibahının miqyasının və beynəlxalq etiraf dərəcəsinin aydın göstəricisidir. Məhz cənab İlham Əliyevin yürütdüyü siyasəti nəticəsində Azərbaycan bu gün dünyada sülh və sabitlik məkanı, tolerantlıq ünvanı, mədəniyyətlərin təmas yeri kimi tanınır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq humanitar layihələr dövlətin bu sahədə yürütdüyü siyasətə böyük töhfələr verir. Ölkəmiz tarixən bu torpaqlarda mövcud olmuş tolerantlıq ənənələrini, fərqli mədəniyyətlərə hörmət ruhunu bütün dünyada təşviq edir. Bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların təbliği işində nümunəvi ölkə kimi tanınır. Azərbaycanın hələ 10 il əvvəl bu sahədə irəli sürdüyü "Bakı prosesi" təşəbbüsü uğurla davam etdirilərək müsbət meyillərə yol açır. Bütün bu meyillərin əsasında dayanan, Azərbaycan dövlətinin qlobal inkişaf proseslərinin əsas mərkəzlərindən birinə çevrilməsinə zəmin yaradan isə xalq-iqtidar birliyidir. Cəmiyyətimizdə sabitlik və inkişaf mühitinin ideal səviyyədə olmasıdır. Azərbaycanın sosial-iqtisadi tərəqqisinin demokratik təkamül proseslərinə paralel aparılmasıdır. Cəmiyyət həyatının ən müxtəlif sahələrini əhatə edən islahatların mahiyyətcə bir-biri ilə uzlaşmasıdır. Bu baxımdan, 2016-cı ildə keçirilmiş referenduma əsasən baş tutan Konstitusiya islahatları, ölkəmizdə vitse-prezidentlik institutunun yaradılması islahatların dərinləşməsi istiqamətində ən uğurlu addımlardan sayıla bilər. Hərtərəfli siyasi islahatlar sayəsində ölkənin siyasi sistemi daha da təkmilləşdirilərək müasir standartlara uyğunlaşdırılıb. İnsan hüquq və azadlıqları, o cümlədən siyasi azadlıqlar, söz və mətbuat azadlığı tam təmin edilib, idarəetmənin optimallaşdırılması və səmərəliliyinin artırılması sahəsində ciddi addımlar atılıb. Bütün bu islahatlar Azərbaycan dövlətini daha qüdrətli, Vətənin nailiyyətlərini möhtəşəm edir.

***- Cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti Azərbaycanı parlaq gələcəyə aparır. Ölkəmizin perspektiv inkişafı ilə bağlı fikirləriniz nədən ibarətdir?***

- Bütün zamanlarda cəmiyyətlər qarşısında dayanan əsas suallardan biri bu olub: "nə etməli?". Bir zamanlar N.Q.Çernişevskinin öz məşhur romanı ilə gündəmə gətirdiyi bu sual ziddiyyətlər, gözlənilməzliklər, xalqlara və ölkələrə qarşı qlobal təhdidlərlə dolu indiki dünyamızda daha da aktualdır. Xalq, cəmiyyət o liderə dəstək verir ki, onun bu suala bəlli bir cavabı olsun. Azərbaycan Prezidentinin 2003-cü ildən bəri gördüyü bütün işlərin, uğurla həyata keçirdiyi layihələrin hər biri bu suala cavabdır. Dövlətimizin başçısının Yeni Azərbaycan Partiyasının VI Qurultayındakı proqram xarakterli nitqi göstərdi ki, Onun bu suala bütün zamanlara aid cavabı var. O, nəinki bu günün, həmçinin bir neçə on il sonranın Azərbaycanında da yerinə yetirilməli olan milli vəzifələr haqqında geniş təsəvvürə, aydın vizyona malikdir. Cənab İlham Əliyev müdrik bir strateq kimi Azərbaycanın gələcəyi barədə yalnız düşünmür, Onun siyasəti sayəsində insanlar öz təsəvvürlərində parlaq gələcəyi qurub yarada bilirlər. Ən əsası, Prezident İlham Əliyev Azərbaycanı bu təsəvvürün reallaşdığı gələcəyə doğru aparan yolu dəqiqliklə görə bilir. Cənab İlham Əliyev Azərbaycanın böyük gələcəyə gedən yolunu belə təsvir edib: "Azərbaycan müasirliyə gedən yoldadır. Biz inkişaf etməliyik, biz ən qabaqcıl standartları milli dəyərlərimizə uyğun olan şərtlə tətbiq etməliyik. Biz çox möhkəm milli köklər üzərində dayanmışıq və bu, bizim üçün əsasdır. Eyni zamanda, biz həmişə dünyaya açıq olmalıyıq və ən qabaqcıl texnologiyaları ölkəmizə gətirməliyik". Bu möhtərəm Prezidentimizin xoşbəxt gələcəyimiz haqqında inamla söylədiyi məqsəddir. Əminliklə söyləyə bilərik ki, Azərbaycan xalqının 2018-ci ilin aprelin 11-də keçiriləcək prezident seçkilərində hər zaman inanıb güvəndiyi Liderinə - cənab İlham Əliyevə verdiyi dəstəklə bu böyük gələcəyə doğru yol başlanacaq!

# Xalq İlham Əliyevə "HƏ" deyir!





Əvvəli Səh. 9

Seçicilər günü-gündən dəyişən Azərbaycanın işıqlı sabahı naminə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Zaqatala rayonunun Qandax, Kəpənəkçi, Suvagil və Car kənd ağsaqqalları və ziyalıları seçicilər adından çıxış edərək, bildiriblər ki, zaqatalalılar seçimlərində israrlıdırlar, yekdilliklə xalqımızın alternativsiz Lideri Cənab İlham Əliyevə səs verəcək, böyük qələblərə doğru "İlhamla İrəli" gedəcəklər.

## Qaxda təbliğat- təşviqat kampaniyası uğurla davam edir

Dünən Qax rayonunda Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayo-






nun Qaşqaçay, Aşağı Malax və Armudlu kəndlərinin seçiciləri ilə görüş keçirilmişdir. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qax rayon seçki qərargahının təbliğat-təşviqat qrupunun üzvləri iştirak etmişlər. Təbliğat qrupunun üzvlərindən Rasim Məmmədov, Sevil Əsgərova, Güllü Əhmədova seçicilər qarşısında çıxış edərək, qeyd etdilər ki, 2003-2018-ci illər ərzində Azərbaycan dövləti sürətlə inkişaf edərək, regionun lider dövlətinə çevrilmişdir: "Bu inkişafda Cənab Prezident İlham Əliyevin yorulmaq bilməyən, gərgin əməyi, fəaliyyəti danılmazdır. Azərbaycanda elə bir şəxs olmaz ki, bu inkişafı öz həyatında hiss etməsin. Azərbaycanın bütün rayonlarında, bölgələrində, içərisində Qax rayonu da olmaqla, böyük quruculuq-abadlıq işləri həyata keçirilib. İnsanların həyat səviyyəsi gün-gündən yaxşılaşır, əmək haqları, pensiyalar və müavinətlər hər il artırılır. Bu proses Cənab Prezidentimiz tərəfindən davam etdirilir və əminliklə deyə bilərik ki, növbəti illərdə də davam etdiriləcəkdir".

Çıxış edənlər seçiciləri 11 apreldə bu inkişafın davamına səs verməyə çağırdılar.

Görüşdə çıxış edən kənd sakinlərindən Ruzigar Cəlilov, Nizami Yunusov, Zəminə Babayeva, Bədrəddin Məmmədov və başqaları Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən siyasətdən razılıqlarını bildirdilər və 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verəcəklərini söyləyiblər.

## Ağdaş rayonunda seçicilərlə görüş keçirilib

11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyasının növbəti görüşləri Ağdaş rayonunun Aşağı Nemətabad, Qəribli və Yuxarı Nemətabad kənd seçiciləri ilə keçirilib.





Görüşlərdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Ağdaş rayon şöbəsinin sədri, millət vəkili Cavid Osmanov Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə 2003-cü ildən bu günədək həyata keçirilən genişmiqyaslı quruculuq-abadlıq işlərindən və aparılan uğurlu daxili və xarici siyasətdən danışıb. C.Osmanov seçiciləri 11 apreldə seçki məntəqələrinə gələrək, Yeni Azərbaycan Partiyasının namizədi Prezident İlham Əliyevə - Azərbaycanın daha da güclənməsinə səs verməyə çağırıb.

Görüşlərdə çıxış edən seçicilərdən Ələsgər Bəkirov, Aidə Cavadova və Cəfər Osmanov bildiriblər ki, xalqımız son 15 ildə qazanılmış nailiyyətlərin davamına Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən kursun davamına-davamlı inkişafa səs verəcəklər.

Görüşdə təbliğat qrupunun üzvləri Sevgili İbrahimova və Fuad Nəbiyev çıxış edərək, 11 aprel tarixində seçiciləri birlik nümayiş etdirərək, Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

## Ucarlı seçicilər: "11 aprel tarixi Azərbaycan xalqının növbəti zəfər günü olacaq!"

2018-ci ilin 11 aprel tarixində keçiriləcək prezident seçkiləri ilə bağlı Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatı seçicilərlə görüşlərini davam etdirir. Dünən YAP Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri seçicilərlə növbəti görüş keçirib. Görüş Ucar rayonun Pirkənd kəndində baş tutub.





Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin sədri Şəhla Abdullayeva əminliklə bildirib ki, ucarlı seçicilər birmənalı olaraq, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevə səs verəcəklər: "Partiyamızın bu günə kimi seçicilərlə keçirilən görüşləri, onu deməyə əsas verir ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək."

Görüşdə təbliğat qrupunun üzvüləri - Milli Məclisin deputatı Vüsal Hüseynov, Rahib Rəsulov və Yaqut Zeynalova çıxış edərək, vurğulayıblar ki, Cənab İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir dövlət başçısıdır. Natiqlər bu uğurların davamlılığı üçün ucarlıları Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından Pirkənd kənd sakini Nurlan Əliyev və Qaracallı kənd sakini Ziya Mikayılov çıxış edərək, ötən 15 ildə İlham Əliyev Cənablarının hər bir Azərbaycanlının Prezidenti olduğunu əməli fəaliyyəti ilə sübut etdiyini vurğulamaqla seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan ediblər.

## Gəncəlilər ölkənin firavan gələcəyinə səs verəcək!

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası YAP Mərkəzi Seçki Qərargahı Gəncə şəhər şöbəsi tərəfindən ruh yüksəkliyi ilə həyata keçirilir. Təbliğat-təşviqat kampaniyası çərçivəsində seçici-






# Xalq İlham Əliyevə “HƏ” deyir!

lərlə keçirilən növbəti görüşdə YAP Gəncə şəhər təşkilatı idarə heyətinin üzvləri, ziyalılar, partiya fəalları və mədəniyyət işçiləri iştirak ediblər.

YAP Gəncə şəhər təşkilatının qadınlar şurasının sədri, millət vəkili Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının namizədi, dövlətimizin başçısı Cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və sistemli islahatlardan, daxili və xarici siyasət nəticəsində, ölkəmizdə son illərdə mədəniyyət sahəsində qazanılan uğurlardan bəhs edib. Məhz müasir dövlətimizin bu siyasət nəticəsində, inkişaf etdiyini diqqətə çatdıran millət vəkili seçiciləri Ulu Öndər Heydər Əli-




yev siyasətinin davamı naminə 11 aprel seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Xalq artistləri - Məmmədəli Balayev, Şahnaz Haşımova, Pərvanə Qurbanova, əməkdar mədəniyyət işçiləri Əli Qasımov, Elmira Əliyeva, Xəzəngül Hüseynova, Bəxtiyar Muradov, fortopiano müəllimi Gülər İsmayılova çıxış edərək, uzaqgörən, müdrik və qədirbilən ölkə vətəndaşları bu seçkilərdə də mühüm, qəti seçimlərini edəcəklərini, yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Tədbirdə YAP Mərkəzi Seçki Qərargahı Gəncə şəhər şöbəsinin və partiyanın şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin seçicilərin mütləq əksəriyyətinin səsini qazanacağı heç kimdə şübhə doğurmadığını bildirib və hər kəsi yekdilliklə Cənab İlham Əliyevə səs verməyə səsləyib.

## Şamaxı seçiciləri Cənab İlham Əliyevə səs verəcək

Şamaxı rayonunda Yeni Azərbaycan Partiyasının tərəfindən prezidentliyə namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası uğurla davam edir.

Təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun



Mədrəsə və Kərkənc kəndlərində keçirilən tədbirlərdə YAP Mərkəzi Seçki Qərargahının Şamaxı rayon şöbəsinin üzvləri H.Şıxıyev, A.Bayramov, S.Fətəliyev, Ş.Hüseynov, F.Quliyeva, T.Yusifova, N.Rzazadə və partiyanın rayon təşkilatının sədri Bəxtiyar Abbasov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, yüksək beynəlxalq nüfuza və özünəməxsus inkişaf modelinə malik olan Azərbaycanda aprelin 11-də keçiriləcək prezident seçkiləri öncəsi ictimai-siyasi vəziyyət sabitdir. Prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası uğurla davam edir, hər bir namizədə bərabər şərait yaradılıb. Hazırkı reallıqlar, yeni mövcud şərait, məhz aprelin 11-də keçiriləcək prezident seçkilərinin də demokratik standartlara uyğun baş tutacağını - Azərbaycanın demokratik ənənələrə sadiq qalacağını söyləməyə əsas verir.

Görüşlər zamanı ölkəmizdə seçkiöncəsi şəraiti səciyyələndirən ən mühüm amillərdən birinin, məhz ictimai-siyasi sabitlik olduğu vurğulanıb və Cənab İlham Əliyevin 2003-cü ildən indiyə qədər ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycan sabitlik adası kimi səciyyələndirilib. Bu gün Azərbaycanı bir çox ölkələrdən fərqləndirən xüsusiyyət, məhz ictimai-siyasi sabitlikdir və bu sabitliyi şərtləndirən amil isə Cənab İlham Əliyev tərəfindən uğurlu daxili və xarici siyasət kursunun həyata keçirilməsidir. Çıxış edənlər qeyd ediblər ki, bu nailiyyətlərin davamlı olması, gələcəkdə də ictimai-siyasi sabitliyi qoruyub-saxlamaq və davam etdirmək üçün Şamaxı seçiciləri Cənab İlham Əliyevə səs verməkdə qərarlıdır.

Tədbirlərdə Mədrəsə və Kərkənc kənd sakinlərindən Mahmud Orucov, Xoca Murad Mustafayev və Davud Ziyayev çıxış edərək, Cənab İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətin xalq tərəfindən, birmənalı şəkildə dəstəkləndiyini qeyd edərək, 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevə səs verəcəklərini bildiriblər.

## Göyçaylıların birmənalı seçimi Cənab İlham Əliyevdir!

Aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası Göyçay rayonunda uğurla davam edir. Kampaniya çərçivəsində növbəti görüş rayonun təhsil işçiləri ilə keçirilib.





Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin sədri Sahib Şükürov, Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyevin dövlət başçısı olaraq, həyata keçirdiyi ardıcıl və sistemli islahatlar, daxili və xarici siyasət nəticəsində, ölkəmizin son illərdə qazandığı uğurlardan bəhs edib. Görüşdə çıxış edən Milli Məclisin deputatı Elman Nəsirov Cənab İlham Əliyevin rəhbərliyi ilə son 15 il ərzində həyata keçirilmiş işləri və qazanılmış uğurlu nailiyyətlər barədə öz fikirlərini söyləyib. E.Nəsirov seçiciləri 11 11 aprel 2018-ci il tarixində xalqın alternativsiz namizədi Cənab İlham Əliyevə səs verməyə səsləyib.

Tədbirdə çıxış edənlər - Milli Məclisin deputatları Sabir Hacıyev, Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahı Göyçay rayon şöbəsinin üzvü Elnur İsmayılov, rayonun 3 saylı məktəbin tarix müəllimləsi Samirə Bəşirova, rayonun 4 saylı məktəbinin tarix müəllimləsi Firəngiz Məmmədova, Ulaşlı-Şıxlı kənd orta məktəbinin müəllimləsi Aynur Mahmudova, Bığır kənd 2 saylı tam orta məktəbin tarix müəllimi Aqil Məmmədov və başqaları Azərbaycanı işıqlı gələcəyə doğru aparan Cənab İlham Əliyevin gördüyü işlər, həyata keçirdiyi uğurlu inkişaf proqramının danılmaz oldugunu vurgulayıblar. Natiqlər qeyd ediblər ki, növbəti 7 ildə Azərbaycan Cənab İlham Əliyevin rəhbərliyi ilə qələbələrini davam etdirəcək və qüdrətli dövlət olaraq yeni nailiyyətlərə imza atacaq.

## Şəki seçiciləri öz seçimlərini ediblər!

11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində 1317 nəfərdən yuxarı seçicisi olan Şəki rayonu Şəki kəndi Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun iştirakı ilə seçicilərlə növbəti görüş keçirilib. Tədbiri giriş sözü ilə Yeni Azərbaycan Partiyası





Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin sədri Həsən Həsənov açaraq, prezidentliyə namizəd Cənab İlham Əliyevin 2003-2018-ci illər ərzində ölkə Prezidenti kimi gördüyü nəhəng işlərdən danışaraq, bildirib ki, Onun müdrik, məqsədyönlü siyasəti nəticəsində, son 15 ildə Azərbaycan çox böyük uğurlara imza atıb. “Mən əminəm ki, aprelin 11-də Şəki kənd seçiciləri 11 aprel 2018-ci il tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevə səs verəcəklər”-deyə qeyd edən H.Həsənov seçki günü hər kəsi fəal olmağa və Yeni Azərbaycan Partiyasının namizədi İlham Heydər oğlu Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şəki rayon şöbəsinin təbliğat qrupunun üzvləri Kamil Məmmədov, Yusif Şükürlü və Qabil Qədimov çıxış edərək, prezidentliyə namizəd Cənab İlham Əliyevin həyat və fəaliyyəti, eyni zamanda, ölkəyə rəhbərlik etdiyi 15 il ərzində gördüyü işlər, Azərbaycan dövlətçiliyinin inkişafı və xalqımızın rifahı naminə xidmətləri barədə ətraflı məlumat verib, seçiciləri bu uğurların davam etdirilməsi üçün Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Tədbirdə çıxış edən kənd sakinlərinin artıq öz seçimlərini etdiklərini və 11 aprel tarixində xalqımızın layiqli oğlu İlham Əliyevə səs verəcəklərini bildiriblər.

Ardı Səh. 14

# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 13

## Binəqədi rayonunda prezidentliyə namizəd İlham Əliyevin təbliğat materialları seçicilərə paylanılıb

Bir neçə gündür ki, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərinə hazırlıq məqsədilə Yeni Azərbaycan Partiyası tərəfindən prezidentliyə namizədliyi irəli sürül-





müş İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində mütəmadi tədbirlər keçirilir. Tədbirlər çərçivəsində YAP Binəqədi rayon təşkilatının fəal gəncləri Binəqədi rayonunda “İlhamla irəli” təşviqat aksiyası keçirib. Gənclər rayonun müxtəlif ərazilərində - parklarda, küçələrdə və yaşayış binalarında olaraq seçicilərlə söhbət aparıb, onlara YAP Mərkəzi Seçki Qərargahı tərəfindən hazırlanmış Cənab İlham Əliyevin seçki proqramını, seçkiqabağı platformasını əks etdirən bukletləri və digər təbliğat-təşviqat materialları paylanıb. Həmçinin, seçicilərə Cənab İlham Əliyevin son 15 ildə respublikamızda gördüyü möhtəşəm işlərdən, tarixi nailiyyətlərdən, dövlətimizin artan qüdrətindən, ölkəmizin simasının bütünlükdə dəyişməsindən, insanların həyatının yaxşılaşmasından bəhs edən məlumatlandırıcı bukletlər təqdim edilib və ətraflı məlumatlar verilib.

Gənc fəallar seçicilərin diqqətinə çatdırıblar ki, son 15 il ərzində Azərbaycanın əldə etdiyi uğurların əsasında dövlət başçısı Cənab İlham Əliyev tərəfindən görülən işlər və həyata keçirilən islahatlar dayanır. Bütün uğurların təməlini isə, güclü iqtisadi inkişafımız və davamlı sabitliyimiz təşkil edir.

Aksiyaya qoşulan gənclər seçicilər tərəfindən səmimiyyətlə qarşılanıb, onlar bukletlər və digər təbliğat-təşviqat materialları ilə yaxından tanış olublar. Ölkə Prezidenti İlham Əliyevin ölkəmizin daha da qüdrətlənməsi, çiçəklənməsi istiqamətindəki siyasətini alqışladıqlarını və qarşıdan gələn prezident seçkilərində, məhz İlham Əliyevə səs verəcəklərini bildiriblər.

***

Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında prezidentliyə namizəd Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində gənc seçicilərlə görüş keçirilib. Görüşdən öncə iştirakçılar rayon təşkilatı tərəfindən hazırlanmış və Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası zamanı təqdim edilən videoçarxlara baxıblar. Qeyd edək ki, videoçarxlarda dövlət başçısı, YAP-ın Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işlər, eləcə də, Binəqədi rayonunda həyata keçirilən uğurlu islahatlardan bəhs edilib.

Daha sonra görüş rəsmi hissə ilə davam etdirilib. Görüşü giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov bu ilin 11 aprel tarixində ölkəmizdə keçiriləcək prezident seçkilərində YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin uğurlu təbliğat-təşviqat kampaniyasından danışıb. Rayon təşkilatının gənclərlə görüşə önəm verdiyini, gənclərin ölkəmizin inkişafı və çiçəklənməsi yolunda uğurlu fəaliyyətini xüsusi vurğulayıb. R.Göyüşov çıxışının sonunda bütün gənc seçiciləri seçkilərdə fəal iştirak etməyə və Cənab İlham Əliyevin uğurlu siyasətinə səs verməyə çağırıb.

Tədbirdə Milli Məclisin deputatı Kamaləddin Qafarov çıxış edərək Azərbaycanda gənclərin hərtərəfli inkişafı - siyasi, ictimai, mədəni, idman, elm və beynəlxalq arenalarda ən yüksək səviyyədə təmsil olunmaları, onların bilikli, təhsilli, bacarıqlı gənclər olaraq yetişmələri, həyat şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə görülən işlər və həyata keçirilən islahatlar haqqında məlumat verib. Prezident İlham Əliyevin siyasi fəaliyyətinin bütün dövrlərində ölkə gənclərinə daim diqqət və qayğı ilə yanaşdığını bildirərək, gənclərimizi onlara olan bu inamı, etimadı doğrultmağa, prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə dəvət edib.






YAP Gənclər Birliyinin sədri Seymur Orucov çıxışında ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi altında gənclərə göstərilən dövlət qayğısından danışıb. Gəncləri dövlət başçısının ətrafında sıx birləşməyə, daha güclü və müstəqil Azərbaycan naminə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

“İrəli” İctimai Birliyinin sədri Mirhəsən Seyidov çıxışında gənclər siyasəti çərçivəsində görülən işlərdən danışıb. M.Seyidov gəncləri onlar üçün yaradılan şəraitdən səmərəli və məhsuldar istifadə edərək, İlham Əliyevə səs verməyə çağırıb.

YAP Binəqədi rayon təşkilatı gənclər birliyinin sədri Fəsli Nəbiyev çıxışında bütün gəncləri müstəqilliyimizin əbədiliyi, dönməzliyi, ölkəmizin inkişafı, çiçəklənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə “İlhamla irəli” deyərək, seçkilərdə fəal olmağa və Cənab İlham Əliyevi dəstəkləməyə səsləyib.

Görüşdə çıxış edən gənc seçicilərdən - Zəhra Əliyeva, Zaur Quliyev və başqaları gənclərin sərbəst fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildiriblər. Bu sabitliyi, əmin-amanlığı yaradan dövlət başçısı Cənab İlham Əliyevə daim dəstək olacaqlarını və sabitliyə, inkişafa səs verəcəklərini söyləyiblər.

## Prezident İlham Əliyev mustəqil Azərbaycanı tərəqqiyə qovuşduran və firavan gələcəyə aparan liderdir!

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Ucar rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvləri dünən seçicilərlə növbəti görüşü Ucar rayonunda mədəniyyət işçiləri ilə olmuşdur.

Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahı Ucar rayon şöbəsinin və YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva bildirib ki, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin iştirak etdiyi və ya həyata keçirdiyi layihələr Azərbaycan dövlətinin beynəlxalq nüfuzunu daha da artırır, millətimizin mənəvi-psixoloji ruhunu və özünəinam hissini yüksəldir. Şəhla Abdullayeva qeyd etdi ki, 11 apreldə xalqımız hamılıqla prezidentliyə namizəd Cənab İlham Əliyevə səs verəcək.

Təbliğat qrupunun üzvləri Milli Məclisin deputatı Vüsal Hüseynov, Fuad İsraflov və Rahib Rəsulov çıxış edərək vurğulayıblar ki, Cənab İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi strategiya Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələr üzrə inkişaf edib, müasirləşib və yeniləşib. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin nəticəsidir. Təbliğat qrupunun üzvləri bu uğurların davamlı olması üçün ucarlı seçiciləri 11 apreldə Cənab İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından Alı Babayev çıxış edərək bildirdi ki, Prezident İlham Əliyev manеələrə və təsirlərə baxmayaraq, həmişə inamla və qətiyyətlə hədəfinə doğru gedir. Bu hədəf Azərbaycan xalqının və dövlətinin milli maraqlarının ən yüksək səviyyədə qorunmasından, dəqiq müəyyənləşdirilmiş məqsədlərə və hədəflərə çatılmasından ibarətdir. Alı Babayev, seçkilərdə Cənab İlham Əliyevin namizədliyini yekdilliklə müdafiə edəcəklərini bəyan etdi.

## Qəbələdə rayon ağsaqqalları və ilk dəfə səs verən gənclərlə görüş keçirildi

Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Qəbələdə seçicilərlə görüşlər davam edir. Bu silsilədən növbəti görüş Qəbələ rayon ağsaqqalları və ilk dəfə səs verəcək gənclərlə keçirilib. Görüşü giriş sözü ilə YAP





Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi son 15 ildə əldə olunan uğurlardan danışıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan uğurlu daxili və xarici siyasətin ölkəmizin xoşbəxt gələcəyinin və xalqımızın firavan güzəranının etibarlı təminatçısı olduğunu vurğulayıb. Natiq əminliklə qeyd edib ki, növbəti seçkilərdə də xalq bu reallıqları nəzərə alaraq, bir daha Cənab İlham Əliyevə səs verəcək. Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun üzvü Telman Abduxalıqov çıxış edərək Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin seçki proqramı haqqında danışaraq, son 15 il ərzində ölkəmizdə həyata keçirilən siyasətin gənclərin inkişafına təkan verdiyini deyib. T.Abduxalıqov bütün qeyd olunanları uğurlarımızın nəticəsi olaraq, rayon ağsaqqallarını və gəncləri 11 apreldə partiyamızın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdı. Görüşdə Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin təbliğat-təşviqat qrupunun gənc üzvü Pərvanə Səmədova çıxış edərək qeyd edib ki, Prezident İlham Əliyev həmişə gənclərə böyük diqqət və qayğı göstərir: “Bu gün gənclər Cənab İlham Əliyevin Sədrlik etdiyi Yeni Azərbaycan Partiyasında çoxluq təşkil edirlər.

Ardı Səh. 15




# Xalq İlham Əliyevə “HƏ” deyir!

Əvvəli Səh. 14

Gənclərin hərtərəfli inkişafına diqqət və qayğının nəticəsidir ki, indi Azərbaycan beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır”. O, rayon gənclərini Prezidentimizin siyasətini dəstəkləməyə, Onunla həmrəy olmağa səsləyib.

## Qusarlıların seçimi Cənab İlham Əliyevdir

Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Qusar rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun tibb işçiləri





və Balaqusar, Həsənqala, Bədirqala və Köhnə Xudat qazmalar kənd seçiciləri ilə görüşlər keçirib.

Görüşlərdə YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilov giriş sözü ilə çıxış edərək, YAP-ın prezidentliyə namizədi Cənab İlham Əliyevin rəhbərliyi ilə 2003-2018-ci illər ərzində Azərbaycanın nail olduğu möhtəşəm tarixi nailiyyətlərdən, beynəlxalq nüfuzunun gündən-günə möhkəmlənməsindən, sürətli iqtisadi inkişafa nail olmasından danışıb. Qeyd edib ki, Cənab İlham Əliyevin rəhbərliyi ilə, xalqımızın milli mənafelərinə müvafiq olaraq, həyata keçirilən genişmiqyaslı işlərin əhəmiyyəti ölçüyəgəlməzdir. D.İbramxəlilov belə bir inkişaf dövrünü Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə yaşayan xalqımızı Azərbaycanın gələcək inkişafı naminə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Milli Məclisin deputatı Azər Badamov, YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov çıxış edərək bildiriblər ki, ötən illərdə dünyada baş verən qlobal maliyyə böhranı fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların tam həcmdə və vaxtında yerinə yetirilməsi, məhz Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin məntiqi nəticəsidir. Çıxış edənlər seçiciləri Azərbaycanın işıqlı, uğurlu və etibarlı gələcəyi naminə xalqımızın Lideri İlham Əliyevə səs verməyə çağırıblar.

Seçicilər adından çıxış edən Mübariz Zeynalov, Mühübəli Cəfərov, Orxan Qurbanov, Amalya Əlibabayeva, Ağaməd Abdurahmanov və Muradağa Şixməmmədov ümumxalq səsverməsində, həmişə olduğu kimi, yaxından iştirak edəcəklərini və hamılıqla Ulu Öndər Heydər Əliyevin siyasi ideyalarının layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklərini bildiriblər.

## Xaçmazlılar Ümummilli Lider Heydər Əliyev ideyalarının layiqli davamçısı Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Xaçmaz rayon şöbəsi 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun tibb işçiləri ilə görüş





keçirib.

Görüşü YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq, Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 15 il ərzində əldə olunan uğurlardan ətraflı danışıb. Təşkilat sədri bütün bu uğurların fonunda dövlət başçısı Cənab İlham Əliyevin yüksək etimad və etibara layiq olduğunu söyləyərək, seçiciləri prezident seçkilərində YAP-ın namizədi, milli maraqlarımızın təminatçısı, Ümummilli Lider Heydər Əliyev ideyalarının layiqli davamçısı Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Milli Məclisin deputatı Eldəniz Səlimov çıxış edərək Cənab İlham Əliyevin siyasi xəttinin əsasının, məhz dövlətimizin və xalqımızın təhlükəsizliyinin təmin olunması, onun maraq və mənafeyinin qorunmasının olduğunu söyləyib. O, seçiciləri 11 aprel tarixində keçiriləcək prezident seçkilərində Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə tibb işçilərindən Səyyaf Tağıyev, Mahirə Kərimova, Saleh Pirəliyev, Orxan Şeydayev və başqaları çıxış edərək, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 il ərzində ölkəmizin misli görülməmiş qədər inkişaf etdiyini söyləyiblər. Qeyd olunub ki, dövlət başçısı Cənab İlham Əliyevin növbəti illərdə də Azərbaycana rəhbərlik etməsi ilə inkişaf və tərəqqimiz daha da artacaq, ölkəmiz daha yüksək qələbələrə imza atacaqdır. Çıxış edənlər seçiciləri növbəti prezident seçkilərinə gedərək, yekdilliklə Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

## İsmayıllı seçiciləri İlham Əliyev siyasətini dəstəkləyəcəklər






Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində İsmayıllı şəhərində gənclərlə, o cümlədən, rayonun Kürdmaşı və Hacıhətəmli kəndlərində seçicilərlə görüşlər keçirilib.

Görüşlərdə YAP Mərkəzi Seçki Qərargahı İsmayıllı rayon şöbəsinin sədri Sevil Əhmədova çıxış edərək qeyd edib ki, dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanda aparılan uğurlu, məqsədyönlü siyasət ölkədə neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun sürətli inkişafına, yoxsulluğun azaldılmasına əlverişli şərait yaratmış, əhalinin etibarlı sosial müdafiəsini, maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasını təmin etmişdir.

S.Əhmədova onu da qeyd edib ki, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının istiqamətlərinin müəyyənləşdirilməsində elmi əsaslara söykənən konsepsiya və proqramların hazırlanması mühüm önəm daşıyır. Bu zaman milli iqtisadiyyatın müxtəlif sahələrinin və ayrı-ayrı regionların davamlı inkişafına dair elmi tədqiqatların aparılmasına, həyata keçirilən araşdırmaların koordinasiya edilməsinə, kadr hazırlığına xüsusi diqqət yetirilir.

Tədbirdə Milli Məclisin deputatı Novruzəli Aslanov çıxış edərək bildirib ki, Azərbaycanda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində ölkəmizdə genişmiqyaslı sosial siyasət aparılır. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi, yoxsulluğu aradan qaldırmaqdır. Əhalinin sosial baxımından, aztəminatlı təbəqəsi daim dövlətin diqqət mərkəzindədir. Millət vəkili seçiciləri 11 aprel prezident seçkilərində fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırdı.

Tədbirdə Kürdmaşı kənd sakinləri Arif Qənbərov, Rüstəm Nəbiyev, Varis Cəbiyev, Dürdanə Əliyeva, Hacıhətəmli kənd sakinləri Feyruz Mehdiyev, İldırım Məsimov, Şahmalı Salmanov və başqaları çıxış edərək, bildiriblər ki, ismayıllılar Yeni Azərbaycan Partiyasının Sədri, ölkə başçısı Cənab İlham Əliyevin siyasi dəst-xəttini ürəkdən bəyənirlər və aprelin 11-də yekdilliklə Cənab İlham Əliyevə səs verəcəklər.

## Ağcabədili seçicilər Cənab İlham Əliyevə səs verəcəklər

Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağcabədi rayon şöbəsi 11 aprel seçkilərində YAP-ın namizədi İlham Heydər oğlu Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində rayonun Hacıbədəlli və Pərioğullar kənd seçiciləri ilə görüş keçirib.



Görüşü Yeni Azərbaycan Partiyası Seçki Qərargahının Ağcabədi rayon şöbəsinin sədri Rövşən Əhmədov açaraq, seçiciləri prezidentliyə namizəd Cənab İlham Əliyevin seçki proqramı ilə tanış edib. Bildirib ki, dövlət başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və uğurlu siyasəti nəticəsində, Azərbaycan möhtəşəm nailiyyətlərə imza atıb. R.Əhmədov seçiciləri ölkəmizin daha da inkişaf etməsi və daha böyük qələbələr əldə etməsi naminə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə Yeni Azərbaycan Partiyası Seçki Qərargahının təbliğatçısı, millət vəkili Tahir Rzayev, rayon şöbəsinin təbliğatçıları Əlizadə Nəcəfov, Mübariz İbrahimov, İbrahim Həsənov, Radə Qafarova çıxış edərək, Cənab İlham Əliyevin fəaliyyəti dövründə ölkəmizin görünməmiş inkişafa imza atdığını bildirib və seçiciləri Cənab İlham Əliyevə səs verməyə səsləyiblər.

Hacıbədəlli kənd seçki qərargahının sədri Feyzulla Feyzullayev, seçicilər adından Tərlan Məlikova, Məhbubə Əliyeva, Pərioğullar seçiciləri adından isə Nübar Qasımova, Adil Abbasov çıxış edərək, artıq prezidentini müəyyən etdiklərini, seçki günü məntəqələrinə gələrək öz seçimlərini edib, Cənab İlham Əliyevə səs verəcəklərini bildirdilər.

# KİVDF Azərbaycan mətbuatının inkişafı və tərəqqisi naminə uğurlu fəaliyyətini davam etdirir

## *Artıq 9 ildir ki, fəaliyyət göstərən fond, bir çox nailiyyətləri ilə yadda qalıb*

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) fəaliyyətə başlamasından 9 il ötür. Belə ki, KİVDF-nin yaradılması, həqiqətən, tarixi zərurət idi.***

Əgər bu mühüm qurumun yaradılmasından öncəki zamanlara diqqət yetirsək, xatırlaya bilərik ki, dövlət müstəqilliyimizin bərpasının ilk illərində respublikamızda söz, fikir, məlumat azadlığı sahəsində ciddi problemlər mövcud idi. Həmin dövrdə KİV üzərində senzuranın olması, redaksiyaların maddi-texniki bazasının zəifliyi, jurnalist peşəkarlığının hələ yüksək səviyyədə olmaması, söz və fikir azadlığının inkişafına öz mənfi təsirini göstərirdi. Belə bir vəziyyətin aradan qaldırılması üçün hələ o zamanlar Ulu Öndər Heydər Əliyev bir sıra ciddi qərarlar qəbul etdi. 1998-ci ildə Onun Fərmanı ilə senzura ləğv edildi, 1999-cu ildə "KİV haqında" qanun qəbul edildi, 2000-ci ildə mətbuata nəzarət funksiyasını həyata keçirən Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edildi, 2005-ci ildə KİV-lərin qeydiyyatı qaydaları sadələşdirildi, qeydiyyatdan keçmiş KİV-lərin sayı sürətlə artmağa başladı. Sözsüz ki, KİV-lərin sayı artdıqca, onların tirajları aşağı düşməyə başladı və nəticədə, onlar maliyyə böhranı ilə üzləşdilər. Məhz bu böhrandan çıxış yolları axtarmaq üçün Mətbuat Şurasında peşəkar jurnalistlərdən və mütəxəssislərdən ibarət işçi qrupu yaradıldı. İşçi qrup KİV-in İnkişafına Dövlət Dəstəyi Konsepsiyasını hazırlayaraq, ölkə Prezidentinə təqdim etdi...

### Bu, eyni zamanda, Prezident İlham Əliyev Cənablarının Azərbaycan jurnalistikasına verdiyi önəm olaraq qiymətləndirilə bilər

Beləliklə, konsepsiyaya Prezident Administrasiyasında baxıldı və Cənab Prezidentin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə təsdiqləndi. Konsepsiyadan irəli gələn vəzifələri həyata keçirmək məqsədi ilə 3 aprel 2009-cu ildə Prezident İlham Əliyevin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı. Bu, eyni zamanda, Prezident İlham Əliyev Cənablarının Azərbaycan jurnalistikasına verdiyi önəm olaraq qiymətləndirilə bilər.

Fondun isə mətbuata ilk töhfəsi yarandığı vaxtdan bir il sonra - mətbuat günündə oldu. O zaman ölkə başçısının təşəbbüsü ilə 39 mətbuat orqanına, ümumilikdə, 390 min manat məbləğində birdəfəlik yardım göstərildi. Daha sonra fond ilk layihə müsabiqələrini elan etdi və həmin müsabiqələrin nəticəsi olaraq, 55 mətbuat orqanı qalib gələrək mükafatlandırıldı.




Əlbəttə, atılan ilkin addımlar jurnalistlərə bir çox mühüm faktorları töhfə etdi. Çünki həmin zamanlaradək, bir çox jurnalist təşkilatları qrant layihələri həyata keçirmişdi. Lakin qəzet redaksiyalarının, demək olar ki, 90 faizi bu layihələrin nə olduğunu bilmirdi. KİVDF layihələri gerçəkləşdirmək məqsədilə, birinci növbədə treninqlər keçirdi. Burada əsas məqsəd layihələrdə iştirak etmək niyyətində olan təşkilatları maarifləndirməkdən ibarət idi.

### Ölkə rəhbəri, eyni zamanda, jurnalistlərin dostu olaraq, dəfələrlə KİVFD-yə maddi vəsaitlər ayıraraq, ölkə mediasının inkişafına davamlı dəstəyini göstərib

Növbəti illərdən hazırkı dövrümüzə qədər isə fond tərəfindən yüzlərlə layihələr həyata keçirilib. KİVDF tərəfindən redaksiyalara bir çox kompüter dəstləri, fotoaparatlar və digər mediaya məxsus avadanlıqlar və ləvazimatlar hədiyyə olunub. Bu isə, redaksiyaların maddi-texniki bazasının yaxşılaşdırılmasına xeyli kömək edib. Digər tərəfdən, jurnalistlərin peşəkarlığını artırmaq məqsədi ilə fond tərəfindən çoxsaylı müsabiqələr keçirilib.

Kütləvi informasiya vasitələrinin inkişafı Prezident İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkə rəhbəri, eyni zamanda, jurnalistlərin dostu olaraq, dəfələrlə KİVFD-yə maddi vəsaitlər ayıraraq, ölkə mediasının inkişafına davamlı dəstəyini göstərib. Söz yox ki, gələcəkdə də bu vəsaitlərin miqdarı getdikcə artacaq və Azərbaycanın mətbuatı hər zaman dinamik inkişafda olacaq.

Xüsusilə, jurnalistlərin sosial və maddi vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə şəhərin mərkəzi hissəsində jurnalistlər üçün iki yaşayış binası tikilərək istifadəyə verilib. Artıq üçüncü binanın da təməli atılıb və yaxın zamanlarda həmin bina da media işçilərinin sərəncamına veriləcək.

### Media qurumları bu fonda dayaq nöqtəsi və ümid yeri kimi baxır

Azərbaycan Müstəqil Dövlətlər Birliyində, eləcə də, beynəlxalq aləmdə yeganə ölkələrdən biridir ki, burada mətbuatın inkişafına kömək etmək məqsədilə belə bir əhəmiyyətli fond yaradılıb. Lakin KİVDF görülən işlərlə kifayətlənmir, daim fondun fəaliyyətini daha da təkmilləşdirmək üzərində çalışır və çoxsaylı layihələr üzərində işlər aparılır. Məhz bu baxımdan, media qurumları bu fonda dayaq nöqtəsi, ümid yeri kimi baxır. Əlbəttə ki, KİVDF rəhbərliyi də bu kimi amilləri dəyərləndirərək, bilavasitə Azərbaycan mətbuatının inkişafı və tərəqqisi naminə uğurlu fəaliyyətini davam etdirir.

***Rövşən NURƏDDİNOĞLU***

# "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda"

***Daşkənddə yazıçı-publisist Elmira Axundovanın "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" özbək dilində nəşr olunmuş kitabının təqdimatı keçirilib. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində təşkil olunan təqdimat mərasimində xarici ölkələrin səfirləri, diplomatlar, Özbəkistan - Azərbaycan Dostluq Cəmiyyətinin rəhbərliyi, ziyalılar, ictimaiyyət nümayəndələri, jurnalistlər, müəllim və tələbələr, yerli azərbaycanlılar iştirak ediblər. Qeyd edək ki, kitab Azərbaycanın Özbəkistandakı Səfirliyinin və onun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə çap olunub.***




İlk öncə yazıçı-publisist Elmira Axundovanın müəllifi olduğu kitabların, habelə özbək dilində nəşr olunmuş "İlhom Aliyev "Ozgarishlar jarayonidagi Prezident tasviri" kitabının sərgisi təqdim olunub. Nəşrin tərcüməçilər Özbək alimləri Usman Kuçkar və Şokir Dolimovdır və kitab Daşkənddəki "Mashur press" nəşriyyatında işıq üzü görüb.





Təqdimat mərasimini giriş sözi ilə açan Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev yazıçı-publisist, Azərbaycan Milli Məclisinin deputatı Elmira Axundovanın yaradıcılığı haqqında məlumat verib və yazıçı tərəfindən qələmə alınmış, postsovet məkanının ən praqmatik siyasi xadimlərindən biri İlham Əliyev haqqında faktlar və materialları özündə əks etdirən kitabla ölkə başçısının əsl portretinin yaratdığını qeyd edib. Səfir vurğulayıb ki, müəllif xalqının gələcəyi naminə öz üzərinə böyük məsuliyyət götürmüş və dövlət başçısının uğurlu fəaliyyətini geniş təhlil edərək Prezidentin daxili və xarici, hərbi, sənaye, mədəniyyət, idman, multikulturalizm və informasiya sahələrində siyasətinin ən müxtəlif aspektlərinə işıq salmışdır. O, kitabın Özbəkistanda da böyük maraqla qarşılandığını qeyd edib. Daha sonra çıxış edən yazıçı-publisist, Azərbaycan Milli Məclisinin deputatı Elmira Axundova müəllifi olduğu kitab haqqında danışaraq Prezident İlham Əliyevin səmərəli fəaliyyəti nəticəsində Azərbaycanda böyük inqilabi dəyişikliklərin olduğunu, ölkənin iqtisadi mənzərəsinin tamamilə dəyişdiyini və Azərbaycanın heç vaxt indiki səviyyədə olduğu kimi qüdrətli olmadığını bildirdi. Müəllif Prezident İlham Əliyev tərəfindən elan edilən "qara qızıl"ın insan kapitalına çevrilməsi" siyasətinin Azərbaycanı Qafqazın lider dövlətinə çevirdiyini, regionda nüfuzlu ölkə olaraq qlobal əhəmiyyətli nəhəng layihələrin həyata keçirməsi dünyada ölkəmizin nüfuzunun güclənməsinə və xalqın ona olan inamını, ümidlərini doğrultdunu söylədi.



Təqdimat mərasiminin ölkədə prezident seçkiləri ərəfəsində keçirildiyini söyləyən Elmira Axundova kitabın bu böyük işlərə kiçik bir töhvə olduğunu qeyd etdi. O, ölkəmizdə görülən işləri, qazanılan uğurları gözardı etmək, bəzi şəxslərin öz Vətənləri əleyhinə apardıqları iyrənc kompaniyanı pisləyərək, bu cür insanların sağlam düşüncəyə söykənmədiyini və öz Vətənlərinə xəyanət etdiklərini qeyd etdi. Çıxış edən Özbək tarixçi-araşdırmaçı Şuxrat Salamov kitabın olduqca maraqlı olduğunu və nəşrdə Azərbaycan-Özbəkistan münasibətlərinə dair İlham Əliyevin maraqlı fikirlərinin yer aldığını qeyd etdi. Prezident İlham Əliyevin Azərbaycan tarixində indiyədək görünməyən mühüm uğurlara imza atdığını vurğulayan Şuxrat Salamov tarix boyu güclü dövlət başçılarının fəaliyyətinə, onların irsinə tez-tez müraciət olunduğunu söylədi. O, Elmira Axundovanın fikirlərinə dəstək olaraq xarici ölkələrdə anti-Azərbaycan təbliğatı aparanlara səslənərək bunun Vətənə, millətə, dövlətə xəyanət olduğunu bildirdi. Çıxış edən Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, kitabın tərcüməçisi Şokir Dolimov, tərcüməçi-alim Babaxan Şərif və başqaları nəşrdə Azərbaycan Prezidenti İlham Əliyevin portretini yaratmaq, onu öz xalqının əsl liderinə və müasir dövrün ən parlaq siyasi xadimi kimi nə çevirmiş və müəllif real fakt, hadisələrə əsaslanaraq dövlət başçısının parlaq obrazını yaratdığını vurğulamışlar.

Onlar çıxışlarında Azərbaycan Prezidentinin İlham Əliyevin İslam həmrəyliyi, mədəniyyətlərarası dialoq sahəsində təşəbbüslərini yüksək qiymətləndirərək, kitabda multikulturalizmin Azərbaycanda həyat tərzi olduğunu, xalqımızın əsrlər boyu tolerantlıq, dözümlülük nümayiş etdirdiyini, digər dinlərə və mədəniyyətlərə hörmətlə yanaşıldığının real faktlarla sübuta yetirildiyini qeyd etdilər.

Tərcüməçi Şokir Dolimov İlham Əliyevin regionda Azərbaycanın müstəqil siyasət aparan dövlət olaraq nüfuzunun yüksəlməsi, ölkədə nəhəng infrastruktur layihələrinin reallaşdırılması, beynəlxalq tədbirlərə - Avropa oyunları, İslam oyunları, Qlobal forumlara ev sahibliyi etməsini ölkənin artan nüfuzunun göstəricisi olduğunu söyləyib. O, kitabın Özbəkistan ictimaiyyəti, tədqiqatçılar üçün olduqca maraqlı bir mənbə olduğunu vurğulayaraq, müəllifə və kitabın çapına görə Azərbaycan Səfirliyinə öz təşəkkürünü bildirib. Daha sonra müəllif "İlham Əliyev. Prezidentin portreti dəyişikliklər fonunda" özbək dilində nəşr olunmuş yeni kitabları imzalayaraq oxuculara hədiyyə etdi.

# Vüqar Səfərli: Azərbaycan mediasının inkişafı dövlətimizin daim diqqət mərkəzindədir

***Aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasının 9-cu ildönümü tamam olur. Fondun icraçı direktoru Vüqar Səfərli bununla əlaqədar AZƏRTAC-ın suallarını cavablandırır.***



*- Vüqar müəllim, aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasının 9-cu ildönümü tamam olur. Fondun yaradılması hansı zərurətdən irəli gəlirdi?*

- Fondun yaradılması zərurətindən danışarkən, ilk növbədə, müstəqillik illərində Azərbaycan mətbuatının inkişaf mərhələlərinə qısaca nəzər salmaq istərdim. Danılmaz həqiqətdir ki, 1993-2003-cü illərdə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkədə genişmiqyaslı demokratik islahatlar həyata keçirilib, fikir, söz və məlumat azadlığı, kütləvi informasiya vasitələrinin müstəqilliyi təmin edilib.

Həmin illərdə kütləvi informasiya vasitələrinin hərtərəfli inkişafına zəruri şərait yaradan mükəmməl qanunvericilik bazası formalaşdırılıb. Mətbuat orqanlarının sərbəst fəaliyyətinə maneə yaradan süni amillər, ilk növbədə, senzura 1998-ci il avqustun 6-da aradan qaldırılıb. Bu mərhələdən kütləvi informasiya vasitələrinə dövlət dəstəyi müntəzəm xarakter alıb, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilib.

Kütləvi informasiya vasitələrinin son 15 ildəki inkişafı isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Dövlətimizin başçısı respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətinin təmin edilməsinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə yönəlmiş bütün mütərəqqi təşəbbüsləri dəstəkləyir. Prezident milli mətbuatımızın mütərəqqi ənənələrə əsaslanmaqla və xalqımızın tarixi-milli xüsusiyyətlərini qorumaqla inkişafını vacib sayır.

Xatırlatmaq lazımdır ki, Azərbaycan Milli Mətbuatının 130, 135 və 140 illik yubileylərinin dövlət səviyyəsində qeyd edilməsi, 2005-ci ildə "Əməkdar jurnalist" fəxri adının bərpası, yüzlərlə jurnalistin yüksək fəxri adlara, orden və medallara layiq görülməsi, qəzetlərə birdəfəlik maliyyə yardımlarının edilməsi, onların "Azərbaycan" nəşriyyatına olan 400 min manat məbləğində borclarının dövlət büdcəsi hesabına silinməsi və digər tədbirlər ölkə rəhbərinin mətbuata qayğısını əyani şəkildə nümayiş etdirib. Xüsusi qeyd etmək lazımdır ki, borcları ödənilən qəzetlər əsasən müstəqil və müxalifyönlü qəzetlər idi.

Azərbaycan Prezidentinin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, ilk növbədə, kütləvi informasiya vasitələrinin iqtisadi müstəqilliyinin, jurnalistlərin peşəkarlığının və sosial rifah səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyin stimullaşdırılması, dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığın inkişaf etdirilməsi məqsədindən irəli gəlirdi. Konsepsiyanın hazırlanması və qüvvəyə minməsi ilə faktiki olaraq milli mətbuatın inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu. Bu il imzalanmasının 10 ili tamam olan Konsepsiya mükəmməl sənəd olaraq özündə mediaya dövlət dəstəyinin məqsəd, prinsip və mexanizmlərini əks etdirir.

Konsepsiyada mətbuata dövlət dəstəyini həyata keçirəcək yeni dövlət qurumunun yaradılması da nəzərdə tutulmuşdu. Bu mənada, Azərbaycan Prezidentinin 2009-cu il 3 aprel tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da Konsepsiyadan irəli gələn vəzifələrin həllinə xidmət edirdi. Belə bir dövlət qurumunun yaradılması ölkə başçısının kütləvi informasiya vasitələrinin inkişafına və jurnalistlərin sosial problemlərinin həllinə böyük həssaslıqla yanaşdığını bir daha təsdiqləmiş oldu.

Əlbəttə, Fondun yaradılması ilə KİV-lərə dövlət dəstəyi daha dolğun, sistemli və ardıcıl xarakter aldı. Ölkə jurnalistlərinin bütün sahələrdə dinamik inkişaf edən, müasirləşən Azərbaycan Respublikasının nailiyyətlərindən daha səmərəli şəkildə bəhrələnməsi üçün imkanlar açıldı. Gələn il 10 illik yubileyini qeyd edəcək Fond həmin Konsepsiya əsasında uğurla fəaliyyət göstərərək mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsinə, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə və sosial vəziyyətlərinin yaxşılaşdırılmasına xidmət edən çoxsaylı layihələr həyata keçirir.

*- Fondun təşkilatlanması istiqamətində həyata keçirilmiş tədbirlər barədə nə deyə bilərsiniz?*

- Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu il 22 may tarixli sərəncamları ilə Fondun icraçı direktoru və Müşahidə Şurasının 9 nəfər üzvü təyin edildi. Bu təyinatlardan sonra Fond Konsepsiyaya və Nizamnaməsinə uyğun olaraq fəaliyyətə başladı. Müşahidə Şurasının ilk iclasında qurumun gələcək fəaliyyət istiqamətləri dəqiqləşdirildi, nəzərdə tutulan layihələrin həyata keçirilməsi üçün xüsusi təlimatlar, normativ sənədlər hazırlandı. Fondun yaradılmasından az müddət sonra kütləvi informasiya vasitələrinə maliyyə yardımını nəzərdə tutan ilk layihələrin həyata keçirilməsinə başlanıldı.

Diqqətinizə çatdırım ki, Fond yeni yaradılmış qurum kimi hansısa mövcud ənənəyə, praktik iş təcrübəsinə istinad etmirdi. Buna baxmayaraq, biz Konsepsiya, eləcə də Nizamnamə ilə üzərimizə düşən vəzifələrin uğurlu icrası məqsədilə tamamilə şəffaf və çevik mexanizmlər formalaşdıra bildik. Beynəlxalq təcrübə, daha dəqiqi, xarici ölkələrdə mətbuata dövlət dəstəyini həyata keçirən oxşar qurumların fəaliyyəti ilə yaxından tanışlığı istiqamətində həyata keçirdiyimiz addımlar praktik nəticələrini verdi. Fondun icraçı direktoru və Müşahidə Şurası üzvlərinin 2009-cu ildə Avstriyanın Vyana və İsveçin Stokholm şəhərlərinə işgüzar səfərləri beynəlxalq təcrübənin öyrənilməsi baxımından kifayət qədər əhəmiyyətli oldu.

Ötən 9 ildə Fond həm də ölkə jurnalistlərinin beynəlxalq təcrübə ilə yaxından tanışlığı üçün zəruri tədbirlər həyata keçirib. Ötən müddətdə media nümayəndələrinin Türkiyəyə, İsveçə, Avstriyaya, Şimali Kiprə və Böyük Britaniyaya səfərləri təşkil olunub. Jurnalistlərimiz bu səfərlər zamanı həmin ölkələrin aparıcı qəzetlərinin, habelə televiziya və radiolarının redaksiyalarında olub, onların iş üslubu ilə yaxından tanışlıq imkanı qazanıb, təcrübə mübadiləsi ediblər. Xüsusi vurğulamaq istərdim ki, Fonda dövlət büdcəsindən ayrılan vəsaitlərin ildən-ilə artması həm fəaliyyətimizin miqyasını genişləndirir, həm də jurnalistikamızın inkişafına xidmət edir. 2009-2018-ci illərdə Fonda dövlət büdcəsindən 35 milyon manata yaxın vəsait ayrılıb. Bu qayğının müqabilində Fond öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır.

*- Məlumdur ki, Fondun maliyyə yardımı ilə KİV layihələri icra olunur, həmçinin fərdi jurnalist yazıları müsabiqələri keçirilir. Bu istiqamətlər üzrə həyata keçirilən layihələri səmərəli hesab etmək olarmı?*

- Fond Konsepsiyaya əsasən qəzetlərə 19 istiqamət üzrə maliyyə yardımının göstərilməsi məqsədilə ildə 2 dəfə müsabiqə elan edir. Bu müsabiqələrin şərtlərinə cavab verən qəzetlər həmin istiqamətlər üzrə 6 ay ərzində layihələr icra edirlər. Fond həmin layihələrin monitorinqini həyata keçirir və hər ayın sonunda qəzetlərə növbəti maliyyə vəsaitini ayırır. Fondun maliyyə vəsaiti hesabına gündəlik, günaşırı və həftəlik qəzetlərdə hər il 6 min səhifədən çox layihə materialı dərc olunur.

Fondun maliyyə yardımı ilə icra edilən layihələr çərçivəsində yazılan yazılar ictimai həyatın bütün sahələrini əhatə edir. Diqqətinizə çatdırım ki, vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu; fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi; Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması; Azərbaycanın dünya birliyinə inteqrasiyası; Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi, regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi və mühüm əhəmiyyət kəsb edən digər mövzular mətbuatda geniş işıqlandırılır, təhlil edilir.

Fond KİV-lərdə Azərbaycanın ədəbi dilinin qorunması məsələsinə də xüsusi diqqət ayırır. Bu məqsədlə hər il "Azərbaycan mətbuat məkanında ədəbi dilin qorunması", "Azərbaycan teleradio məkanında ədəbi dilin qorunması" və "Jurnalist peşəkarlığının artırılması" mövzusunda layihələr elan edilir. Layihələr 6 ay müddətində icra edilir, aparılan monitorinqlər zamanı Azərbaycan media və teleradio məkanının dil problemləri araşdırılır, onun tənzimlənməsi yolları müzakirə edilir, müvafiq təkliflər verilir. Fond, həmçinin ötən illərdə Azərbaycan Mətbuat Şurasının "Ahıl jurnalistlərə qayğı: keçmişimizə ehtiram gələcək üçün təcrübə qaynağımızdır" mövzusunda layihəsinin maliyyələşdirilməsi üçün vəsait ayırıb.

Dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində kütləvi informasiya vasitələrinin potensialından səmərəli istifadə etmək, jurnalistlərin peşəkarlığını artırmaq, onların sosial müdafiəsini gücləndirmək məqsədilə Fond il ərzində 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının yaranmasının ildönümü, 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə fərdi jurnalist yazılarının müsabiqələri təşkil edir.

Bu müsabiqələr, ilk növbədə, sağlam rəqabət mühiti formalaşdıraraq jurnalistlərin aktual mövzular üzrə yazılar hazırlamalarına, onların yaradıcılıq vərdişlərinin, peşəkarlıqlarının yüksəlməsinə, ümumən yeni tədqiqat və araşdırmaların aparılmasına stimul yaradır. Müsabiqələrə təqdim edilən yazıların ilbəil həm məzmun, həm də formaca təkmilləşməsi, jurnalistlərin fərdi yaradıcılıq keyfiyyətlərinin, yazı üslubunun püxtələşməsi keçirilən müsabiqələrin müstəsna əhəmiyyətini bir daha aşkara çıxarır. Fondun fəaliyyət göstərdiyi müddətdə minlərlə jurnalist bu müsabiqələrdə iştirak edərək peşəkarlıqlarını artırmaq və sosial vəziyyətlərini yaxşılaşdırmaq imkanı əldə ediblər.

Ümumiyyətlə, Fond ötən 9 ildə Bakının Qaradağ, Səbail, Nizami, Binəqədi, Nəsimi, Suraxanı rayon icra hakimiyyətləri, habelə Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Mədəniyyət və Turizm, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirlikləri, Dövlət Statistika Komitəsi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Milli Olimpiya Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Müəllif Hüquqları Agentliyi, "Azərbaycan Hava Yolları" QSC, "Azərsu", "Azərişıq" və "Azərilmə" ASC-lərlə birgə fərdi jurnalist yazıları müsabiqələri təşkil edib.

Fond 2017-ci ildə keçirilmiş fərdi jurnalist yazıları müsabiqələrində I yerə layiq görülmüş jurnalistlərin yazılarını toplamaqla "Sözün zirvəsində" adlı kitabın III cildini nəşr etdirib.

*- Fond kütləvi informasiya vasitələri ilə dövlət və cəmiyyət arasında münasibətlərin inkişafı sahəsində hansı işləri görür?*

- Kütləvi informasiya vasitələri ilə dövlət və cəmiyyət arasında münasibətlərin inkişaf etdirilməsi Fondun Nizamnaməsində əksini tapmış mühüm məsələlərdən biridir. Biz ötən illərdə bu məsələni xüsusi diqqət mərkəzində saxlayaraq bir sıra mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə mətbuat-cəmiyyət münasibətlərinin inkişafına xidmət edən tədbirlər keçirmişik.

Fond fəaliyyət göstərdiyi müddətdə media rəhbərlərinin iştirakı ilə Bakının Səbail, Nizami, Suraxanı, Qaradağ, Binəqədi və Yasamal, bölgələrdən - Yevlax, Şəmkir, Zərdab, Qəbələ, Masallı, Quba və İmişli rayonlarında, habelə Gəncə, Lənkəran və Naxçıvan şəhərlərində "Mərkəzi və yerli icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında əməkdaşlığın inkişaf etdirilməsi" və "İnformasiya əldə etmək haqqında" Qanunun şərhi sahəsində region KİV-lərinin maarifləndirilməsi" mövzularında konfranslar təşkil edib.

Bundan əlavə, 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı Fond ötən ilin aprel ayında Lənkəran, sentyabr ayında isə Xaçmaz rayonlarında etnik-dini icmaların və KİV nümayəndələrinin iştirakı ilə "İslam həmrəyliyinin təbliği və təşviqində medianın rolu" mövzusunda regional konfranslar keçirib.

**Ardı Səh. 18**

## Vüqar Səfərli: Azərbaycan mediasının inkişafı dövlətimizin daim diqqət mərkəzindədir

Əvvəli Səh. 17

Yüksək fəallıq şəraitində keçən bu tədbirlərdə həmin rayonların rəhbər vəzifəli şəxsləri, ictimaiyyət nümayəndələri və media nümayəndələri iştirak edərək qarşılıqlı faydalı müzakirələr aparıblar. Belə görüşlər dövlət qurumları ilə kütləvi informasiya vasitələri arasında qarşılıqlı etimadın güclənməsinə və sivil əməkdaşlığın formalaşmasına şərait yaradır. Fond ictimai əhəmiyyətini və müsbət nəticələrini nəzərə alaraq belə tədbirlərin davam etdirilməsini 2018-ci il üzrə fəaliyyət planına daxil edib.

***- Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələri əməkdaşlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncamlardan irəli gələn vəzifələrin icrası barədə də məlumat verməyinizi xahiş edərdik.***

- Şübhəsiz ki, jurnalistlər üçün dövlət büdcəsi hesabına yaşayış binasının inşa edilməsi dünyada analoqu olmayan addımdır və Azərbaycanda mediaya yüksək dövlət qayğısının mövcudluğunu bir daha təsdiqləyir. Xatırlatmaq istərdim ki, ölkə başçısı 2010-cu il iyulun 22-də jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış binasının inşasını nəzərdə tutan Sərəncam imzaladı. Sərəncamla Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Səbail rayonunun Bibiheybət qəsəbəsi ərazisində 17 mərtəbəli, ikigirişli, 156 mənzilli yaşayış binası inşa edilərək 2013-cü il iyulun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə jurnalistlərə təhvil verildi. Ölkə başçısı elə həmin gün - 2013-cü il iyulun 22-də "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" ikinci Sərəncamı imzalamaqla jurnalistlərin bayram ovqatına əlavə sevinc qatdı.

Həmin Sərəncama əsasən, Bakı şəhəri, Səbail rayonu, Bibiheybət qəsəbəsi ərazisində 17 mərtəbəli, üçgirişli, 255 mənzilli yaşayış binasının tikintisi tam başa çatdırıldı. 2017-ci il iyulun 20-də Prezident İlham Əliyevin iştirakı ilə həmin binanın təntənəli açılış mərasimi keçirildi. Eyni zamanda, dövlətimizin başçısının 2017-ci il 19 iyul tarixli "Kütləvi informasiya vasitələri əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı əsasında növbəti - sayca üçüncü binanın təməli qoyuldu və tikinti işlərinə başlanıldı.

***- Fondun 2018-ci il üzrə perspektiv fəaliyyət planları barədə nə demək istərdiniz?***

- 2018-ci il Azərbaycan dövləti və xalqı üçün bir sıra mühüm hadisələrlə zəngin ildir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 10 yanvar tarixli Sərəncamı ilə bu il respublikamızda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilib. Bundan əlavə, dövlətimizin başçısının 2018-ci il 18 yanvar tarixli "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamına əsasən bu günlərdə azərbaycanlıların soyqırımının 100-cü ildönümü qeyd edilir. Bu il, həmçinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 95, Azərbaycan Ordusunun yaranmasının 100 və Bakı şəhərinin Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasının 100 illiyi əlamətdar hadisələr kimi qeyd olunacaq.

Fondun Müşahidə Şurasının iclasında təsdiq edilmiş 2018-ci il üçün Tədbirlər Planında bütün əlamətdar hadisə və yubileylər öz əksini tapıb. Azərbaycanlıların soyqırımının 100, Dağlıq Qarabağda erməni separatizminin başlanmasının 30 illiyi ilə əlaqədar aprel ayında yerli və xarici media nümayəndələrinin Quba Soyqırımı Memorial Kompleksinə ziyarətinin təşkili nəzərdə tutulur. Bundan əlavə, Xalq Cümhuriyyətinin 100-cü ildönümü ilə bağlı Fond qarşıdakı aylarda media nümayəndələrinin Gürcüstanın paytaxtı Tbilisi şəhərinə səfərini təşkil etmək niyyətindədir.

Ölkəmiz hazırda ciddi siyasi hadisə - prezident seçkiləri ərəfəsindədir. Azərbaycan jurnalistləri dövlətimizin gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edən, tamamilə azad, ədalətli və şəffaf seçki prosesinin ayrı-ayrı mərhələləri üzrə görülən işlərin yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasında peşəkarlıq və vətəndaş təəssübkeşliyi nümayiş etdirirlər. Seçki ərəfəsində ölkəmizin beynəlxalq nüfuzuna xələl gətirmək istəyən, xarici ölkələrdə gizlənərək sosial şəbəkələrdə mənəvi-etik, əxlaqi normalara sığmayan formada qərəz, iftira və hədyanlar püskürən mənəviyyatı kasad, təsadüfi şəxslər ifşa olunur, layiqli cavablarını alırlar.

Xüsusi vurğulamaq istərdim ki, Azərbaycanın iqtisadi imkanlarının artdığı, demokratikləşmə prosesinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğu bir zamanda mətbuatın üzərinə düşən vəzifələr də nisbətən fərqli mahiyyət kəsb etməyə başlayır. Yeni mərhələnin siyasi reallıqları mətbuatın cəmiyyətdə təkcə rolunu deyil, həm də sosial öhdəliklərini, məsuliyyətini artırır. Dövlətin yüksək diqqət və qayğısı müqabilində obyektivlik, operativlik, peşəkarlıq, milli təəssübkeşlik və milli problemlərə həssas münasibət Azərbaycan mediasının əsas keyfiyyət göstəricisinə çevrilməkdədir.

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan mediasının inkişafı dövlətimizin daim diqqət mərkəzindədir.

## Hər bir azərbaycanlı əxlaqi və milli dəyərlərimizin qorunmasında fəal olmalıdır

***Bu gün Azərbaycan müstəqil milli dövlət olaraq ciddi uğurların sahibidir. Respublikamızda xalqla iqtidar arasında olan sarsılmaz birlik isə bütün sahələrdə inkişafın sürətli olmasına, yeni nailiyyətlərə yol açmasına əsaslar yaradır. Lakin günümüzün reallığı ondan ibarətdir ki, bəzi anti-Azərbaycan dairələri və anti-milli ünsürlər Azərbaycanın uğurlarına kölgə salmağa, dövlətimizin imicinə ləkə yaxmağa cəhdlər göstərirlər.***



*Bəhruz Quliyev, "Səs" qəzetinin baş redaktoru*

### Hədəf Azərbaycan xalqı, Prezidenti və dövlətidir

Aydındır ki, hər zaman Azərbaycanın uğurlarına sevinməyən və daim təxribatlara əl atan erməni lobbisinin və onun təsiri altında olan təşkilatlar, fərdlər hələ müstəqilliyimizin ilk illərindən ölkəmizin dağıdılmasına, parçalanmasına çalışıblar. Hətta, 2003-cü və 2008-ci illərdə Azərbaycanı ən radikal üsullardan istifadə etməklə xaosa sürükləmək niyyətində olan həmin qüvvələr bu gün də fəaliyyətlərindən kənar qalmırlar. Amma bir fakt dəyişməzdir ki, anti-Azərbaycan qüvvələri ölkəmizə qarşı nə qədər geniş cəbhə açmağa çalışsalar da, xalqın iqtidara, cənab İlham Əliyevə olan dəstəyi hər zaman onların planlarını puç edib.

Elə 11 aprel 2018-ci ildə keçiriləcək Prezident seçkiləri ərəfəsində fəallaşan həmin qüvvələr bu dəfə də xalqın iradəsini və iqtidara olan dəstəyini görərək anti-təbliğatın işə yaramaması, acı məğlubiyyətə düçar olmaları və psixoloji sarsıntı keçirmələri səbəbindən qeyri-etik və əxlaqi normalardan uzaq yollara baş vurmağa başladılar. Xüsusilə də, xarici dairələrin köməyi ilə qurulmuş "Milyarderlər İttifaqı"ndan qidalanan Avropadakı bir neçə azərbaycanlı etik prinsipləri pozaraq Azərbaycan, Prezident, dövlət rəmzləri haqqında təhqiredici ifadələr səsləndirirlər. Təsadüfi deyil ki, təxminən 3 il əvvəl başlanan Prezident İlham Əliyevin şəxsiyyətinə, ailə üzvlərinə, komandasına, vəzifəli şəxslərin ailə üzvlərinə qarşı aparılan çirkin kampaniya anti-Azərbaycan mərkəzlərin fəaliyyəti ilə sinxronluq təşkil edir.

Burada hədəf isə Prezidentin və onun komandasının müsbət imicini zədələməklə, onlara qarşı kütləvi narazılıq ovqatı formalaşdırmaqla, komandadaxili qarşıdurma yaratmaqla ölkədəki mövcud sabitliyi pozmağa nail olmaqdır. Prezidenti köməkçisi Əli Həsənovun sözləri ilə desək, bu işin təşkilatçıları və icraçıları Azərbaycanı suriyalaşdırmaq istəyən "virtual İŞİD"çilərdir və bu, indi həmin qüvvələrin "ağsaqqalları" tərəfindən dolayısı ilə etiraf olunur.

### Məqsəd cəmiyyətdə bölücülük və çaşqınlıq yaratmaqdır

Sirr deyil ki, bu gün demokratik inkişafı prioritet elan etmiş Azərbaycan Respublikasında bütün insan hüquq və azadlıqları, xüsusilə də, söz, mətbuat, ifadə azadlıqları təmin edilir. Eyni zamanda, ölkəmizdə internet azadlığı da yüksək səviyyədə təsbit edilib. Bu mənada təsadüfi deyildir ki, hazırda Azərbaycanda "Facebook", "Twitter", "Youtube", "İnstagram" və digər sosial şəbəkələrdə istifadəçilərin sayı 3 milyona yaxınlaşıb. Məhz, göstərilən amillərdən sui-istifadə edən bir qrup "sosial şəbəkə dəllalı" koordinasiya edilmiş şəkildə müəyyən sosial problemlər üzərində şou səhnələri qurmaqla ictimai fikri mənfi istiqamətdə yönləndirməyə cəhdlər edirlər. Hətta, siyasi problemlərlə bağlı mövzu açan bu anti-milli ünsürlərin bütün danışıqlarında daha kəskin və sərt təhqir, qəzəb və söyüş müşahidə edilməkdədir. Təhqir və söyüş üsulunu siyasi mübarizə yolu kimi müəyyənləşdirən bu insanlar yaşadıqları ölkələrdən müxtəlif təhdidlər səsləndirir, cəmiyyətin yalnış informasiyalar vasitəsilə düşüncəsinin mənfi tonda yüklənməsinə yol açmağa çalışırlar. Burada əsas məqsəd isə Azərbaycan cəmiyyətində bölücülük toxumlarını səpmək, ictimai düşüncədə çaşqınlıqlar yaratmaqdır.

### İctimai qınaq anti-Azərbaycan dairələrinin planlarını puç edir

Əlbəttə ki, bir qrup "virtual İŞİD-şi"nin həyata keçirdiyi qeyri-etik və əxlaqi normalardan kənar kampaniya Azərbaycan cəmiyyəti tərəfindən birmənalı qarşılanmadı və xüsusilə ziyalılar, jurnalistlər anti-milli ünsürlərin bu fəaliyyətini şiddətli şəkildə qınadı, pislədi. Çünki, onların təhqirləri və qeyri-etik addımları qanunla qadağandır və birbaşa insan hüquqlarına ziddir. Məhz, cənab Əli Həsənovun bütün bu məsələlərlə bağlı çıxış və çağırışları kütləvi ictimai qınağı təmin etdi. Bu çağırışlara qoşulmuş cəmiyyətimiz isə ölkəmizdə sabitliyin inkişafını istəməyən, Azərbaycana maraqları olan qüvvələrin çirkin niyyətlərini həyata keçirmələrinə imkan vermir.

### Qeyri-etik və əxlaqi dəyərləri istisna edən bu cür əməllərin qarşısını necə almalıyıq?

Bu gün bir qrup "sosial şəbəkə dəllalı"nın qeyri-etik və əxlaqi dəyərləri istisna edən əməllərinə qarşı kütləvi ictimai qınağın formalaşdığı və ictimai müzakirələrin aparıldığı bir zamanda ziyalıları düşündürən daha bir məsələ də var. Bu, sərhədsiz açıq platforma olan sosial şəbəkələrdə qeyri-etik fəaliyyətin qarşısının alınması üçün hansı addımların atılması ilə bağlıdır.

Təcrübədən bəllidir ki, bir sıra Qərb ölkələrində daxili qarşıdurmalar və iğtişaşlar zamanı nəinki sosial şəbəkələrə giriş məhdudlaşdırılır, hətta internetə belə qadağalar qoyulur. Məsələn, 2011-ci ildə Böyük Britaniyada baş vermiş iğtişaşlar zamanı sosial şəbəkələrdən istifadə məhdudlaşdırıldı. Bu addım isə "zərərli çağırışların qarşısını almaq" məqsədi daşıdığı bildirildi. Həmçinin, bunu biz ABŞ-da, Türkiyədə, Ermənistanda, Misirdə, Rusiyada, eləcə də, Avropanın bir çox böyük ölkələrində sosial şəbəkələrə və internetə zaman-zaman məhdudiyyətlər qoyulduğunu müşahidə etmişik. Lakin Azərbaycanda yuxarıda göstərilən ölkələrdən fərqli olaraq nəinki internetə, hətta sosial şəbəkələrə giriş heç bir halda qadağan edilməyəcək. Bunu dövlət rəsmiləri dəfələrlə diqqətə çatdırıblar. Çünki, Azərbaycanda siyasi hakimiyyət insanların hüquq və azadlıqlarının tam təmin edilməsini ən ali prioritet hesab edir.

Digər tərəfdən, verilən təkliflərin sırasında qeyd edilir ki, siyasi mübarizədə təhqir və söyüşlərdən istifadənin qarşısı hüquqi yollarla alınmalıdır. Həmçinin, Xarici İşlər Nazirliyi Azərbaycana qarşı qeyri-etik üsullarla çirkin kampaniya aparan anti-milli ünsürlərin yerləşdikləri dövlətlərin aidiyyəti qurumlarına müraciət edərək lazımi tədbirlərin görülməsini təmin etməlidir. Eyni zamanda, təhqir və söyüş kampaniyasına qarşı Azərbaycan cəmiyyətinin hər bir üzvü ən sərt və kəskin qınaq nümayiş etdirməlidir.

Azərbaycandakı xalq-iqtidar birliyini sarsıtmaq, insanlar arasında çaşqınlıq yaratmaq məqsədi daşıyan bu çirkin kampaniyaya qarşı mübarizədə bir çox üsulların və yolların olmasına baxmayaraq hər bir azərbaycanlı əxlaqi və milli dəyərlərimizin qorunmasında, Prezidentimizin, dövlət atributlarımızın, dövlətçiliyimizin müdafiəsində fəal olmalıdır.

## Raket və artilleriya bölmələri təlimlərinin döyüş atışlı mərhələsi icra olunub

***Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq, raket və artilleriya birləşmələrinin və bölmələrinin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə cəbhə bölgəsində keçirilən təlimlərində döyüş atışları icra olunub.***



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyət qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Cənab İlham Əliyevə səs vermək inkişafı, rifahı, yüksəlişi və tərəqqini seçməkdir

*Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının İdarə heyətinin sədri Səkinə Babayevanın yap.org.az-a müsahibəsi*

***- Səkinə xanım, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Azərbaycan seçkilərə mühüm nailiyyətlərin fonunda gedir. Ölkəmizin ötən müddət ərzində siyasi və iqtisadi müstəvidə əldə etdiyi nailiyyətlər barədə fikirləriniz nədən ibarətdir?***

- Müasir müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə asan yolla çatmayıb. Azərbaycanın müstəqillik əldə etdikdən sonra tarixin səhnəsində özünəməxsus yer tutmasını, öz müstəqilliyini qoruyub saxlamasını təmin edən amil məhz lider faktoru olmuşdur. 1991-ci ildə müstəqillik əldə etdikdən sonra çoxsaylı siyasi, iqtisadi, humanitar və digər xarakterli problemlərlə üzləşən Azərbaycanın tənəzzüldən xilas olaraq tərəqqi yoluna çıxması Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri, uzaqgörən siyasəti sayəsində mümkün olub. Tarix şəxsiyyətləri xalqı qarşısında xidmətlərinə görə dəyərləndirir. Heydər Əliyevin fəaliyyətinin əsas qayəsini məhz xalq xidmət təşkil edib. Onun Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biri məhz ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılması olub. Öz gücünü xalqın dəstəyindən alan və milli siyasi iradəni təmsil edən Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyinin gücləndirilməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib. Partiyamız Ulu öndər Heydər Əliyevin ideyaları əsasında irəliləyərək zəngin və şərəfli yol keçib, milli inkişafa xidmət edən bu siyasətini bu gün də uğurla davam etdirir. Partiyamızın Sədri, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və səmərəli siyasi kurs, sistemli və kompleks tədbirlər Azərbaycanın inkişafının təminatçısıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".

Hər bir liderin - ölkə başçısının fəaliyyətinin nəticələri xalqın rifahı və ölkənin inkişaf səviyyəsi ilə bağlı qazanılan nailiyyətlər əsasında qiymətləndirilir. Prezident İlham Əliyevin fəaliyyətinin əsasında duran ali məqsəd - prioritet istiqamət vətəndaşların rifah halının yaxşılaşdırılması,



iqtisadi inkişafın güclü sosial siyasətlə tamamlanmasıdır. Ölkə başçısının sosial dövlət fəlsəfəsi hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsidir. Sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir. Təsadüfi deyil ki, bu istiqamətdə ötən müddət ərzində ölkənin inkişafı ilə bağlı Dövlət proqramları uğurla icra olunub, son 14 ildə respublika üzrə təxminən 1,9 milyon yeni iş yeri yaradılıb, yoxsulluq 50 faizdən 5 faizədək azaldılıb, işsizlik isə 5 faizdir. Prezident İlham Əliyev həmçinin qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə böyük diqqət və qayğı göstərir. Son 14 ildə qəbul edilən müvafiq Dövlət proqramları çərçivəsində qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına və digər sosial ehtiyaclarının ödənilməsinə 6,2 milyard manatdan çox vəsait sərf olunub. 50 min ailə və ya 250 min nəfərdən çox qaçqın və məcburi köçkün yeni mənzillərlə təmin olunub. Bütün bunlar cənab İlham Əliyevin rəhbərliyi ilə səmərəli və məqsədyönlü sosial siyasətin həyata keçirildiyini göstərir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, sosial siyasət Azərbaycanın dövlət siyasətinin ayrılmaz hissəsidir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır".

Hələ 2003-cü ildə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən Azərbaycan Prezidenti cənab İlham Əliyev verdiyi bütün vədlərə əməl edərək xalqın rifah halının yaxşılaşmasına, dövlətimizin qüdrətinin artmasına, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına nail oldu, ölkəmizin qarşısında yeni inkişaf üfüqləri açıldı. İndi Azərbaycanın perspektivi parlaq - gələcəyi işıqlıdır, xalqın sabaha inamı güclüdür, ölkəmiz inkişaf yolunda gələcəyə doğru əmin addımlarla irəliləyir.

***- Azərbaycanda biznes mühitinin inkişafına və sahibkarların fəaliyyətinə dövlət tərəfindən böyük dəstək verilir. Bunun əsasında duran amil isə dövlət başçısının güclü siyasi iradəsidir. Bununla bağlı nə deyə bilərsiniz?***

- Ümummilli liderimiz Heydər Əliyev qeyd edib ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət iqtisadiyyatın dayanıqlı inkişafını təmin edib və bütün sahələrdə qazanılan uğurların təməlində bu amil dayanır. Ötən müddət ərzində strateji valyuta ehtiyatlarının 23 dəfədən çox artaraq 44 milyard dollara çatması həyata keçirilən iqtisadi siyasətin səmərəli nəticələridir.

Azərbaycanda əlverişli biznes mühitinin yaradılması, sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi, sahibkarlıq mühitinin davamlı şəkildə yaxşılaşdırılması, sahibkarlığın maliyyə təminatının artırılması və digər amillər qeyri-neft sektorunun və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına mühüm töhfələr verib. Prezident İlham Əliyev şəxsən sahibkarlarla müntəzəm görüşlər keçirir, sahibkarlıq fəaliyyəti sahəsində bir çox müəssisələrin açılışında iştirak edir. Sahibkarlar isə onların fəaliyyətinə dövlət tərəfindən dəstəyin göstərilməsini yüksək qiymətləndirirlər. Bu isə sahibkarların sosial məsuliyyətinin artırılmasına təkan verir.

İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 34600-dən çox sahibkarın ümumi dəyəri 4,5 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsinə 2,1 milyard manatdan artıq güzəştli kredit verilib. Bu, yeni müəssisələrin və iş yerlərinin yaradılması, iqtisadiyyatda özəl sektorun payının artması baxımından böyük əhəmiyyətə malikdir. Hazırda özəl bölmənin ümumi daxili məhsuldakı payı 80 faizdən çoxdur, məşğulluqda isə 75 faizi ötüb. Bundan başqa, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" müvafiq Sərəncamına uyğun olaraq görülən işlər özəl sektorun inkişafına təkan verib. Ölkəmizdə sahibkarlıq subyektlərində yoxlamaların dayandırılmasının müddətinin 2021-ci ilədək uzadılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilməsi, lisenziyaların müddətsiz müəyyən edilməsi, dövlət rüsumunun məbləğinin Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılması, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinin təmin olunması bu sahədə reallaşdırılan əhəmiyyətli tədbirlər sırasındadır. Eyni zamanda, "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"nin qəbul edilməsi ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafı üçün strateji əhəmiyyətli addımdır.

Sadalananlarla yanaşı, yerli və xarici iş adamlarının ölkə daxilində uğurla fəaliyyət göstərməsi investisiyaların artmasına da təkan verib. Son 15 ildə daxili və xarici mənbələrdən respublikamıza 231 milyard dollar həcmində investisiyalar yönəldilib. Prezident İlham Əliyev "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır" deyib. Həqiqətən də, bu gün Azərbaycan nümunəsi və təcrübəsi bu fikiri təsdiq edir. Dövlətin xüsusi diqqəti və dəstəyi sayəsində sahibkarlığın inkişafı üçün əlverişli mühit formalaşıb, bu isə nəticə etibarilə, Azərbaycanın tərəqqisi üçün müstəsna əhəmiyyətə malikdir.

***- Səkinə xanım, Azərbaycanda qadın sahibkarlar əsasən hansı sahələrdə fəaliyyət göstərirlər, qeyri-neft sektorunun inkişafına istiqamətində hansı işlər görür və bu prosesə nə kimi töhfələr verirlər?***

- Azərbaycanda qadın sahibkarlar, əsas etibarilə, müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Bu, daha çox qeyri-neft sektorunu əhatə edir. Son illərin tendensiyaları göstərir ki, sahibkarlıqla məşğul olan qadınların sayı əhəmiyyətli dərəcədə artıb. Azərbaycan qadınları səmərəli fəaliyyətləri, o cümlədən sahibkarlıq fəaliyyəti ilə ölkənin iqtisadi həyatına öz töhfələrini verirlər.

Bir məqamı xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm. Dövlət başçısının müvafiq Fərmanı ilə təsdiq edilmiş kiçik və orta sahibkarlıq üzrə Strateji Yol Xəritəsinin icrası çərçivəsində Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının yaradılması qadın sahibkarlığının inkişafında, qadın sahibkarların fəaliyyətinin əlaqələndirilməsində və əməkdaşlığının genişləndirilməsində mühüm əhəmiyyətə malikdir. Qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, ölkənin ixrac imkanlarının genişləndirilməsi, qadınların sahibkarlıq sahəsində fəallığının artırılması baxımından xüsusi önəm daşıyır. İqtisadiyyatın bütün sahələrində qadınlarımızın böyük əməyi var. Azərbaycan Sahibkar Qadınlar Assosiasiyası regionlarda pambıqçılığın inkişaf etdirilməsi, yeni zavod və fabriklərin yaradılması, onların məhsullarının xaricə ixrac olunması, qadınlar arasında savadlı və təcrübəli mütəxəssislərin hazırlanması istiqamətində konkret vəzifələrin yerinə yetirilməsi üçün öz fəaliyyətini uğurla davam etdirir.

***- Sizcə, seçkilərdə Azərbaycan sahibkarlarının seçimi necə olacaq?***

- Prezident İlham Əliyev təkcə Yeni Azərbaycan Partiyasının yox, bütövlükdə xalqın namizədidir. Çünki cənab İlham Əliyev Azərbaycan xalqının alternativsiz lideridir və cəmiyyət yekdilliklə Onun siyasətini dəstəkləyir. İctimai rəyin öyrənilməsi üzrə müxtəlif sosioloji tədqiqat mərkəzlərinin Azərbaycan əhalisi arasında keçirdiyi sorğular da göstərir ki, Prezident İlham Əliyevin fəaliyyəti cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan cəmiyyəti Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin fonunda əldə edilmiş möhkəm ictimai-siyasi sabitliyi və sürətli iqtisadi inkişafı gələcək tərəqqinin əsası kimi dəyərləndirir. Bu isə Azərbaycanda vətəndaşların dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən siyasətə mütləq inam və etimad bəslədiyini göstərir.

Əminliklə söyləmək olar ki, cənab İlham Əliyevin yenidən prezident seçilməsi ölkədə həyata keçirilən genişmiqyaslı islahatların və inkişaf siyasətinin uğurla davam etdirilməsinə imkan yaradacaq. Nəzərə alsaq ki, Azərbaycan bu günə qədər Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli və uğurlu inkişaf yolu keçib, bu siyasətin davam etdirilməsi ölkəmizin yeni nailiyyətlər əldə etməsinə, insanların rifah halının daha da yaxşılaşmasına, beynəlxalq nüfuzunun artmasına səbəb olacaq. Bu səbəbdən Azərbaycan cəmiyyətinin digər nümayəndələri kimi sahibkarlar da bu siyasətin davamlı olmasını istəyir, cənab İlham Əliyevi dəstəklədiyini birmənalı şəkildə ifadə edirlər. Düşünürəm ki, cənab İlham Əliyevə səs vermək inkişafı, rifahı, yüksəlişi və tərəqqini seçməkdir. Azərbaycan sahibkarlarının seçimi məhz cənab İlham Əliyev olacaq!

# Xalq inkişaf və sabitlik naminə cənab İlham Əliyevə səs verir

*Milli Məclisin deputatı Elman Nəsirovun yap.org.az-a müsahibəsi*

***- Elman müəllim, aprelin 11-də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Seçkiöncəsi mühiti necə qiymətləndirirsiniz?***

- Azərbaycan çox mühüm bir siyasi kampaniya - prezident seçkiləri ərəfəsindədir. Seçkiöncəsi mühit sabitdir, bütün seçicilərə bərabər şərait və imkanlar yaradılıb. Təbliğat-təşviqat mərhələsi çərçivəsində keçirdiyimiz görüşlərdə yüksək seçici fəallığı müşahidə edilir və seçicilər Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevi dəstəklədiklərini birmənalı şəkildə ifadə edirlər.

Ümummilli lider Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə cənab İlham Əliyev haqqında bildirirdi ki, "mən Ona Özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ötən zaman bu inam və ümidin özünü doğrultduğunu göstərdi. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan sürətli inkişaf yolu keçdi, beynəlxalq mövqeyi möhkəmləndi, Cənubi Qafqazın lider ölkəsinə çevrildi. Bütün bu nailiyyətlər Prezident İlham Əliyevə ümumxalq məhəbbətinin formalaşmasını təmin etdi. Əlbəttə, bu ümumxalq məhəbbətinin əsasında dayanan 3 başlıca amili xüsusi olaraq qeyd etmək lazımdır. Bunlardan birincisi, Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirməsidir. İkincisi, ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyin və etibarlı təhlükəsizlik mühitinin yaradılmasıdır. Bu gün regional və beynəlxalq miqyasda gərginliklər, müharibələr, qanlı toqquşmalar baş verdiyi halda, Azərbaycan sabit və təhlükəsiz ölkə olması ilə diqqəti cəlb edir. Üçüncüsü isə, sabitlik və təhlükəsizliyin də əsasında dayanan amil olan dinamik iqtisadi inkişafdır. Məlumdur ki, Azərbaycan son 15 ildə dinamik inkişaf yolu keçib, iqtisadiyyat 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə artıb. Kənd təsərrüfatı məhsulu istehsalında 1,7, qeyri-neft ixracında isə 4,1 dəfə artım olub. Strateji valyuta ehtiyatlarımız 1,8 milyarddan 44 milyarda yüksəlib, ölkəmizə 231 milyard həcmində sərmayə qoyulub. Bəhs olunan dövr ərzində infrastruktur quruculuğunun uğurla davam etdirilib, regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər səmərəli nəticələr verib. Respublika üzrə 2500 meqavat gücündə 30 yeni elektrik stansiyası tikilib. Eyni zamanda, 2004-cü ildən bəri respublikamızda 12 min 300 kilometr yol çəkilib, 443 körpü tikilib. Respublika ərazisində qazlaşdırma sahəsində aparılan genişmiqyaslı işlər nəticəsində ölkəmizdə əhalinin qazla təchizatı 93 faizə çatdırılıb. Əhalinin içməli su ilə təminatı 26 faizdən 67 faizə çatdırılıb, şəhərlərdə bu göstərici 81, regionlarda isə 43 faizdir.



Bütün bu göstəricilər Azərbaycanın tərəqqisini, ötən müddət ərzində keçdiyi dinamik inkişaf yolunu əyani surətdə nümayiş etdirir. Azərbaycan xalqı bütün bu uğurları yüksək qiymətləndirir. Ona görə də xalqımızın mütləq əksəriyyəti cənab İlham Əliyevi yekdilliklə dəstəkləyir.

***- Ötən müddət ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən praqmatik xarici siyasət kursunun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi möhkəmlənib, ölkəmizdə dünyada etibarlı tərəfdaş kimi tanınır. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs - həm daxili, həm də xarici siyasət müstəqilliyi ilə fərqlənir. Azərbaycanın iqtisadi müstəqilliyi onun siyasi müstəqilliyini şərtləndirir. Ölkəmiz heç bir dövlətdən, beynəlxalq təşkilatdan, eləcə də maliyyə qurumundan asılı deyil, müstəqil daxili və xarici siyasət həyata keçirir. Buna görə də Azərbaycan dövlətinə və Prezidentinə dünya miqyasında yüksək etimad və etibar mövcuddur. Azərbaycan bütün prinsipial məsələlərlə bağlı öz səsini ucaldır, ədalətli mövqe nümayiş etdirir, beynəlxalq sülh və təhlükəsizliyə mühüm töhfələr verir. Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, nüfuzunun artmasını göstərən ən mühüm faktlardan biri ölkəmizin 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən səmərəli xarici siyasət nəticəsində ölkəmiz ikitərəfli münasibətlərini uğurla inkişaf etdirir. İkitərəfli formatda əlaqələrimiz olan dövlətlərlə bizim üçtərəfli, dördtərəfli münasibətlərimiz də yaranır, onun coğrafiyası genişlənir və bu formatın çox böyük perspektivi var.

Uğurlu daxili və xarici siyasət həmçinin Azərbaycanın beynəlxalq reytinqinin artmasını şərtləndirib. Təsadüfi deyil ki, Davos İqtisadi Forumu və digər nüfuzlu beynəlxalq qurumlar öz hesabatlarında Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksək dəyərləndirirlər. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda 12 indikatordan doqquz indikator üzrə mövqeyini yaxşılaşdıran ölkəmiz reytinq cədvəlində daha iki pillə irəliləyərək 35-ci pillədə qərarlaşıb və MDB məkanında liderliyini qoruyub saxlayıb. Digər tərəfdən, Azərbaycan Dünya İqtisadi Forumunun ənənəvi inklüziv inkişaf indeksində inkişaf edən ölkələr sırasında üçüncü yeri tutub. Bütün bunlar Azərbaycanın inkişafının, uğurlu daxili və xarici siyasət kursunun, dünya iqtisadiyyatına uğurla inteqrasiya etməsinin nəticəsidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasətin mühüm prioritetlərindən birini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli təşkil edir. Azərbaycanın Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində mövqeyi möhkəmlənib, hərbi, siyasi və diplomatik üstünlüyü təmin olunub. Siyasi üstünlüyümüz ondan ibarətdir ki, heç bir dövlət və beynəlxalq təşkilat Ermənistanın işğalçılıq siyasətini qəbul etmir, bütün dövlətlər və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın qeyri-konstruktiv mövqeyi və cəhdləri heç bir nəticə vermir. Diplomatik üstünlüyümüzü göstərən ən mühüm faktlardan biri isə qondarma DQR-də keçirilən qanunsuz referendumun heç bir dövlət tərəfindən tanınmaması, Dağlıq Qarabağın tarixi və hüquqi nöqteyi-nəzərdən Azərbaycanın ərazisi olmasının nümayiş etdirilməsi oldu. 2016-cı ilin aprel döyüşləri isə Azərbaycanın hərbi üstünlüyünü nümayiş etdirdi. Bu döyüşlər, həmçinin Azərbaycan əsgərinin döyüş və vətənpərvərlik ruhunun yüksək səviyyədə olduğunu göstərdi. Aprel döyüşlərindən sonra Serj Sarkisyan 3 absurd ilkin şərtlər irəli sürdü və danışıqlara getməyəcəyini bəyan etdi. Lakin Azərbaycanın siyasi və diplomatik üstünlüyünün fonunda 2017-ci ilin oktyabr ayında Sarkisyan ilkin şərt irəli sürmədən Cenevrədə danışıqlara gəldi.

Bütün bunlar onu göstərir ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində qətiyyətli siyasət həyata keçirir, prinsipial mövqe nümayiş etdirir. Bu isə işğal altında olan torpaqlarımızın azad ediləcəyinə dair əminlik yaradır. Çünki xalq öz Prezidentini, Onun həyata keçirdiyi siyasəti dəstəkləyir və xalq-hakimiyyət birliyinin olduğu yerdə qələbə labüddür!

***- Elman müəllim, prezident seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində seçicilərlə görüşlərdə iştirak edirsiniz. İnsanların seçki əhval-ruhiyyəsi necədir?***

- Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində Göyçay və Kürdəmirdə seçicilərlə görüşlərdə iştirak edirik. Görüşlərdə insanlarda yüksək seçki əhval-ruhiyyəsi hiss edilir. Seçicilər yekdilliklə cənab İlham Əliyevi dəstəklədiklərini bildirirlər. Seçicilər Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə əldə edilən nailiyyətləri yüksək qiymətləndirirlər. Onlar inkişaf və tərəqqinin davamlı olması, yeni nailiyyətlərin əldə edilməsi üçün cənab İlham Əliyevə səs verəcəklərini bildirirlər. Həqiqətən də, xalq inkişaf və sabitlik üçün öz Prezidentinə - cənab İlham Əliyevə səs verməlidir.






# Pirallahılı qadınlar "İlhamla irəli" deyir!

*YAP Pirallahı rayon təşkilatı qadınlar şurasının təşkilatçılığı ilə qadın seçicilərlə görüş keçirilib*

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri prezident seçkisi ilə bağlı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirirlər. Partiyanın Sədri, Azərbaycan Respublikası prezidentliyinə namizəd İlham Əliyevin seçki kampaniyası çərçivəsində növbəti görüş Pirallahı rayon qadınları ilə keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Pirallahı rayon şöbəsinin sədri Hikmət Şikarov, ilk öncə, son 15 ildə Prezident İlham Əliyevin apardığı siyasəti nəticəsində qazanılan uğurlardan danışıb. Dövlətimiz tərəfindən bütün təbəqələrdən olan insanlara xüsusi diqqət və qayğı göstərildiyini, onların maddi-rifah halının yaxşılaşdırılması, onlara normal həyat şəraitinin təmin edilməsi istiqamətində müvafiq tədbirlərin görüldüyünü söyləyib.***

Tədbirdə çıxış edən YAP Pirallahı rayon təşkilatının qadınlar şurasının sədri Kəmalə Mustafayeva Azərbaycan qadınlarının ictimai-siyasi həyatdakı fəal rolu barədə məlumat verərək, bildirib ki, Azərbaycan qadını Azərbaycan dövlətçiliyinin güclənməsində, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında mühüm rol oynayıb. Çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru Ədalət Muradov bu gün Prezident İlham Əliyev tərəfindən Azərbaycanda qadınların cəmiyyətdə və dövlət idarəçiliyində rolunun artmasına yönəlmiş siyasətin uğurla həyata keçirildiyini vurğulayıb.

Görüşdə çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, bu gün Azərbaycan qadını kişilərlə çiyin-çiyinə çalışır, qurub-yaradır, dəhşətli müharibənin vurduğu yaralara, zərbələrə dəyanətlə, ləyaqətlə dözür, vətən, el-oba, doğma ocaq həsrəti çəkir, lakin yeni əsr, yeni zamanla üz-üzə durduğu indiki dövrün mənə və məsuliyyətini, mahiyyət və məqsədini unutmur. Çünki bu gün yaşadıqları ölkədə Azərbaycan qadınları üçün tariximizin heç bir mərhələsində görünməmiş imkan - qurmaq, idarə etmək, özünü sübuta yetirmək və təsdiq etmək kimi şərait yaranmışdır.

Görüşdə rayon ziyalıları adından çıxış edən Həcər Ramazanova və Sevda Alxasova söyləyiblər ki, hər zaman olduğu kimi, bu dəfə də Pirallahı rayon qadınları Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevi dəstəkləyirlər və alternativsiz liderlərinə dəstəklərini səsvermə məntəqələrində fəallıqları ilə isbatlayacaqlar.

Daha sonra görüşdə çıxış edən YAP Pirallahı rayon təşkilatının məsul əməkdaşı Günel Məmmədova Azərbaycanda qadınların ictimai-siyasi fəallığının təmin edilməsi üçün hər cür şəraitin yaradıldığından bəhs edib. Bildirib ki, Pirallahı qadınları qarşıdan gələn prezident seçkilərində ölkəmizin dinamik inkişafını təmin edən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycana beynəlxalq aləmdə böyük nüfuz qazandıran Cənab İlham Əliyevin namizədliyini dəstəkləyir və cəmiyyətimizin bütün üzvlərini Onun ətrafında sıx birləşməyə çağırırlar.

**Rövşən NURƏDDİNOĞLU**

# Böyük hərbi gücə malik Azərbaycan işğal altında qalan digər əraziləri də azad edəcək

*Aprel döyüşləri ordumuzun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu, Azərbaycan əsgərinin qəhrəman obrazını nümayiş etdirdi*





***2016-cı il aprelin 1-dən 2-nə keçən gecə düşmənin kəşfiyyat-təxribat qrupu Talış istiqamətində qəflətən mövqelərimizə soxulmağa cəhd etdi. Lakin Azərbaycan əsgərinin ayıq-sayıqlığı nəticəsində, düşmənin kəşfiyyat qruplarının qarşısı alındı və ermənilər qaçmağa məcbur oldular. Ermənilər bütün silahlarını və texnikalarını qoyub qaçırdılar. Bu da, onu göstərirdi ki, düşmən əsgəri öz torpağında xidmət etmir və ona görə də, onun qədrini heç vaxt bilməz. Döyüşlərdə düşmən qruplarının, kəşfiyyat dəstələrinin qarşısı layiqincə alındı və onların xeyli canlı qüvvə və texnikası məhv edildi. Talış-Madagiz istiqamətində bir çox strateji yüksəkliklər, o cümlədən, Lələtəpə ələ keçirildi.***

Göründüyü kimi, aprel hadisələri Azərbaycanın hərb müstəvisində də işğalçı Ermənistanla müqayisədə kifayət qədər böyük üstünlüyə malik olduğunu faktiki olaraq, təsdiqlədi. Digər tərəfdən, işğal altında olan ərazilərin bir qismi yenə aprel döyüşləri nəticəsində yağı tapdağından azad oldu. Məhz qeyd edilənlərin nəticəsidir ki, sözügedən döyüşlər Ermənistanda indinin özündə də böyük qorxu ilə xatırlanır.

Ermənistanda ölkədə açıq etiraf olunur ki, iki ili tamam olan aprel döyüşlərinin yenidən təkrarlanma ehtimalı yüksəkdir və bu, baş verərsə, kifayət qədər hərbi gücə malik Azərbaycan işğal altında qalan digər ərazilərdə azad edəcək. Belə vəziyyət həm də ölkəmizin Ermənistan üzərində mənəvi-psixoloji qələbəsinin konkret təzahürüdür. Aprel döyüşləri ordumuzun gücünü, hər an torpaqları azad etmək iqtidarında olduğunu və Azərbaycan əsgərinin qəhrəman obrazını nümayiş etdirdi. Bu döyüşlər zamanı Azərbaycan Ordusu Ermənistan silahlı birləşmələrinin təxribatlarına tutarlı cavab verərək və nəyə qadir olduğunu göstərdi. Düşmənə aydın oldu ki, Azərbaycan Ordusu döyüş qabiliyyəti, vətənpərvərlik ruhu və maddi-texniki təminat baxımından dünya miqyasında güclü ordular sırasındadır. Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə köçmək istəyən vətəndaşlarımızın sayının artması ermənilərin dünya ictimaiyyəti qarşısında "azərbaycanlılar öz doğma torpaqlarına qayıtmaq istəmir" kimi yalanlarını da ifşa etdi. Dünya ictimaiyyəti bu mifin Ermənistanın cinayətkar hakimiyyəti tərəfindən yaradıldığının, Azərbaycan gənclərinin öz torpaqlarını unutmadıqlarının və hər an döyüşə hazır olduqlarının şahidinə çevrildi.

Aprel döyüşləri, demək olar ki, Ermənistanın ideoloji əsaslarını dağıtdı, Ermənistan rəhbərliyi aprel döyüşləri zamanı özlərini tamamilə ifşa etdi. Onlar həm döyüş meydanında acı məğlubiyyətə uğradılar, həm də siyasi meydanda heç bir dəstək almadılar. Ermənistan iqtidarından fərqli olaraq, bu ölkədə əhalinin böyük əksəriyyəti, o cümlədən, müxalif qüvvələr, açıq etiraf edirlər ki, aprel döyüşləri Dağlıq Qarabağ münaqişəsi ətrafında status-kvonun dəyişməsinin yeni başlanğıc nöqtəsi olub. Eyni zamanda, məhz aprel döyüşləri ilə ərazilərin bir qismini işğaldan azad edən Azərbaycan düşmənin hərəkətlərini izləmək və daha böyük məsafədə ona zərbə vurmaq üçün əlverişli mövqelərin sahibinə çevrilib. Elə, bu səbəbdəndir ki, ermənilərin əsas istəyi Azərbaycanla yeni mümkün hərbi toqquşmaların qarşısının alınmasıdır. Amma bu da çətin ki, düşmənə uzun müddət kömək etsin. Çünki Azərbaycan işğal altındakı ərazilərini, lazım gələrsə, güc yolu ilə azad edilməsi hüququndan istənilən vaxt istifadə edə biləcəyini ən yüksək səviyyədə bildirib. Azərbaycan Prezidenti İlham Əliyev bu xüsusda düşmənə konkret mesajlar da verib: "Aprel döyüşlərində Azərbaycan Ordusu bu döyüşlərdə peşəkarlıq, qəhrəmanlıq, məharət göstərmişdir. Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. İşğal edilmiş torpaqlarda, Dağlıq Qarabağda elə bir hərbi hədəf yoxdur ki, bu gün biz onu məhv edə bilməyək. Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır".

Adları çəkilən bu yerlərdə tezliklə Azərbaycan bayrağının dalğalanacağı da şübhəsizdir. Çünki 2016-cı ilin aprelində cəmi bir neçə gün davam edən döyüşlərdə düşmənin ağır məğlubiyyətə uğradılması Azərbaycan Ordusunun gücünün sübutu olmaqla yanaşı, düşmənin miskinliyinin, ağır vəziyyətdə olmasının da göstəricisidir. Aprel döyüşlərindən sonra azad olunan torpaqlarımıza səfər edərək, əsgərlərin yaşayış şəraiti ilə tanışlıq zamanı görünən mənzərə Ermənistan hərbçilərinin olduqca ağır, acınacaqlı şəraitdə xidmət etdiklərini ortaya çıxardı. Təkcə bu fakt Ermənistanın Azərbaycan ilə müharibə etməkdə gücsüz olduğunu açıq nümayiş etdirir. Aprel döyüşlərinə qədər, ermənilər iddia edirdilər ki, işğal olunmuş torpaqlarda yaratdıqları "Ohanyan xətti" sarsılmazdır və keçilməsi mümkün deyil." Ancaq Azərbaycan Silahlı Qüvvələri cəmi bir neçə saata bu mifi darmadağın etdi. Düşmən diversiyasının qarşısını alan ordumuzun əks-hücumu zamanı Ermənistan ordusunun müdafiə xətti bir neçə saat ərzində dağıdıldı.

Aprel döyüşlərinin digər mühüm nəticəsi Azərbaycan və Ermənistan cəmiyyətləri arasında üzə çıxan fərqlə bağlıdır. Məlumdur ki, həmin hadisələrdən sonra ölkəmizdə müvafiq dövlət qurumları və ölkə ictimaiyyəti aprel döyüşləri zamanı ən yüksək səviyyədə həmrəylik nümayiş etdirdi. Şəhidlərimiz yüksək ehtiramla son mənzilə yola salındı. Halbuki çoxsaylı itkilərini cəmiyyətdən gizlədən Ermənistan hakimiyyəti bunun əksini etdi. Ermənistan rəhbərliyi cəbhədəki ağır itkilərin sayını və cəsədləri gizlətməklə öz vətəndaşına və hərbçisinə zərrə qədər də hörmət etmədiyini göstərdi. Azərbaycanda isə şəhidlərin dəfnində əsl izdiham yaşandı, xalqımız onların ruhuna ən yüksək hörmət və ehtiram nümayiş etdirdi. Erməni cəmiyyəti bir daha gördü ki, Azərbaycan xalqı Vətən torpağı uğrunda şəhid verməyi ölümsüzlük və qəhrəmanlıq hesab edir.

Aprel qələbəsi Azərbaycanda hakimiyyət və xalq arasında sıx birliyi göstərdi. Bir daha təsdiq etdi ki, təcavüzə son qoyulması məsələsində Azərbaycan xalqının və dövlətin mövqeyi eynidir. Azərbaycan vətəndaşları dövlətin bu istiqamətdə siyasətini, birmənalı olaraq, müdafiə edirlər və onun yanındadırlar. Azərbaycanın qələbəsi Ermənistanda olan ümumi böhranı daha da dərinləşdirdi. Erməni əsgərinin anası oğlunun başqa dövlətin ərazisində nə üçün öldüyünü Sarkisyan rejimindən daha çox soruşmağa başladı. Azərbaycanın kiçik bir əks-hücumu nəticəsində, nəinki işğal edilmiş ərazilərdən, o cümlədən, Ermənistandan adamlar qaçmağa başladılar. Aprel döyüşlərində xəsarət alanlara da münasibət fərqlidir. Ölkəmizdə bu qəbildən olan insanlara yüksək ehtiram olduğu halda, Ermənistanda bunun tamam əksidir. Elə belə vaxtda məlum olub ki, 2016-cı ilin aprel döyüşlərində Azərbaycan əsgərindən layiqli cavabını alan erməni döyüşçüləri dövlətdən yardım ala bilməmələrindən gileylənirlər. Üstündən uzun müddət keçməsinə baxmayaraq, aprel döyüşlərinin iştirakçısı olan erməni hərbçilərinin üzləşdikləri çətinliklər və problemlərlə bağlı, mütəmadi olaraq, mətbuatda məlumatlar yayılır.

Bütün bunlar göstərir ki, həqiqətən, aprel döyüşləri işğalçı ölkədə böyük qorxuya səbəb olub. Çünki ermənilər artıq Azərbaycanın ərazilərini azad etməsində nə qədər qətiyyətli olduğunu bir daha görür. Ermənistana açıq mesajlar verilir ki, Dağlıq Qarabağ münaqişəsinin həlli tezləşdirilməlidir. Əks halda, işğalçı ölkə Azərbaycan Ordusunun yeni və sərt zərbələrinə tuş gələcək. Bu isə ərazilərimizdə olan işğalçı ölkə üçün əsl dəhşət deməkdir.

Artıq ermənilər həm hərbi, həm də diplomatiya cəbhəsində Azərbaycana daha böyük fərqlə uduzmağın gerçəkliyini anlamağa başlayıblar. Çünki elə aprel döyüşləri Azərbaycanın ötən dövrdə uğurlu xarici siyasət yeritdiyini göstərdi. Döyüşlər zamanı beynəlxalq təşkilatlar, xarici ölkələr Azərbaycanın ərazi bütövlüyünü tanıdıqları barədə bəyanatlar verdilər. Hətta Ermənistanın müttəfiqləri, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Avrasiya İttifaqındakı tərəfdaşları belə bu işğalçı dövləti dəstəkləməkdən imtina etdilər. Ermənistanla eyni hərbi-siyasi və iqtisadi blokda olan Qazaxıstan və Belarus açıq formada Azərbaycanı dəstəkləyərək, ölkəmizin ərazi bütövlüyünü tanıdıqlarını bildirdilər. Bu isə, erməni ictimaiyyətində ciddi suallar doğurdu. Bütün bunlar Azərbaycan rəhbərliyinin uğurlu xarici siyasətinin nəticəsi idi.

Aprel döyüşlərində qələbə həm də Azərbaycan üçün yeni bir şərait yaratdı. Dövlətimizin nüfuzu daha da artdı və beynəlxalq mövqeləri gücləndi. Bir daha təsdiq edildi ki, diplomatiya gücə arxalanmalıdır. Ölkə rəhbərliyinin yürütdüyü qətiyyətli, prinsipial və xalqın milli maraqlarına cavab verən siyasəti sayəsində Azərbaycanın ardıcıl şəkildə qazandığı diplomatik uğurlar Ermənistan rəhbərliyinin mürəkkəb vəziyyətə düşməsi ilə nəticələndi. Belə ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri artıq münaqişənin həlli ilə bağlı qəti mövqe ifadə edir, mövcud status-kvonun saxlanmasının mümkün olmadığı barədə ümumi rəy bildirirlər. Bu isə, beynəlxalq aləmin və dünyanın aparıcı dövlətlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli zamanının artıq çatmasına və bundan sonra mövcud status-kvonun saxlanmasının mümkünsüzlüyünə dair açıq mesajlar oldu. Ermənistandan fərqli olaraq, Azərbaycan dünyanın bütün dövlətləri ilə dost və tərəfdaşlıq münasibətləri qurub, balanslaşdırılmış siyasət həyata keçirərək, xarici ölkələrlə qarşılıqlı faydalı tərəfdaşlıq edir. Bu siyasətin nəticəsidir ki, bu gün dünyada Azərbaycan sülhpərvər, tolerant ölkə kimi tanınır və hər cəhətdən böyük nüfuz qazanıb. Ermənistanda isə bütün bunların əksi müşahidə olunur.

İndi işğalçı ölkədə çox yaxşı başa düşürlər ki, aprel hadisələri yenidən təkrarlanacağı halda, Azərbaycan Ordusunun hərbi əməliyyatı Ermənistan silahlı qüvvələrinin tam darmadağın edilməsi ilə nəticələnəcək. Azərbaycan Ordusunun regionun ən güclü ordusu və təchizat baxımından ən müasir tələblərə tam cavab verməsi bir çox beynəlxalq hərbi araşdırma mərkəzləri və ekspertlər tərəfindən də dəfələrlə qeyd edilib.

***"Səs" Analitik Qrupu***

TƏRS BAXIŞ

# "Meydan" TV "Milli Şura"nın mitinqini bu cür ifşa etdi

***Martın 31-də Bakının Yasamal rayonunun "Məhsul" maraqlı stadionunda "Milli Şura"nın keçirdiyi növbəti uğursuz mitinqi ətrafında bir-birindən maraqlı məlumatlar daxil olmaqdadır. Bu dəfə ittiham edən də, ittiham edilən də eyni cinahı - radikal müxalifəti təmsil edir.***




Məhz AXCP sədri Əli Kərimlinin "Milli Şura"nın adam sayı az olan mitinqlərini "kütləvi" göstərmək üçün əl atdığı bütün vasitələrini elə onu və ətrafını dəstəkləyən media qurumu - "Meydan" TV ifşa edib. Daha dəqiq desək, Ə.Kərimlinin idarə etdiyi mitinq "Məhsul" stadionunun yaxınlığında yerləşən binalardan birinin eyvanından çəkilib, özü də "Meydan" TV tərəfindən. Halbuki 31 mart mitinqinə qədər bənzər aksiyalar digər media qurumları tərəfindən yaddaşa köçürülürdü. "Milli Şura"nın rəhbərliyi isə, həmin çəkilişlərin qəsdən uzaqdan çəkildiyini, ya da mitinq başlamamışdan öncə, çəkildiyini iddia edirdilər. Ancaq "Meydan" TV-nin bu dəfə mitinqin gedişatını, bilavasitə lentə alması Kərimlinin ifşası ilə nəticəsini tapdı.

## Nəhayət ki, həmin "şübhələrini" öz kameralarından da gördülər

Misal üçün, həmin kadrlar yayılar-yayılmaz dünənə qədər sosial şəbəkələrdə "qəhrəmanlıq mücəssəməsi" kimi təqdim edilən "Meydan" TV dərhal "hakimiyyətə işləməkdə" ittiham olundu və ardı da necə deyərlər, bəllidir...

Daha öncələr digər informasiya qurumlarının çəkilişlərinə şübhə ilə baxan insanlar, nəhayət ki, həmin "şübhələrini" öz kameralarından da gördülər.

Məsələn, "Milli Şura"nın tərəfdarı olan şəxslərdən biri dərhal belə bir status yazaraq, "Meydan" TV-ni "Şeytan" TV adlandırıb. SİTAT: "Ayıb olsun, şəxsən Şeytan" TV.

## Düşünmək olar ki, "Meydan" TV müəyyən zamanda həmin reallığı, gözucu da olsa göstərmək istəyib...

Beləliklə, fakt həm də ondadır ki, bu gün çığır-bağır, meydan təfəkkürü və çöl-bayır müxalifəti hesab edilən dağıdıcı müxalif ünsürlər öz reallıq hisslərini o qədər tərk ediblər ki, hətta onlara məxsus olan media qurumlarının çəkdikləri həqiqəti də qəbul etmək, həzm edə bilmək gücündə deyillər. Buna isə, açıq-aşkar məğlubiyyət sindromu deyilir. Bu məğlubiyyətin mövcudluğu isə uzun illərdir onlara deyilir, yazılır. Ancaq rüsvayçı və acı məğlubiyyətləri ilə barışa bilməyənlər son anda mitinqlər keçirməklə, guya ayaqda olduqlarını göstərməyə çalışırlar. Hətta bir neçə müxalifət partiyası, eyni zamanda, siyasiləşmiş QHT-lər bir araya gəlsələr belə, istədikləri nəticəni əldə edə bilmirlər. Bu baxımdan, düşünmək olar ki, "Meydan" TV müəyyən zamanda həmin reallığı, gözucu da olsa, göstərmək istəyib, ancaq göründüyü kimi, dərhal "hakimiyyətə işləmək" suçu ilə qarşı-qarşıya qalıb. Hər halda düşünmək olar ki, "Meydan" TV bəlli çəkimi ilə "Milli Şura"nı daxilindən ifşa edib...

***Rövşən RƏSULOV***

# "Bakcell"dən beynəlxalq uşaq şahmat turnirinə dəstək

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell 1-6 aprel 2018-ci il tarixlərində Bakı şəhərində keçirilən uşaqlar arasında 17-ci beynəlxalq şahmat turnirinə dəstək göstərib. Bu ənənəvi turnir "Gənclik" Şahmat Klubu və Fransanın Azərbaycandakı Səfirliyi tərəfindən Azərbaycan Şahmat Federasiyasının təşkilati dəstəyi ilə keçirilir. İsveçrə sistemi üzrə keçirilən bu turnirdə Azərbaycan, Fransa, Böyük Britaniya, Gürcüstan, Rusiya, Türkiyə, Serbiya və Qazaxıstandan 50-dən çox gənc şahmatçı iştirak edir. Gənc istedadlı şahmatçıları həmişəki kimi "Bakcell"dən maraqlı hədiyyələr gözləyir.***



Bakcell şirkəti artıq bir neçə ildir ki, ölkəmizdə keçirilən beynəlxalq uşaq şahmat turnirlərinə öz dəstəyini əsirgəmir. Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə Şirkət Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərir və xüsusi qayğıya ehtiyacı olan uşaqlara yönəlmiş geniş miqyaslı layihələri həyata keçirir.

# Müxalifətin monoton mitinq fiaskosu

Uzun müddətdir hay-küylə, hap-gopla davam edən "təbliğatına", Kərimli və Həsənlinin pafoslarına rəğmən, mitinqə 1200 nəfərə yaxın adamın qatılması AXCP, "Milli Şura" və Müsavatın cəmiyyətdəki nüfuzunu, tərəfdaşlarının sayını göstərir. İnsanları mitinqə cəlb etmək üçün müxtəlif vasitələrə, hətta aztəminatlı insanlara pul paylanılmaları siyasi mübarizəni şəxsi ambisiyaların təminat yolu sayanların bu fiaskosu da əvvəlkilərdən zərrə qədər fərqlənmədi. Bir-birinin ardınca ayda bir neçə dəfə cılız aksiyaya bənzər mitinq keçirənlər, həmişə olduğu kimi, yenə də bir uğursuzluğa imza atdılar.

## Soyqırımının 100 illiyi tamam olduğu bir gündə mitinq keçirmək vətəndaşlıq mövqeyinə yaddır



Mitinq üçün seçilən tarixin belə uğurlu olmadığını təkzib etmək mümkün deyil. Azərbaycanlılara qarşı erməni-daşnak qüvvələrinin soyqırımı törətdiyi gün, 31 mart tarixində və soyqırımın 100 illiyinin tamam olduğu gündə "Milli Şura"nın mitinq keçirib, seçkilərlə bağlı hər hansı münasibət bildirməsi vətəndaşlıq mövqeyinə tamamən ziddir. Martın 31-nə mitinq təyin edilməsi ən azından, şəhidlərin ruhuna hörmətsizlikdir.

Bəs mitinqin bu günə təyin edilməsində "Milli Şura"nın məqsədi nə idi? Yoxsa ki, bu tarixi hadisənin, milli faciənin emosional-psixoloji təsir imkanlarından yararlanaraq, "şura"nın mitinqinin kütləviliyini təmin etmək, bu yolla iştirakçıların sayının çox olmasına nail olmaq və bundan da seçkiqabağı çirkin niyyətlər üçün istifadə etmək idi? Xalqın bu günə xüsusi diqqətini nəzərə alaraq, dağıdıcı müxalif ünsürlər əldə etmək istədikləri say çoxluğunu da geniş ictimaiyyətə, hətta dünya ictimaiyyətinə xaincəsinə sırımaq niyyəti güdürdülər. Yəni sadəcə olaraq, istifadə etmək məqsədi güdülürdü. Soyqırımdan, 31 mart hadisələrindən, müqəddəs şəhid ruhlarına olan ehtiramdan sui-istifadə etmək hansı vətəndaşlıq mövqeyinə sığışır? Qanunlar, haqq və hüquqlar heç də hər zaman yeganə istinad yeri olmur və milli mənsubiyyətinə hörmət edən kəslər belə bir qan yaddaşı günündə toplaşmaq azadlığından istifadə etməzdən öncə, vicdanının səsinə qulaq asardı, sözsüz ki, əgər var idisə. Təbii ki, xalq bu ali dəyərlərə hörmətsizlik edənlərə qoşulmadı və dəstək vermədi. Hər bir azərbaycanlının qəlbində şəhid ruhuna hədsiz ehtiram var və bu ehtiramı bir neçə avantüristin alətinə çevirmək və ucuz tutmaq niyyəti yoxdur.

## Son mitinq də öz təkrarçılığı ilə əvvəlkilərdən zərrə qədər seçilmədi

Martın 31-də keçirilən mitinq yenə də öz monotonluğu, təkrarçılığı ilə seçilmədi. Əksinə, bundan əvvəl keçirdikləri mitinqdə səsləndirilən şuarlar və xəyanətkar mövqe yenə də ortaya qoyuldu. Ə.Kərimli Azərbaycan hökumətini Rusiyadan yararsız silahlar almaqda günahlandırmaqla, radikalların Azərbaycanın hərbi qüdrətinə şər atmaq və düşməni ruhlandırmaq kimi xəyanətkar ənənələrinə sadiqliyini nümayiş etdirdi. Ələlxüsus, 31 Mart Soyqırımının 100 illiyinin tamam olduğu bir gündə, düşmən cəbhəsinə belə bir yalan mesaj verilməsi şəhid ruhuna, 100 il bundan öncə həlak olanların əbədi xatirəsinə hörmətsizlikdir ki, onların əsl simalarını göstərən bu xislət bağışlanmazdır.

Yaxud, "Milli Şura" sədri Cəmil Həsənlinin prezident seçkisi ilə əlaqədar sayıqlamaları da təkrarçılıqdan başqa bir şey deyildi. Onsuz da, ötən dəfə keçirilən mitinqdə bu barədə danışılmışdı axı utanmadan. Əlbəttə, utanmadan, çünki seçkidə iştirak etmədən, seçkiyə namizəd olaraq qatılmadan indidən seçki prosesinə bu qədər şər atmaq utanmazlıqdır. Adamda həya yaxşı şeydir, amma C.Həsənli seçkiyə qatılmaq gücündə olmadıqlarını bilərək, biabırçı məğlubiyyətlərini əvvəlcədən dərk edib kənara çəkilmələrinə rəğmən yenə də seçkiyə ağız büzürsə, onda bu həyadan əsər-əlamət olmadığını təsdiqləyir.

Maraqlıdır, lap sosial sifarişin olmadığını da bir tərəfə qoyaq, əgər ötən mitinqlərdə də eyni sözlər işlədilmişdisə, bu mitinqə daha nə ehtiyac var idi? Yaxud təşkilatçılardan bir söz soruşmaq yerinə düşərdi ki, ay başbilənlər, siz özünüz bu təkrarçılıqdan yorulub, bezməzdinizmi? Arqumentsiz ittihamlara, əsassız, özü də təkrar çıxışlara özünüz bu qədər qulaq asa bilərsizmi? Əslə. Heç Əvəz Zeynallı da qulaq asmadı. Mitinq başlayandan, qısa bir müddət sonra, "Məhsul"u və sizi tərk etdi. Bir zamanlar sizinlə tribunanı bölüşən, hətta aparıcılıq belə edən İbrahim İbrahimli də eyni reaksiyanı verdi və mitinqin tən yarısında, qurtarmağına 1 saat qalmış meydanı tərk etdi. Tribuna demişkən, heç Gültəkin Hacıbəyli də o kürsüyə çıxmadı və görünür, Kərimli üçün onun da istifadə müddəti qurtarıb və yararlılıq dərəcəsi heçə enib.

Mitinq adı qoyulmuş bu aksiyada iştirakçılar da öz ənənələrinə sadiq qalaraq, selfi çəkdirir, sosial şəbəkələr üçün şəkil bazasını artırmaqla məşğul olur və hər kəs öz iştirakını bununla başa çatmış hesab edildi. Burda məsələk, əqidə deyiləsi bir məfhumu axtarmaq da sadəlövhlük olardı. Umumiyyətlə, martın 31-də "Məhsul"da məhsuldarlıq sıfır səviyyəsində idi və bu meydan maraqların meydan suladığı müstəvini xatırladırdı. Əslində, radikalların bundan artığına gümanı belə yox idi və suda boğulanın saman çöpünə əl uzatması timsalında, bunların da hər vasitəyə əl atmalarına baxmayaraq, təkrarçı və biabırçı bu aksiya, monoton mitinq, fiaskodan başqa heç nə vəd edə bilməz.

***İnam HACIYEV***

# Prezidentliyə namizədin siyasi partiyaların bloku tərəfindən irəli sürülməsi və prezident seçkilərinin təşkili

***Mərkəzi Seçki Komissiyası siyasi partiyaların blokunun müvafiq sənədlər təqdim edilən gündən ən geci 5 gün ərzində qeydə alınıb-alınmaması barədə qərar qəbul etməlidir.***

Yuxarıda göstərilən sənədlər düzgün rəsmiləşdirilmədikdə, tam olmadıqda və ya Seçki Məcəlləsinin tələblərinə uyğun gəlmədikdə, Mərkəzi Seçki Komissiyası siyasi partiyaların blokunu qeydə almaqdan imtina edə bilər.

"Seçki hüququna dair protokolu" kitabında göstərilir ki, siyasi partiyaların bloku özünün emblemini də Mərkəzi Seçki Komissiyasının təsdiqinə təqdim edə bilər. Siyasi partiyaların bloku, onun tərkibindəki hər hansı siyasi partiyanın qeydə alınmış emblemi, yaxud digər siyasi partiyaların və siyasi partiyalar blokunun indiki və əvvəlki seçkilərdə istifadə etdikləri emblemlər istisna olmaqla (Seçki Məcəlləsinin 51.2-ci maddəsi nəzərə alınmaqla), istənilən emblemi təqdim edə bilər. Siyasi partiyaların rəmzləri əqli mülkiyyət hüquqlarını, əmtəə nişanlarına olan hüquqları pozmamalı, Azərbaycan Respublikasının və digər ölkələrin dövlət rəmzlərinə, dini rəmzlərə toxunmamalı, ümumən qəbul edilmiş əxlaq normalarını pozmamalıdır. Siyasi partiyaların bloku 5 sözdən çox olmayan adından, habelə, emblemindən seçki sənədlərində istifadə edilməsini Mərkəzi Seçki Komissiyası ilə razılaşdırılmalıdır. Əgər blokun adı fiziki şəxsin adı və ya soyadını daşıyırsa, həmin şəxsin buna yazılı razılıq ərizəsi olmalıdır. Siyasi partiyalar blokunun adı həm də həmin bloka daxil olmayan siyasi partiyanın adını daşımamalıdır.

Siyasi partiyalar blokunun adının və gedişində dəyişdirilməsinə icazə verilmir.

Siyasi partiyaların bloku Mərkəzi Seçki Komissiyasına özünün emblemini də təqdim edə bilər. Bu emblem həmin bloka daxil olan siyasi partiyaların, digər siyasi partiyaların və ya siyasi partiyalar blokunun emblemini təkrarlaya bilməz. Siyasi partiyaların blokunun rəmzləri əqli mülkiyyət hüquqlarını, əmtəə nişanlarına olan hüquqları pozmamalı, Azərbaycan Respublikasının və digər ölkələrin dövlət rəmzlərinə, dini rəmzlərə toxunmamalı, ümumən qəbul edilmiş əxlaq normalarını pozmamalıdır.

Siyasi partiyalr blokunun adının və embleminin seçkilərin gedişində dəyişdirilməsinə icazə verilmir.

- Adı prezidentliyə namizədin siyasi partiyaların bloku tərəfindən irəli sürülməsi qaydaları:

Siyasi partiyaların bloku tərəfından irəli sürülən prezidentliyə namizəd bloka daxil olan hər bir siyasi partiya tərəfindən təsdiq edilir. Siyasi partiyaların bloku tərəfindən namizədin irəli sürülməsi haqqında qərar siyasi partiyaların nümayəndələrinin iclasında (qurultayında, konfransında, rəhbər orqanın iclasında) qəbul edilir. Siyasi partiyaların bu səlahiyyətli nümayəndələri partiyalarının qurultayında (konfransında, rəhbər orqanın iclasında) müəyyənləşdirilir. Namizədin irəli sürülməsi barədə siyasi partiyalar blokunun qərarı protokolla rəsmiləşdirilir. Həmin protokolda aşağıdakılar göstərilməlidir:

- hər bir siyasi partiyanın nizamnaməsinə uyğun olaraq, rəhbər orqanın iclasında (qurultayda, konfransda) iştirak etmək üçün qeydə alınmış iştirakçıların sayı;
- siyasi partiyalar blokunun yaradılması haqqında sazişdə nəzərdə tutulan qərarın qəbul edilməsi üçün lazım olan iştirakçıların sayı;
- prezidentliyə namizədin irəli sürülməsi barədə qərar;
- prezidentliyə namizədin irəli sürülməsi barədə qərar üzrə səsvermənin nəticələri (lehinə, əleyhinə və bitərəf qalanların sayı);
- siyasi partiyaların bloku tərəfindən prezidentliyə namizədin irəli sürülməsi barədə qərarın qəbul edilməsi tarixi;
- səlahiyyətli nümayəndələrin təyin edilməsi.

Siyasi partiyalar, siyasi partiyaların blokları təyin etdikləri səlahiyyətli nümayəndələrin hər birinin soyadı, adı, atasının adı, doğum tarixi, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş yeri və vəzifəsi (bu olmadıqda, fəaliyyət növü), telefon nömrəsi qeyd edilən siyahını Mərkəzi Seçki Komissiyasına təqdim etməlidirlər. Həmin siyahıya hər bir şəxsin səlahiyyətli nümayəndə olmağa Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının həyata keçirilməsinə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.6-cı maddəsinə əsasən, respublikamızın diplomatik nümayəndəlikləri və konsulluq idarələri cavabdehdirlər.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və ya uzunmüddətli xarici ezamiyyətdə olan Azərbaycan Respublikası vətəndaşlarının seçici siyahılarına daxil edilməsi üçün əsas onların Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi və daha çox yaşaması, habelə, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və ya konsul idarələrinin müəyyənləşdirdiyi uzunmüddətli xarici ezamiyyətlərdə olması faktı əsas götürülür. Səsvermə günü xarici dövlətlərdə olan seçicilərin səs verməsi və səslərin hesablanması üçün seçki məntəqələri seçicilərin olduğu ərazilərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsul idarələrinin rəhbərləri tərəfindən konsul qeydiyyatına durmuş seçicilərin sayı 50-dən artıq olduqda, səsvermə gününə azı 30 gün qalmış qapadılır.

Səsvermə günü xarici dövlətlərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi və ya konsul idarəsi mövcud deyilsə və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyində və ya konsul idarədində Azərbaycan Respublikası Seçki Məcəlləsinin 35.6-cı maddəsinə uyğun olaraq, seçki məntəqəsi yaradılmayıbsa, həmin xarici dövlətdə olan Azərbaycan Respublikasının vətəndaşları səsvermədə iştirak etmirlər.

Seçki məntəqələrinin yaradıldığı yerlərdə (seçicilərin sayı 30-dan az olduqda) səsvermənin təşkilini diplomatik nümayəndəliyin və ya konsul idarəsinin azı 2 (iki) əməkdaşına tapşırılmasına icazə verilir.

Mərkəzi Seçki Komissiyası Xarici İşlər Nazirliyi ilə birkildə seçki sənədlərinin diplomatik nümayəndiklərdə və konsul idarələrində yerləşən seçki məntəqələrinə çatdırılmasını təmin edir.

Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyası tərəfindən səsverməyə yekun vurularkən, xaricdə yerləşən seçki məntəqələrindən faks vasitəsilə alınmış məlumatlar səsvermənin nəticələri haqqında yekun protokoluna daxil edilir.

Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılan seçki məntəqələri, seçkilərin və səsvermənin nəticələri ilə bağlı məlumatların dərci məsələsi yerli şəraiti nəzərə alınmaqla, Azərbaycan Respublikasının müvafiq diplomatik nümayəndəliklərinin və konsul idarələrinin rəhbərləri tərəfindən həll edilir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi xaricdə yerləşən diplomatik nümayəndəliklərdə və konsul idarələrində təşkil olunmuş seçki məntəqələri ilə fasiləsiz əlaqə saxlanmasını təmin etmək üçün lazımi tədbirlər görülməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsində və Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 14-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, prezident seçkilərinin keçirilməsi günü (həmin gün də daxil olmaqla) 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının prezident seçkilərində iştirak etmək hüququ vardır.

Bununla belə, yuxarıda göstərilən tələblərə cavab verən 18 yaşına çatmış və Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxslər də prezident seçkiləri zamanı səsvermədə iştirak edə bilərlər.

Lakin Azərbaycan Respublikasında 5 ildən az olan müddətdə yaşayan və vətəndaşlığı olmayan şəxslər aktiv və passiv seçki hüququna malik deyillər və həmin şəxslər prezident seçkilərində iştirak edə bilməzlər.

Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənəd 30 dekabr 1997-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında" Əsasnaməyə müvafiq olaraq, Azərbaycan Respublikasının hüdudlarında istifadə edilməsi üçün 16 yaşına çatdıqdan sonra vətəndaşlığı olmayan şəxsə verilən şəxsiyyət vəsiqəsidir.

Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxsin seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilməsi üçün həmin şəxsin yaşayış yeri üzrə qeydiyyatını aparan orqanın müəyyənləşdirdiyi müvafiq seçki məntəqəsinin ərazisində daimi yaşaması (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində seçki məntəqəsinin ərazisində yaşaması) faktı əsas götürülür.

Azərbaycan Respublikasında 5 ildən az olmayaraq (yaşayış yeri göstərilməklə) daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin siyahısı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən səsvermə gününə azı 50 gün qalmış müvafiq dairə seçki komissiyasına təqdim edilir. Səsvermə gününə azı 35 gün qalmış dairə seçki komissiyaları həmin siyahıların məntəqə seçki komissiyalarına çatdırılmasını təmin edir.

Azərbaycan Respublikasında 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxs prezident seçkilərinin gedişini müşahidə etmək, seçkiqabağı təşviqatda iştirak etmək və Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulan digər seçki hərəkətlərində Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər qaydada iştirak edə bilərlər.

Azərbaycan Respublikası ərazisində 5 ildən az olmayaraq daimi yaşayan, vətəndaşlığı olmayan şəxslərin prezident seçkilərində səs verməsi ümumi qayda olaraq, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 104-cü maddəsi ilə tənzimlənir.

Vətəndaşlığı olmayan şəxslər namizədlərin seçki fondlarına könüllü ianə ayırmaq, yaxud xidmət göstərilməsi yolu ilə yardım etmək hüququna malik deyillər.

Əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər seçkilər zamanı namizədlərin irəli sürülməsinə, qeydə alınmasına, qeydə alınmış namizədlərin seçilməsinə kömək edə və ya mane ola bilməzlər. Bu da əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin piket azadlıqlarını və sərbəst toplaşma hüquqlarını məhdudlaşdırmır.

Bu tələblərə riayət etməyən əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər qanunla müəyyənləşdirilmiş qaydada məsuliyyətə cəlb edilirlər.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Şabranlıların seçimi Cənab İlham Əliyevdir

***Dünən Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsi YAP tərəfindən namizədliyi irəli sürülmüş Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində təhsil işçiləri ilə görüş keçirib.***






Görüşdə çıxış edən YAP Mərkəzi Seçki Qərargahının Şabran rayon şöbəsinin və rayon təşkilatının sədri Mehdi Balabəyov ölkəmizin dinamik inkişafından, Azərbaycanın son 15 illik sosial-iqtisadi inkişafındakı uğurlarından danışıb. O, görülən hər bir işin Azərbaycanın işıqlı gələcəyi, onun vətəndaşı üçün olduğunu diqqətə çatdırıb. Rayon təşkilatı sədri 11 aprel tarixində hər bir şabranlı seçicini ölkəmizin gələcək inkişafı naminə Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Görüşdə millət vəkili, "Yeni Azərbaycan" qəzetinin Baş redaktoru Hikmət Babaoğlu çıxış edərək Azərbaycanın müstəqil dövlət kimi dünyanın bir çox aparıcı dövlətləri səviyyəsində inkişafının Ulu Öndər Heydər Əliyevin məqsədli fəaliyyəti nəticəsində, reallaşdığını qeyd etdi. Bildirib ki, Ümummilli Liderin uğurlu siyasətini layiqli şəkildə davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin son on beş illik dövrdəki fəaliyyəti ölkəmizin yeni inkişaf dövrü yaşamasına səbəb olub: "Paytaxtda olduğu kimi, respublikamızın regionlarında da sosial infrastrukturun inkişafı da maksimum diqqətdə saxlanır. Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində, dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan ölkəmiz uğurları ilə tarixə düşür". O, çıxışının sonunda şabranlı seçiciləri Cənab İlham Əliyevin ideyaları ətrafında sıx birləşməyə çağırdı.

Tədbirdə çıxış edən Milli Məclisin üzvü Tahir Süleymanov 15 il ərzində müxtəlif sahələrdə görülən işlərin Azərbaycanın görkəminin nəzərəçarpacaq dərəcədə dəyişdiyini bildirdi. Seçiciləri 11 apreldə düzgün seçim edərək, Cənab İlham Əliyevə səs verməyə səslədi.

## ELAN

02.04.2018-ci il tarixində 1201522711 saylı qeydiyyat nömrəsi ilə qeydiyyata alınmış "TƏMİZ QAZ" Məhdud Məsuliyyətli Cəmiyyəti təşkilati hüquqi formasının dəyişdirilərək "TƏMİZ QAZ" qapalı səhmdar cəmiyyətinə çevrilərək yenidən təşkil olunduğunu elan edir.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə I kurs tələbəsi Nəsirova Nərmin Oqtay qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



# Səs

Son səhifə 3 aprel






R

# Möhtəşəm qələbəyə doğru "İlhamla İrəli!"

***11 aprel 2018-ci ildə keçiriləcək prezident seçkiləri ilə əlaqədar YAP Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsi tərəfindən Yeni Azərbaycan Partiyasının namizədi Cənab İlham Əliyevin təbliğat-təşviqat kampaniyası çərçivəsində ümumrayon təşviqat mitinqi keçirilib.***




YAP-ın namizədi Cənab İlham Əliyevi dəstəkləyən on minlərlə balakənlinin iştirak etdiyi mitinqi giriş sözü ilə açan YAP Mərkəzi Seçki Qərargahının Balakən rayon şöbəsinin sədri Azad Balayev qeyd edib ki, Azərbaycan 2003-cü ildən tarixinin yeni mərhələsinə qədəm qoymuşdur: "Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan son 15 ildə sürətlə inkişaf edərək, regionun lider dövlətinə çevrilmişdir. Reallıq göstərir ki, Prezident İlham Əliyev rəhbərliyi dövründə Azərbaycanın inkişafı və güclənməsi üçün bütün addımlar atılıb və çoxşaxəli islahatlar kursu respublika iqtisadiyyatında böyük uğurlara zəmin yaradıb, hər bir vətəndaşın həyatında irəliləyişlərə səbəb olub." Rayon təşkilatının sədri "İLHAMLA İRƏLİ!", - deyərək, bütün balakənliləri Cənab İlham Əliyevə səs verməyə çağırıb.





Tədbirdə Milli Məclisin üzvü Kamilə Əliyeva çıxış edərək, 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının tətbiqi ilə həyata keçirilən islahatlardan danışaraq, seçiciləri prezident seçkilərində alternativsiz namizəd olan Cənab İlham Əliyevə səs verməyə çağırıb.

"Səs" qəzetinin Baş redaktoru Bəhruz Quliyev çıxışında vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müdrik siyasətini uğurla davam etdirərək, Azərbaycanda müşahidə edilən dinamik yüksəlişə nail olub: "Bu gün Azərbaycan bölgədə sabitlik, təhlükəsizlik məkanı olmaqla, nəinki ölkə daxilində, eyni zamanda, regionda aparıcı rola malikdir. Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən üstün tutan Cənab İlham Əliyev alternativsiz namizəddir." B.Quliyev seçiciləri ölkəmizin daha uğurlu gələcəyi üçün 11 apreldə fəal olmağa və Cənab İlham Əliyevə səs verməyə çağırıb.

Tədbirdə Milli Məclisin üzvi Nəsib Məhəmməliyev, YAP Mərkəzi Aparatının məsul işçisi Emin Abbasov çıxış edərək, son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın nüfuzunun yüksələrək, dünyanın super dövlətləri arasında mövqe tutduğunu bildirərək, bu uğurların Cənab İlham Əliyevin 2003-cü ildən başlayaraq, apardığı düşünülmüş siyasətin məntiqi nəticəsi olduğunu bildirdilər. Seçiciləri bu işlərin davamlı olması üçün 11 apreldə partiyanın namizədi Cənab İlham Əliyevə səs verməyə çağırdılar.

***Nəzakət ƏLƏDDİNQIZI***



*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**